Xalqın qəzeti!

# Xalq qəzeti

№ 83 (30777) 26 aprel 2025-ci il, şənbə

Gündəlik ictimaisiyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan – Çin: təhlükəsiz dünya naminə əməkdaşlıq

### Nümunəvi birgə fəaliyyət modeli

**Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı aprelin 23-də hər iki ölkənin lideri tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" fundamental əhəmiyyətə malik sənəddir. Fikrimizi təsdiqləyən bir sıra məqamlar var. Onlardan ən başlıcası budur ki, bəyanat təkcə ölkələr arasındakı münasibətlər sistemini əhatə etmir, eyni zamanda, Azərbaycanın və Çinin dünyaya müştərək baxışını müəyyənləşdirir. Daha doğrusu, baxışa dolğunluq qazandırır. Hesab edirik ki, bu baxımdan sənədin 15-ci bəndi üzərində dayanmağa xüsusi ehtiyac var.**



Beləliklə, birgə bəyanatın 15-ci bəndində bildirilir ki, Azərbaycan Çin tərəfindən təklif olunan Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyir və BMT-nin 2030-cu ilədək olan Dayanıqlı İnkişaf üzrə Gündəliyinin həyata keçirilməsini sürətləndirmək üçün səyləri birləşdirmək məqsədilə "Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu"na qoşulmağa hazır olduğunu bildirir.

Əvvəla, bir vacib məqamı vurğulayaq ki, həm Qlobal İnkişaf Təşəbbüsü (QİT), həm Qlobal Təhlükəsizlik Təşəbbüsü (QTT), həm də Qlobal Sivilizasiya Təşəbbüsü (QST) birlikdə Çinin beynəlxalq münasibətlərdə yeni dünya nizamı qurmaq istiqamətindəki strategiyasının əsas sütunlarını təşkil edir.

(ardı 4-cü səhifədə)

# Avropa İttifaqı Azərbaycanla enerji–nəqliyyat tərəfdaşlığını genişləndirir

### Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib.**

Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini dedi. O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu dedi, Cənub Qaz Dəhlizinin 4 ildir fəaliyyət göstərərək Avropanın qaz təchizatında oynadığı əhəmiyyətli rola toxundu.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan qaz təchizatının coğrafi əhatəsinə görə Avropa məkanını qazla təmin edən ilk ölkələrdən biridir.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında uğurlu və səmərəli dialoqun mövcud olduğunu deyən dövlətimizin başçısı bərpaolunan enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkəmiz Xəzərin Azərbaycan sektorunda zəngin külək enerji resurslarına malikdir. Dövlətimizin başçısı vurğuladı ki, eyni zamanda, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Trans-Xəzər enerji dəhlizinin inkişaf etdirilməsində və Qara dəniz istiqamətində Gürcüstan, Rumıniya, Macarıstan, son dövrlərdə isə Bolqarıstanın da qoşulduğu layihələrin reallaşdırılmasında mühüm rol oynayır.

Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizlə Avropa İttifaqı arasında qazla yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar var.

Söhbət zamanı, həmçinin Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində ikitərəfli əsasda addımların atıldığını və müzakirələrin aparıldığını qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan – Avropa İttifaqı: yeni strateji yanaşma



**Azərbaycanla Avropa İttifaqı artıq yalnız bu günün maraqlarını deyil, gələcəyin çağırışlarını da birgə qarşılayacaqlarını nümayiş etdirirlər. Mövcud münasibətlər klassik diplomatik çərçivədən çıxaraq ortaq gələcəyin strateji əsaslarla qurulmasına yönəlmiş əməkdaşlığa çevrilir.**

Prezident İlham Əliyevin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitseprezidenti Kaya Kallası qəbul etməsi Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə münasibətlərində yeni mərhələnin simvolik başlanğıcı, strateji və hüquqi kontekstli bir dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. Görüş qarşılıqlı maraqların praktiki zəmində yaxınlaşdırıldığı, siyasi iradənin isə reallıqlarla uzlaşdırıldığı bir platforma rolunu oynadı. Uzun müddət Avropada hökm sürən geosiyasi stereotiplər, qərəzli yanaşmalar və regionla bağlı yanlış təsəvvürlər bu görüşdə səssizcə arxa plana çəkildi. Yerini isə daha praqmatik, realist və strateji maraqlara əsaslanan bir baxış aldı.

Artıq Brüsseldə Azərbaycanın geosiyasi çəkisi təkcə enerji resursları ilə deyil, həm də regiondakı sabitləşdirici rolu, nəqliyyat bağlantılarındakı qovşaq mövqeyi və gələcəyə yönəlmiş "yaşıl" enerji təşəbbüsləri ilə qiymətləndirilir. Avropa üçün enerji siyasi və təhlükəsizlik məsələsidir. Deməli, Azərbaycanı enerji tərəfdaşı kimi deyil, enerji təhlükəsizliyinin açar oyunçusu kimi görmək – əslində, Aİ-nin yeni reallığı dərk etdiyinin göstəricisidir.

Siyasi-hüquqi aspektdən baxdıqda Aİ-nin bu mövqeyi 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsindən çıxaraq, daha müasir və kompleks Strateji Tərəfdaşlıq çərçivə sazişi ilə əvəzlənmək istiqamətində irəlilədiyini göstərir. Hazırda danışıqları davam edən bu sənəd tərəflərin hüquqi öhdəliklərini, qarşılıqlı maraqlarını, normativ bazasını daha müasir beynəlxalq hüquq prinsiplərinə uyğunlaşdırmaq məqsədi daşıyır və münasibətlərin institusional mahiyyət qazanması üçün ciddi addımdır.

Azərbaycan ilə Aİ arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) uzun illər boyunca tərəflər arasında siyasi, iqtisadi və hüquqi münasibətlərin əsasını təşkil edib. Lakin bugünkü geosiyasi reallıqlar, enerji təhlükəsizliyi çağırışları və diplomatik gündəm bu sənədin artıq kifayət qədər aktual olmadığını, münasibətlərin daha çevik, strateji və dərin inteqrasiya tələb etdiyini açıq şəkildə göstərir. Əslində, 1996-cı il sazişi postsovet məkanında yeni müstəqil dövlətlərlə Aİ-nin münasibətlərini tənzimləyən tipik bir çərçivə idi – daha çox ticarət, bazar iqtisadiyyatı və siyasi dialoqa dair ümumi prinsipləri əhatə edirdi. Lakin bu çərçivə nə Azərbaycan – Aİ münasibətlərinin bugünkü səviyyəsini, nə də Avropanın Cənubi Qafqazda dəyişən maraqlarını tam əhatə edə bilir.

(ardı 9-cu səhifədə)

# Bakı beynəlxalq kosmik müzakirələr mərkəzinə çevrilib



Səhifə ⇨ 7

## Hindistan və Pakistan yenidən üz-üzə...



Səhifə ⇨ 15

# Müstəqil dövlətdə sahibkarlığın hüquqi əsasları



**Dünən Bakıda İqtisadiyyat Nazirliyi, Azərbaycan Sahibkarlar Konfederasiyası və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"ndə "Sahibkarlar Günü"nə həsr olunmuş "Konstitusiya və suverenlik: Azərbaycanda sahibkarlığın inkişafı" mövzusunda konfrans keçirilib.**

(ardı 8-ci səhifədə)

## Madam Coli başından böyük danışdı

Səhifə ⇨ 11

# "Metsamor" AES dilemma qarşısında: ABŞ, yoxsa Rusiya?

*Vaşinqton nüvə müqaviləsi müqabilində Paşinyana hakimiyyət vəd edib*



**Ermənistanda "Metsamor" atom elektrik stansiyasının istismar müddəti başa çatıb. Onun ləğv edilməsi bir neçə dəfə gündəmdə olub. Sonradan Ermənistanın enerji ehtiyacını nəzərə alaraq AESin fəaliyyətinin davam etdirilməsi nəzərdən keçirilib və müddəti uzadılıb. Bununla bağlı 2023-cü il dekabrın 15də "Rosatom" və Ermənistan AES arasında stansiyanın ikinci enerji blokunun istismar müddətinin 2036-cı ilə qədər uzadılması haqqında saziş imzalanıb.**

(ardı 9-cu səhifədə)

# Prezident İlham Əliyev ATƏT-in Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edib. Dövlətimizin başçısı Feridun Sinirlioğlunu ATƏT-in Baş katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi.**

Feridun Sinirlioğlu təbrikə görə təşəkkürünü bildirdi. Qonaq Cənubi Qafqaz bölgəsinin ATƏT-in gündəliyində duran mühüm regionlardan biri olduğunu vurğuladı.

ATƏT-in Baş katibi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin razılaşdırılması ilə bağlı əldə olunmuş nəticələrə görə təbriklərini çatdıraraq, iki ölkənin münasibətlərinin normallaşdırılması istiqamətində müzakirələrin aparıldığını qeyd etdi.

Qonaq ATƏT-in Azərbaycanla həyata keçirdiyi əməkdaşlıq layihələrinə toxundu.

Dövlətimizin başçısı keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını deyərək, Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi yollarla tam təmin etdiyini, bununla da ölkəmiz tərəfindən Helsinki Yekun Aktının, beynəlxalq hüququn norma və prinsiplərinin Cənubi Qafqazda təsbit edilməsinin təmin olunduğunu dedi.

Görüşdə Azərbaycan ilə ATƏT arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimaisiyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçipublisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir.

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Keçən yüzilliyin sonlarında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət–media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur.

Ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mətbuatın Azərbaycanın ictimaisiyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası ilə birlikdə yubiley tədbirlərinin keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti yubiley tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 aprel 2025-ci il**

# Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikasının səlahiyyətli qurumunun müəyyən edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2021-ci il 14 dekabr tarixli 427VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında Saziş"in Əlavəsi – "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın Əsasnaməsi"nin 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikası tərəfindən səlahiyyətli qurum Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi müəyyən edilsin.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Müstəqil Dövlətlər Birliyinin Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şurasında Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Azərbaycan Respublikasının səlahiyyətli qurumu müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 aprel 2025ci il**

# Prezident İlham Əliyev Roma Papasının vəfatı ilə əlaqədar başsağlığı verib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 25-də Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olub, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı veriblər.**



Dövlətimizin başçısını və birinci xanımı Azərbaycanda Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Fekete qarşıladı.

Azərbaycan Prezidenti və birinci xanım matəm kitabına ürək sözlərini yazdılar.

Sonra dövlətimizin başçısı və birinci xanım Vladimir Fekete ilə söhbət etdilər.

Roma Papası Fransisklə görüşlərini və onun Bakıya səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı qeyd etdi ki, Papa Fransiskin Heydər məscidində ölkəmizdə fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüşü insanlar arasında birliyin bərqərar olmasının vacibliyi ilə bağlı mesaj idi. Prezident İlham Əliyev Papa Fransiskin xatirələrdə çox sadə, adi insanların ehtiyac və arzuları ilə yaşayan bir şəxs kimi qalacağını dedi.

Birinci xanım Mehriban Əliyeva da öz növbəsində Papa Fransisklə görüşlərini məmnunluqla xatırladı.

Vladimir Fekete dövlətimizin başçısına və birinci xanıma başsağlığına görə minnətdarlığını bildirdi. O, Roma Papasının katolik kilsənin lideri kimi bir nümunə olduğunu dedi.

***AZƏRTAC***

## Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək On Üçüncü sessiyasının (WUF13) milli koordinatorunun təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycanda şəhərsalma fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəflərindən biri kimi müəyyən olunmuşdur. Hazırda bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılır, şəhərsalma və urbanizasiya sahəsində müasir standartlar tətbiq edilməklə Bakıda və respublikanın digər şəhərlərində gerçəkləşdirilən layihələr ölkənin hərtərəfli inkişafında mühüm rol oynayır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tamamilə dağıdılmış yüzlərlə kənd, qəsəbə və şəhərin yenidən qurulması prosesi planlı şəkildə sürətlə davam etdirilir.

Azərbaycanın müasir şəhərsalma təcrübəsi 2022–2023-cü illərdə keçirilən milli şəhərsalma forumlarında geniş nümayiş etdirilmişdir. Regionda ilk dəfə təşkil edilən bu forumlar şəhərsalma ilə bağlı ən dolğun müzakirələrin aparıldığı bir platforma yaratmışdır.

Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınmışdır. Azərbaycana hörmət və etimadın göstəricisi olan bu mötəbər tədbirin yüksək səviyyədə təşkili ölkənin inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2026-cı ildə Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) yüksək səviyyədə təşkili və ölkəmizin şəhərsalma fəaliyyətinin beynəlxalq miqyasda təbliği məqsədilə **qərara alıram:**

**1.** Anar Adil oğlu Quliyev Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) milli koordinatoru təyin edilsin.

**2.** Milli koordinatora Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasına (WUF13) hazırlıq işlərinin aparılması səlahiyyəti verilsin.

**3.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 aprel 2025-ci il**

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasında müzakirə



**Aprelin 25-də Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə qurumun iclası keçirilib.**

Toplantıda holdinqin idarəetməsinə verilmiş Portfel Şirkətlərin 2024-cü ilin yekunları üzrə Fəaliyyət Hesabatı, əsas maliyyə nəticələri, o cümlədən ümumi gəlir və EBİTDA göstəriciləri, AİH-in idarəetməsinə verilmiş yeni portfel şirkətlər ("Azəralüminium" MMC, "Azərbaycan Alüminium" ASC və "Azərpambıq ASK" MMC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən portfel şirkətlərində korporativ idarəetmənin qiymətləndirilməsi layihəsinin yekun hesabatı və əsas praktik tövsiyələri, Birgə İnvestisiya fondları çərçivəsində görülmüş işlər və digər məsələlər ətraflı müzakirə olunub.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, iclasda Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun geniş hesabatı dinlənilib.

İclasın yekununda AİH-nin Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub və holdinqin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Sahibə Qafarova Vatikanda



**Aprelin 25-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti Roma Papası Fransiskin dəfn mərasimində iştirak etmək üçün Vatikana səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Milli Məclisin sədri aprelin 26-da Santa Maria Maggiore bazilikasında keçiriləcək dəfn mərasimində ölkəmizi təmsil edəcək, Roma Papasının son mənzilə yola salınması tədbirlərinə qatılacaq.

***XQ***

# Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının perspektivləri



**Aprelin 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.**

Tərəflər arasında keçirilmiş təkbətək və geniş tərkibdə görüşlər zamanı Azərbaycan və Aİ arasında əməkdaşlıq gündəliyinin mövcud vəziyyəti, inkişaf perspektivləri, enerji təhlükəsizliyi, nəqliyyat, kommunikasiyalar, iqlim dəyişmələri ilə mübarizə daxil olmaqla müxtəlif sahələrdə əməkdaşlıq imkanları, habelə regional təhlükəsizlik məsələləri və Azərbaycan-Ermənistan normallaşma prosesi müzakirə olunub.

Bununla yanaşı, görüş zamanı tərəflər Azərbaycan ilə Aİ arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək tədbirlərin, o cümlədən yüksəksəviyyəli səfərlərin və qarşılıqlı faydalı təşəbbüslər barədə fikir mübadiləsi aparıb, həmçinin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzrə danışıqların mövcud reallıqlar nəzərə alınmaqla, davam etdirilməsinin önəmini vurğulayıb.

Ceyhun Bayramov Azərbaycanın hər zaman Aİ ölkələri ilə bir-birinin legitim maraqlarının, prioritet məsələlərinin və mövcud reallıqların nəzərə alındığı və hörmət bəslənildiyi bərabərhüquqlu münasibətlərin qurulmasının tərəfdarı olduğunu bildirib.

Nazir Ceyhun Bayramov həmkarına postmünaqişə dövründə bölgədəki vəziyyət, azad edilmiş ərazilərdə aparılan bərpa işləri, mina təhdidi ilə mübarizə və keçmiş məcburi köçkünlərin qayıdışı barədə məlumat verib.

Söhbət zamanı, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu vurğulanaraq, ölkəmizin COP29 sədrliyi çərçivəsində xüsusilə maliyyə hədəflərinin artırılması daxil olmaqla, iqlim dəyişmələri ilə mübarizə sahəsində dönüş yarada biləcək tarixi razılıqların, eləcə də yaşıl enerji sahəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Sonda mətbuat konfransı keçirilib, tərəflər bəyanatla çıxış ediblər.

***XQ***

# Daxili İşlər Nazirliyinin kollegiya iclası

**Aprelin 25-də Daxili İşlər Nazirliyinin müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin hüquqlarının qorunması, cinayət işlərinin istintaqı və təhqiqat zamanı qanunçuluğa riayət edilməsi, polis-media əlaqələrinin təşkili sahəsində görülən işlərin vəziyyətinə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2025-ci ilin I rübündə də məqsədyönlü şəkildə davam etdirilib.



Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 7.829 cinayətin 87 faizi açılıb. Cinayətlərin dinamikasında 2024-cü ilin eyni dövrü ilə müqayisədə 12,3 faiz və ya 1.101 fakt azalma qeydə alınıb.

Ağır və xüsusilə ağır cinayətlər, şəxsiyyət əleyhinə olanlar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, ictimai yerlərdə, qrup halında və ailə münaqişəsi zəminində baş verənlər, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən və odlu silahın tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı azalıb.

Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, şəxsiyyət əleyhinə olanların, xuliqanlıqların, oğurluqların, dələduzluqların, soyğunçuluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb. Qeyri-leqal dövriyyədən 1 ton 662 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 333 kiloqram çox narkotik vasitə çıxarılıb. Əllərdə qanunsuz saxlanılan 2.309 odlu silah aşkarlanıb.

Vətəndaş məmnunluğunun təmin edilməsi, o cümlədən müraciətlərə baxılması üzrə fəaliyyətin nəticələrinin müsbət olduğunu, cinayət yolu ilə şəxslərə vurulmuş maddi ziyanın 96 faizinin istintaq prosesində ödənildiyini nəzərə çatdırıb.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı Nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulan tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə icra olunduğunu, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunan müsbət nəticələrin inkişaf etdirilməsini tələb edib.

Bütün ərazi polis orqanlarının rəislərindən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasının zəruriliyini və müvafiq sahədə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Törədilmiş əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşmasında polis orqanlarının istintaq və təhqiqat qurumlarının mühüm rolunu, bu istiqamətdə işin düzgün təşkilinin cinayətlərin açılmasında və araşdırılmasında, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasında, vurulmuş maddi ziyanın ödətdirilməsində əhəmiyyətini də qeyd edib. Hər bir müstəntiqin və təhqiqatçının əsas vəzifəsinin insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu vurğulayıb və aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Ərizə və şikayətlərə baxılması, eləcə də qanunçuluğun qorunması vəzifələrinin icrası kimi vacib məsələlərə toxunaraq bu istiqamətlərdə görülən işlərin xüsusi nəzarətdə saxlanıldığını, müraciətlərin obyektiv və həssaslıqla araşdırıldığını, qaynar xətlərə daxil olmuş və sosial şəbəkələrdə yayımlanmış məlumatlara çevik reaksiya verildiyini, bütövlükdə əldə edilmiş nəticələrin müsbət olduğunu bildirib.

Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqinin, o cümlədən əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, "Elektron Xidmətlər Portalı" üzərindən göstərilən daha 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını diqqətə çatdırıb. Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin müəyyən edilib məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Paytaxtda nəqliyyat sıxlığının mövcudluğuna və tıxacların yaranmasına da diqqət çəkən nazir aidiyyəti qurumlarla birgə bu cür halların, o cümlədən nəqliyyat vasitələrinin və piyadaların sərbəst, rahat, təhlükəsiz hərəkətinə mane olan qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısının alınmasını, insanların həyat və sağlamlığının yol-nəqliyyat qəzalarından qorunması işinin effektivliyinin artırılmasını tələb edib, habelə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində qarşıda duran vəzifələri müəyyən edib.

Yekunda polis-media əlaqələrinin vəziyyətinə toxunaraq Daxili İşlər Nazirliyinin mediaya ən açıq qurumlardan biri olduğunu qeyd edərək Mətbuat Xidmətinin fəaliyyətinin daha səmərəli təşkili, informasiya məkanında rolunun artırılması, görülən işlər və həyata keçirilən tədbirlər barədə məlumatların ictimaiyyətə operativ çatdırılması üçün tapşırıq və tövsiyələrini verib.

***XQ***

# XİN: Revanşizm və etnik nifrət düşüncəsi pislənməlidir

**Aprelin 23-də Ermənistanın paytaxtı İrəvanda "məşəl yürüşü" zamanı, habelə aprelin 14-də Fransanın paytaxtı Paris şəhərində erməni icmasının toplantısı zamanı Azərbaycan Bayrağının yandırılmasını qətiyyətlə pisləyirik.**

Bu barədə Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanıb.

Bəyanatda qeyd edilib: "Ermənistan və Fransa hökumətləri etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu kimi kampaniyaların qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi. Ermənistan və Fransa hökuməti bu hərəkətləri törətmiş şəxsləri məsuliyyətə cəlb etməlidir.

Ermənistanda və ondan kənarda hələ də güclü şəkildə revanşist və etnik nifrətə əsaslanan düşüncənin açıq təzahürü olan bu kimi aktlar beynəlxalq səviyyədə pislənməli və qarşısı alınmalıdır".

***XQ***

# Azərbaycan – Çin: təhlükəsiz dünya naminə əməkdaşlıq



(əvvəli 1ci səhifədə)

Global Development Initiative kimi beynəlxalq siyasi terminologiyada özünə yer tapmış QİT Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən 2021-ci ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasında irəli sürülüb və özündə çoxşaxəli inkişafın müxtəlif elementlərini birləşdirir. Bu müstəvidə açıqlanan əsas prinsiplər inkişafı prioritet saxlamaqdan, insan mərkəzli yanaşmaya sadiq qalmaqdan, heç bir ölkəni və insanı ikinci plana atmamaqla ümumi faydanı təmin etməkdən, innovasiya əsaslı inkişafın təşviqindən, insan və təbiət arasında harmoniyanı qorumaqdan, habelə nəticəyönümlü fəaliyyət növlərinə sadiq qalmaqdan ibarətdir.

QİT çərçivəsindəki prioritetlər də özünün çoxşaxəliliyi ilə diqqət çəkir. Mövcud təşəbbüs çərçivəsində aparılacaq iş yoxsulluğun azaldılmasını, qida təhlükəsizliyinin təmin edilməsini, pandemiyalara qarşı mübarizəni və vaksinlərin hazırlanmasını, inkişaf üçün maliyyələşməni, iqlim dəyişikliyinə adekvat reaksiyanı və yaşıl inkişafa nail olunmasını, sənayeləşmənin sürətləndirilməsini, rəqəmsal iqtisadiyyat dövründə əlaqəliliyin yaradılmasını hədəf götürür. QİTin əsas məqsədi isə BMT-nin 2030-cu il Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsini sürətləndirmək və inkişafda olan ölkələrə daha güclü, yaşıl və sağlam inkişaf yolu təqdim etməkdir.

"Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu"na gəlincə, 2023-cü ilin məlumata görə, bu platformada 70-dən çox ölkə və təşkilat təmsil olunur. Çinin mövcud təşəbbüs çərçivəsində 20 milyard dollardan çox vəsait fondu var və ölkə hazırda bu istiqamətdə 1100-dən çox layihəsi həyata keçirib.

***

Qlobal Təhlükəsizlik Təşəbbüsünün (Global Security Initiative – (GSI) müəllifi də Çin lideri Si Cinpindir. 2022-ci il aprelin 21-də Boao Asiya Forumunda onun tərəfindən irəli sürülmüş bu təşəbbüs özündə Pekinin qlobal təhlükəsizlik arxitekturasına dair alternativ baxışını əks etdirir. O, BMT Nizamnaməsinin prinsiplərinə əsaslanaraq, qarşılıqlı hörmət və əməkdaşlıq üzərində qurulmuş təhlükəsizlik modelini təşviq edir. Bu platforma üzrə əsas prinsipləri ortaq, hərtərəfli, əməkdaşlığa və davamlı təhlükəsizlik vizyonuna sadiqlik, bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət, onların legitim təhlükəsizlik narahatlıqlarını ciddiyə almaq, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə riayət, fikir ayrılıqlarını və mübahisələri dialoq və məsləhətləşmələr, sülh yolu ilə aradan qaldırmaq, həm ənənəvi (hərbi), həm də qeyri-ənənəvi (kiber, enerji, ərzaq və iqlim) təhlükəsizlik sahələrində təhlükəsizliyi qorumaq təşkil edir. Başlıca məqsəd isə qlobal təhlükəsizlik idarəçiliyində mövcud boşluqları aradan qaldırmaqdan, beynəlxalq sabitliyi artırmaqdan və davamlı sülhə nail olmaqdan ibarətdir. Çin Xarici İşlər Nazirliyinin məlumatına görə, 100-dən çox ölkə və beynəlxalq təşkilat QTİni dəstəklədiyini ifadə edib və bu təşəbbüs 90-dan çox ikitərəfli və çoxtərəfli sənədlərə daxil edilib.

***

Nəhayət, Qlobal Sivilizasiya Təşəbbüsü (QST) (Global Civilization Initiative – (GCI) barədə söz açaq. QST Çinin beynəlxalq münasibətlərdə mədəniyyətlərarası dialoqun və sivilizasiyaların müxtəlifliyinə ehtiramın təşviqi istiqamətində atdığı addımdır. Bu təşəbbüs müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlayışın və dostluğun artırılmasına yönəlib və Si Cinpin tərəfindən 2023-cü ilin martında irəli sürülüb. Onun əsas prinsipləri sivilizasiyaların müxtəlifliyinə hörmət və sivilizasiyaların qarşılıqlı şəkildə mənimsənilməsi, ortaq dəyərlərin – sülhün, inkişafın, ədalətin, demokratiya və azadlığın təbliği, mədəniyyətlərarası dialoqun gücləndirilməsi, humanitar mübadilənin təşviqi, habelə sosial və mədəni modellərin zorla ixracına qarşı çıxmaq, hər bir ölkənin öz inkişaf yolunu seçmək hüququna ehtiramla yanaşılmasıdır. Başlıca məqsəd isə müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlayış və dostluğu artırmaqdan, insan sivilizasiyasının inkişafını və tərəqqisini birgə təşviq etməkdən ibarətdir.

***

Əlbəttə, rəsmi Pekinin hər üç təşəbbüsünün çoxşaxəli strukturunun aktiv tənqidçiləri də var və bunu, müəyyən mənada, təbii saymaq mümkündür. Bəzi ekspertlər bildirirlər ki, Çinin fəallığı ABŞ-ın qlobal liderliyinə alternativ mahiyyət daşıyır və ölkə öz təsir dairəsini genişləndirmək məqsədini güdür. Amma bunun belə olmadığı məlumdur və mövcud istiqamətdə müxtəlif əksarqumentlər irəli sürmək mümkündür. Ən başlıca arqument isə budur ki, Çin nə qədər güclü dövlət olsa da, heç bir halda imperialist siyasət yürütmür, yalnız bərabərtərəfli əməkdaşlığa can atır. Təbii ki, özünün prinsipial maraqlarını əsas götürmək şərtilə. Sevindirici durum isə ondan ibarətdir ki, həmin maraqların ölkəmizin mənafeləri ilə uzlaşma nöqtələri kifayət qədər çoxdur. İstər "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat", istərsə də ötən il iyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" fikrimizin təsdiqidir.

***

Azərbaycan da regionun mühüm aktoru kimi Cənubi Qafqazda əməkdaşlığın dərinləşməsində, sülhün, sabitliyin qərarlaşmasında maraqlıdır. Rəsmi Bakı regionun təhlükəsizliyini qlobal təhlükəsizlik baxımından əsas götürür. Görünür, həm də bu səbəbdən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın 15-ci bəndində bildirilir ki, "Azərbaycan Çin tərəfi ilə qlobal təhlükəsizlik üzrə əlaqələr və qarşılıqlı fəaliyyət qurmağa, sülh və təhlükəsizlik üzrə birgə səylər göstərməyə hazırdır".

Sənəddə, habelə, ölkəmizin Çinin BMT-də irəli sürdüyü "Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü"nün elan edilməsinə dair qətnaməni yüksək qiymətləndirdiyi, sivilizasiyaların müxtəlifliyinə hörməti birgə müdafiə etməyə, humanitar mübadilə və əməkdaşlığı fəal şəkildə təşviq etməyə hazır olduğu vurğulanır. Ən əsası isə "Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi "Bakı prosesi" adlı təşəbbüsə uyğun olaraq Azərbaycanın səylərini və bu təşəbbüs çərçivəsində çağırılan qlobal forumları dəstəkləyir".

Yeri gəlmişkən, Çin "Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü"nün elan edilməsinə dair qətnaməni 2024-cü il iyunun 7-də BMT Baş Assambleyasının 78-ci sessiyasında irəli sürmüş, sənəd yekdilliklə dəstəklənmiş və 10 iyun tarixi "Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü" elan edilmişdi. Sessiyada iştirak edən Çinin BMT-dəki daimi nümayəndəsi Fu Conq qətnaməni təqdim edərkən bildirmişdi ki, dünya hazırda bir sıra qarşılıqlı əlaqəli böhranlarla üzüzədir və mövcud şəraitdə sivilizasiyalararası dialoq ayrıseçkiliyin və önyarğıların aradan qaldırılmasında, qarşılıqlı etimadın və əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayır. BMT-nin Sivilizasiyalar Alyansının yüksək nümayəndəsi Miqel Moratinos isə Çinin təşəbbüsün mədəni müxtəlifliyin dəyərinin artırılmasına və universal insan dəyərlərinin təşviqinə töhfə verdiyini açıqlamışdı.

Bir məqamı da vurğulayaq ki, belə bir qətnamə ideyası da Pekinin haqqında söz açdığımız Qlobal Sivilizasiya Təşəbbüsünün prinsiplərinə söykənir. Qətnamədə vurğulanır ki, bütün sivilizasiya nailiyyətləri bəşəriyyətin ümumi irsidir. Sənəddə həmçinin, mədəni müxtəlifliyin dəyəri və sivilizasiyalararası dialoqun dünyada sülhün qorunmasında, ümumi inkişafın təşviqində və insan rifahının artırılmasında rolu önə çəkilir, BMT-yə üzv dövlətlər və təşkilatın əlaqədar qurumları 10 iyun tarixini qeyd etməyə və bu məqsədlə maarifləndirici tədbirlər keçirməyə dəvət olunur.

***

Sonda onu da bildirək ki, həm "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın özü, həm də onun üzərində dayandığımız 15-ci maddəsi Bakı – Pekin münasibətlərinin ruhunun dolğun ifadəsidir. Sənəd Azərbaycan – Çin əlaqələrinin ardıcıllıq göstəricisi kimi müstəsna önəm daşımaqla yanaşı, qarşılıqlı işbirliyinin bəşəri məqsədlərə kökləndiyini göstərir. Bu məqsədlərdə isə insanlığa fayda kimi nümunəvilik var. Ona görə tam əminliklə deyə bilərik ki, dünyanın super gücü olan Çinlə Cənubi Qafqazın lider ölkəsi statusuna malik Azərbaycanın müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq xətti yaşadığımız coğrafiyanın dünyaya və Avropaya açılımının daha geniş trayektoriyasının müəyyənləşdirilməsi baxımından müstəsna rol oynayacaq, regionda yaşayan xalqların rifahını gücləndirəcək.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Yeni dövrün modern perspektivləri

## *Azərbaycan–Çin münasibətlərində rəqəmsal texnologiyalar ön plana çıxır*

**2025-ci il aprelin 22-dən 24-dək Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri yalnız ənənəvi diplomatik münasibətlərin möhkəmləndirilməsi deyil, eyni zamanda, gələcək yönlü strateji sahələrdə, xüsusilə də rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın yeni mərhələyə keçidi baxımından mühüm bir dönüş nöqtəsi kimi qiymətləndirilməlidir.**



Çinin son onilliklərdə texnologiya sahəsində əldə etdiyi nailiyyətlər artıq onun qlobal miqyasda rəqəmsal transformasiyanın əsas lokomotivlərindən biri olması ilə ölçülür. Huawei, Alibaba, Tencent, Baidu kimi nəhəng texnologiya şirkətləri Asiya bazarları ilə yanaşı, dünya səhnəsində də texnoloji yeniliklərin öncülləridir. Çinin "Rəqəmsal İpək Yolu" təşəbbüsü isə ölkənin rəqəmsal sferada geosiyasi iddialarını açıq şəkildə ortaya qoyur. Bu təşəbbüs ÇXRin rəqəmsal infrastruktura və texnoloji sistemlərə dair gücünü digər ölkələrlə paylaşmaq istəyini nəzərdə tutur. Çinin "Rəqəmsal İpək Yolu" təşəbbüsü ticarətin müasir versiyası kimi rəqəmsal texnologiyalar sahəsində inkişaf edən ölkələrə – xüsusilə, inkişaf etməkdə olan bazarlara – texnoloji yardımlar təklif edir. Çin bu layihə vasitəsilə öz texnoloji gücünü beynəlxalq səviyyədə artırmaqla bu ölkələrlə siyasi və iqtisadi əlaqələrini möhkəmləndirir.

Azərbaycan son illərdə rəqəmsallaşmanı sadəcə texnoloji inkişaf vasitəsi deyil, strateji dövlət prioriteti kimi qəbul etmiş və bu istiqamətdə ardıcıl və çevik siyasət yürütməyə başlamışdır. Prezident İlham Əliyevin liderliyi ilə formalaşan bu yanaşma ölkənin gələcəyinin konturlarını müəyyən edir. Çünki müasir dövrdə rəqəmsallaşma artıq iqtisadi və sosial inkişafdan kənar bir element deyil – bu, milli təhlükəsizlik, beynəlxalq rəqabət və diplomatik gücün əsas dayaqlarından biri hesab olunur.

Azərbaycanın qəbul etdiyi milli inkişaf strategiyalarında "rəqəmsal transformasiya", "elektron hökumət", "ağıllı şəhər və kənd" konsepsiyaları idarəetmədə şəffaflıq, vətəndaşməmur münasibətlərində etimad mühiti və iqtisadiyyatın rəqəmsal əsaslar üzərində diversifikasiyasını nəzərdə tutur. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən "ağıllı kənd" modeli Azərbaycanın rəqəmsal gələcəyinin "yerli nümunə üzərindən qlobal modelə" keçid strategiyasıdır və postmüharibə dövründə Azərbaycanın texnoloji yenidənqurma və dayanıqlı inkişaf vizyonunun bariz göstəricisidir.

Lakin belə iddialı planların gerçəkləşməsi yalnız daxili resurslarla məhdudlaşa bilməz. Müasir dünyada rəqəmsal suverenlik yalnız texnologiyaya sahib olmaqla deyil, həm də onu davamlı inkişaf etdirmək və xarici təsirlərə qarşı dayanıqlı hala gətirməklə mümkündür ki, bu da dövlətləri beynəlxalq tərəfdaşlarla – xüsusilə Çin, Koreya, Yaponiya, Avropa İttifaqı ölkələri və ABŞ kimi texnoloji güc mərkəzləri ilə qurulacaq strateji əməkdaşlığı zəruri edir. Məhz bu nöqtədə Çinlə əməkdaşlıq Azərbaycanın qarşısında tamamilə yeni mənzərələr açır və bu, gələcəyi birgə dizayn etmək üçün yaradılan strateji imkanlar platformasıdır. Çin artıq sadəcə iri texnologiya istehsalçısı olmaqla yanaşı, bu texnologiyaları qlobal güc balansının formalaşdırılmasında istifadə edən bir güc kimi tanınır. Azərbaycanın isə bu dinamikanın fəal iştirakçısı olmaq niyyəti getdikcə daha aydın görünür.

Bu əməkdaşlıq özünü xüsusilə Qarabağ bölgəsində hiss etdirə bilər. Əgər Çin texnologiyası ilə bu ərazi "ağıllı bölgə"yə çevrilərsə, nəticədə bu amil informasiya axınlarının idarə olunması, təhlükəsizlik sistemlərinin rəqəmsallaşması və idarəetmədə çevikliyin artırılması demək olacaq. Bununla yanaşı, iqtisadi inkişaf və siyasi dayanıqlığın möhkəmlənməsi üçün güclü zəmin də məhz Çin texnologiyalarının istifadəsi ilə ola bilər.

Rəqəmsal tərəfdaşlığın ən önəmli aspektlərindən biri də insan kapitalına yönəlik strategiyadır. Texnologiya alqoritmlərlə deyil, insanlarla işləyir. Azərbaycanın gələcək texnoloji yönümlü kadrlarının Çin təcrübəsindən faydalanması, bu sahədə ortaq tədqiqatların aparılması və bilik transferinin sistemli şəkildə təşkili yeni bir texnoloji mədəniyyətin formalaşmasına səbəb ola bilər. Fikrimizcə, bu amil strateji düşüncə və qlobal texnoloji rəqabətdə yer tutmaq üçün gərəkli olan dünyagörüşüdür.

Bu kontekstdə Prezident İlham Əliyevin Çinə dövlət səfəri xüsusilə əhəmiyyətlidir. Rəqəmsal sahədə dünyanın aparıcı dövlətlərindən biri olan Çinlə əməkdaşlığın dərinləşdirilməsi Azərbaycanın rəqəmsallaşma siyasətinə beynəlxalq dəstəyin cəlb olunması baxımından əhəmiyyətli mərhələdir. Prezident İlham Əliyev rəqəmsal diplomatiyanın yeni formalarının təşəkkül tapmasına və Azərbaycanın bu transformasiyanın öncül oyunçularından birinə çevrilməsinə şərait yaradır. Onun təşəbbüsü ilə həyata keçirilən siyasətlər Azərbaycanın beynəlxalq imicində də mühüm dəyişikliklər yaradır. İndi Azərbaycan yalnız enerji ixrac edən ölkə kimi deyil, həm də rəqəmsal həllər və innovativ yanaşmalar ixrac edə biləcək bir mərkəz kimi tanınır. Azərbaycan üçün bu əməkdaşlıq rəqəmsal gələcək üçün qurulan körpüdür. Çinlə birgə bu körpünü inşa etmək isə siyasi baxımdan ağıllı bir yanaşmadır. Çünki gələcək təkcə kim daha çox enerji və ya əraziyə sahibdir sualına deyil, kim informasiyanı daha yaxşı idarə edə bilir – sualına cavab axtaracaqdır.

Rəqəmsal texnologiyaların qlobal güc strukturunu yenidən formalaşdırdığı bir dövrdə Azərbaycan və Çin arasında baş verən əməkdaşlıq həm də siyasi və strateji məna daşıyır. Artıq beynəlxalq münasibətlərdə sərhədlər informasiya axınlarında, süni intellekt alqoritmlərində və rəqəmsal suverenlik anlayışında çəkilir. Bu mənada 2025-ci ilin aprelində Prezident İlham Əliyevin Çinə rəsmi səfəri çərçivəsində imzalanan razılaşmalar gələcəyin yeni siyasi nizamına atılmış strateji addımlardır.

Çin və Azərbaycan arasında rəqəmsal texnologiyalar sahəsində əməkdaşlıq artıq ikitərəfli münasibətlərdən kənara çıxır və regionlararası güc münasibətlərinə təsir göstərə biləcək bir "rəqəmsal diplomatiya oxu"nun formalaşmasına xidmət edir. Mərkəzi Asiyadan Qafqaza, oradan Yaxın Şərqə qədər uzanan bu texnoloji dəhliz – Çinlə Azərbaycanın ortaq rəqəmsal təşəbbüsləri – həm regional sabitliyə töhfə verər, həm də bu bölgələrdəki rəqəmsal boşluqları dolduraraq yeni güc mərkəzi yarada bilər. Bakı ilə Pekin arasında imzalanan 20dən çox sənəd – o cümlədən, rəqəmsal iqtisadiyyat, intellektual mülkiyyət və aerokosmik sahələr üzrə əməkdaşlıq razılaşmaları – Azərbaycanın bu vizyonunun real konturlarını cızır və bu sənədlər Azərbaycanın texnoloji istehsal və innovasiya məkanına çevrilməsini hədəfləyir.

Burada diqqətçəkən məqam odur ki, Azərbaycan Çinin "Rəqəmsal İpək Yolu" təşəbbüsünün vacib qovşağına çevrilməkdədir. Bu isə ölkənin regional statusunu dəyişmək, onu yalnız tranzit ölkə deyil, texnoloji və intellektual məhsul istehsalçısı kimi təqdim etmək gücünə malikdir. Bu, həmd ə Rəqəmsal xidmətlərin inkişafı, kiber təhlükəsizlik və süni intellekt sahəsindəki ortaq layihələr, həmçinin Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsinə yönəlib.

Azərbaycan Prezidentinin Çinə səfəri bu əməkdaşlıq üçün siyasi iradənin və strateji baxışın mövcudluğunu təsdiqlədi. İndi bu baxışın konkret layihələrə, ortaq platformalara və qarşılıqlı faydalı əməkdaşlığa çevrilməsi üçün münbit zəmin yaranıb. Azərbaycanın bu prosesə fəal və təşəbbüskar şəkildə qoşulması onun regionda rəqəmsal diplomatiya və texnoloji tərəfdaşlıq sahəsində lider mövqeyini gücləndirə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Azərbaycanda milli birlik və həmrəylik ideyasının uğurla həyata keçirilməsi azərbaycançılıq idealına xidmətin ifadəsidir. Azərbaycan xalqı anlayışı ilə yanaşı, Azərbaycan dili anlayışının da var olması milli mövqeyin qorunub saxlanılması ilə bərabər, müstəqil dövlətin daxili sabitliyinin təmin edilməsinə, ölkədə yaşayan xalqlar və etnik qruplar arasında tolerantlıq mühitinin formalaşdırılmasına xidmət edir.**



# Heydər Əliyevin dil siyasəti



*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*filologiya elmləri doktoru*

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə, konkret olaraq 1978-ci ildə Azərbaycan dilinin ölkəmizin Konstitusiyasına dövlət dili kimi daxil etdirməsinə nail olması çağın reallıqları prizmasından yanaşdıqda misilsiz tarixi nailiyyət sayılır. Sovetlər İttifaqında vahid beynəlmiləlçilik prinsiplərinin həyata keçirildiyi bir zamanda Azərbaycan dilinin rəsmi olaraq dövlət dili kimi qəbul olunması çoxəsrlik dövlətçilik tariximizin nadir hadisəsi idi. Bu böyük ümummilli hadisə Azərbaycan Respublikasının gələcək müstəqilliyinin mühüm təminatlarından biri idi.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi tanınması milli kimliyin və mədəniyyətin qorunması istiqamətində atılmış mühüm addımlardan biri olmuşdur. Bu təşəbbüsün konkret nəticəsi 27 aprel 1978-ci il tarixində qəbul olunan Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi oldu. Bu məsələnin tarixi kontekst və əhəmiyyəti nədir? Aydındır ki, 1970-ci illərdə Sovet İttifaqında rus dilinin dominantlığı güclənməkdə idi və ittifaq miqyasında rus dilinin "ümumxalq ünsiyyət vasitəsi" kimi tanınması təşviq olunurdu. Bu şəraitdə respublikaların milli dillərinin arxa plana keçmək təhlükəsi yaranmışdı. Lakin Heydər Əliyev bu təhlükəni vaxtında dərk edərək, Azərbaycan xalqının milli kimliyinin əsas dayaqlarından biri olan ana dilinin qorunması və rəsmi status qazanması istiqamətində qətiyyətli mövqe nümayiş etdirdi.

27 aprel 1978-ci ildə qəbul olunan yeni Azərbaycan SSR Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili rəsmi dövlət dili kimi Konstitusiya səviyyəsində təsbit edildi. Bu, Sovet İttifaqı çərçivəsində nadir hallardan biri idi və milli dəyərlərin qorunmasında mühüm addım idi. Bu təşəbbüsün nəticəsi olaraq Azərbaycan dili dövlət idarəçiliyində, təhsildə və rəsmi sənədləşmədə daha geniş istifadə edilməyə başladı. Dilin hüquqi status alması onun gələcəkdə müstəqil Azərbaycan Respublikasında əsas dövlət dili kimi möhkəmlənməsinə zəmin yaratdı. Milli özünüdərk və mədəni dirçəliş proseslərinə təkan verdi.

Ümumiyyətlə, Heydər Əliyevin hakimiyyətə gəlişinin birinci dövründə, XX əsrin 70-80-ci illərində Azərbaycan ədəbi-ictimai mühitində ana dili məsələləri geniş yer tutmuşdur. Xalq şairləri Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, bir qədər sonra Anar və Sabir Rüstəmxanlı kimi sənətkarların ana dili uğrunda apardıqları milli mücadiləyə dövlət səviyyəsində müəyyən üsullarla meydan açılmış və bu, mahiyyət etibarilə xalq arasında və Mərkəzi hökumətdə Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması üçün ictimai rəyi hazırlamışdır. Dilçi alimlər belə qənaətlərində haqlıdırlar ki, "Heydər Əliyev… Moskva ilə ən uğurlu kompromis şəraitində özünəməxsus "dil siyasəti" yürüdürdü ki, həmin siyasətin başlıca məqsədi ana dilini daha da inkişaf etdirmək, müstəqil dövlət dilinə çevirmək idi (Nizami Xudiyev)".

Doğrudan da cəmiyyətdə ana dili uğrunda gedən prosesləri zamanzaman Mərkəzi hökumətin diqqətinə çatdırmaqla və məsələyə Siyasi Büro səviyyəsində aydınlıq gətirməyi bacarmaqla, Heydər Əliyev hələ sovet hakimiyyəti illərində, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi ölkənin Konstitusiyasına ayrıca maddə kimi daxil edilməsinə nail olmuşdur.

Keçən əsrin 70-ci illərində Heydər Əliyevin Azərbaycanın bir qrup tanınmış dilçi alimlərini – Muxtar Hüseynzadəni, Əlövsət Abdullayevi, Yusif Seyidovu, Ağaməli Həsənovu çoxcildlik "Müasir Azərbaycan dili" dərsliyinə görə respublikanın Dövlət Mükafatı ilə təltif etməsi də elmiictimai və ədəbimədəni mühitdə ana dilinin mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət sayılmalıdır. Bununla Heydər Əliyev hələ XVI əsrdə Şah İsmayıl Xətai ilə başlanan, zamanzaman qabarıbçəkilən ana dili siyasəti məsələsini ilk dəfə rəsmi olaraq böyük qətiyyətlə dövlət siyasəti səviyyəsində həyata keçirməklə tamamlamışdır. Ana dili uğrunda aparılan mübarizə öz növbəsində, Azərbaycan cəmiyyətində və ədəbiyyatında millilik məsələsini diqqət mərkəzinə çəkmək, geniş mənada milli azadlıq mövzusunu dəstəkləmək demək idi. Bu proses Azərbaycan ədəbiyyatında ölkənin və xalqın taleyi, millimənəvi dəyərlərin əhəmiyyəti kimi mövzuların meydanının genişlənməsinə şərait yaratmışdır.

Ölkəmiz müstəqillik qazandıqdan sonra Heydər Əliyevin ana dili uğrunda apardığı siyasətin miqyası daha da genişlənmiş, bir çox ümummilli məsələlərin dövlət siyasəti səviyyəsində həll edilməsi ilə başa çatdırılmışdır. Bu zaman da Heydər Əliyevin istinad etdiyi əsas qüvvə ədəbiyyat faktoru, yazıçı və şairlər, yaradıcı ziyalılar olmuşdur. Bu baxımdan böyük yazıçı Cəlil Məmmədquluzadənin 1994-cü ildə keçirilmiş 125 illik yubileyində ana dili məsələlərinə göstərilən xüsusi diqqət həmin sahədəki digər böyük tədbirlərin başlanğıcına çevrilmişdir. Heydər Əliyev görkəmli yazıçı haqqındakı nitqində "Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyət,.. ədəbiyyatımızın klassiki" kimi çox yüksək qiymətləndirdiyi Cəlil Məmmədquluzadənin ana dili uğrunda mübarizəsini müasir dövr üçün də zəruri hesab etmişdir: "Cəlil Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, Vətən, Vətən! Millət, millət, millət! Dil, dil, dil!" sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsi zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün üçün də çox aktualdır. "Anamın kitabı" Azərbaycan üçün çox dahiyanə əsərdir. Çünki … əsrlər boyu ayrıayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur… Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini, Azərbaycan milliliyini yaşadıb, milli şüurunu, milli məfkurəsini daim yaşatmışdır".

Ümummilli lider Heydər Əliyevin xalqımızın ana dilinin necə adlandırılması uğrunda apardığı mübarizə dövlətimizin maraqlarına, respublikamızın reallıqlarına tamamilə uyğun idi. Bu sahədə də qəti fikrə, yekun qənaətə gəlmək üçün Heydər Əliyev Azərbaycan ziyalılarının, o cümlədən ədəbiyyat xadimlərinin dəstəyindən istifadə etməyi zəruri saymışdır. Onun 31 oktyabr 1995-ci ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı irəli sürdüyü Azərbaycan Konstitusiyasında dövlət dili kimi Azərbaycan dilinin təsbit edilməsi geniş mənada cəmiyyətin marağına, ölkəmizdə yaşayan bütün xalqların və etnik qrupların maraqlarına uyğundur. Azərbaycan dili ideyası Azərbaycanda yaşayan bütün etnik qrupları öz ətrafında birləşdirən bir faktor kimi Azərbaycan yazıçıları tərəfindən müdafiə olunmuşdur.

Müzakirələrdə çıxış edən Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Anar, Elçin, Qabil, Ağamusa Axundov, Hüseyn Abbaszadə, Sabir Rüstəmxanlı və başqaları müxtəlif fikirlər bildirsələr də, son nəticədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin meydana qoyduğu Azərbaycan dili anlayışına üstünlük vermiş, haqq qazandırmışlar. Heydər Əliyev ölkə miqyasında ictimai rəyin formalaşdırılmasında yazıçı, ziyalı mövqeyinin əhəmiyyətini əsas götürməklə, müzakirələrdə həmin faktordan geniş istifadə ilə ən məqbul azərbaycançı qərarı formalaşdırmağa nail olmuşdur. Azərbaycan dili ölkə coğrafiyasında yaşayan bütün xalqların vahid danışıq və ünsiyyət vasitəsi, müstəqillik qazanmış Respublikanın dövlət dilinin adı kimi qəbul edilmişdir. Bütün bunlar cəmiyyətdə və ədəbiyyatda azərbaycançılıq amilinin, ümummilli düşüncənin daha da qüvvətləndirilməsinə səbəb olmuşdur.

Digər bir məqam. Heydər Əliyevin klassikləri dünyaya tanıtma məramının kökündə xalqın minillik tarixi yaddaşının olduğunu isbatlamaq meyli dayanırdısa, yubileyləri keçirilən İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə və başqa ədiblər onun üçün "dil hadisəsi" kimi önəm kəsb edirdi. Çünki "Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmikonseptual əsasları ilə, əslində Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi" (Timuçin Əfəndiyev). Onun müasiri olduğu şair və yazıçılara verdiyi dəyərin zəminində həm də dil amilinin dayandığını görmək çətin deyil. Sonradan bu istiqamətdə atacağı addımın "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan Respublikasında dövlət dili haqqında" 30 sentyabr 2002-ci il tarixli fərmanların zəminində dayanan əsas səbəb xalqın milli varlığını müəyyən edən başlıca amilin ana dili olmasını rəhbər kimi dərk etməsi idi. Yaxud Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında"-kı 29 oktyabr 1997-ci il tarixli sərəncamı ilə Heydər Əliyev yalnız içindəki Şəhriyar sevgisini sərgiləmirdi, həmişə amalına çevirdiyi bütöv Azərbaycan idealının gerçəkləşməsinə doğru növbəti əhəmiyyətli addımlardan birini həyata keçirirdi.

Mövlud Süleymanlı "Qırx ilin yeddi görüşü" memuarəsərində Heydər Əliyev sözünün xalq arasında şifahi yayılmasına dair maraqlı misallar gətirir. Bunlardan biri Azərbaycan dili barəsindədir: "Yadımdadır, 70-ci illərin ortalarıydı, Novruz bayramı ərəfəsində böyükdən kiçiyə hamı Şıx çimərliyi səmtində ağac əkməyə çıxmışdı. Yazıçılar İttifaqının ayrıca sahəsi vardı, orda ağac əkirdik. Heydər Əliyev sahələri dolaşıb, adamlarla görüşüb axırda yazıçıların yanına gəldi. Həmişə olduğu kimi səmimiydi, ərki çatanlarla zarafat edir, gənclərlə maraqlanırdı. Şair Qabil yenə özünəməxsus orijinallığı ilə seçildi: " – Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız!" Heydər Əliyev astadan gülüb dedi: " – Qabil, sən niyə mənim rusca gözəl danışmağıma təəccüb etmirsən, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız". Bu söz, bu fikir elə oradaca alqışlarla qarşılandı... Amma onunla bitmədi, çoxlarımızın xəbəri olmadan bu söz, bu fikir kiçik məcrasından çıxdı. Uzun müddət milli tərbiyəmizdə iş gördü... Bu da faktdır ki, bir az əvvəl yuxarı səviyyələrdə Azərbaycan dilində, ümumiyyətlə, danışıq getmirdi, rus dilini pis bilənləri işə götürmürdülər, ona pis baxırdılar və s. Adi bir iməcilik günündə deyilmiş bu söz, bu fikir və ümumiyyətlə, Heydər Əliyev fəaliyyəti doğma dilimizə olan soyuq münasibəti dəyişdirdi. Yeri gəldigəlmədi, rus dilində danışan və danışmağa can atan kütləviliyin qarşısı alındı..."

Heydər Əliyev xalqının milli kimliyini təyin edən hər bir sahəyə diqqətlə yanaşırdı. Onun ana dili haqqında fikirləri millətindən, dinindən, dünyagörüşündən asılı olmayaraq hər kəs üçün aktualdır: "Azərbaycan dilinin bundan sonra da inkişaf etməsi mənim həyatımın ən birinci vəzifəsidir. Çünki millətin dilini əlindən alsan, onu öz dilindən məhrum etsən, o millət çox şey itirər. Amma millətin öz doğma dili, ana dili olanda, onu heç nə dəyişdirə bilməz... Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilinizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".

Ulu öndər həmişə Azərbaycan dilinə, onun siyasihüquqi təminatlarına geniş yer vermiş, fərman, qərar və sərəncamlar imzalamış, praktik həlli istiqamətində ciddi fəaliyyət göstərmişdir. O, bəyan etmişdir: "Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünki səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var". Böyük rəhbər ilk "İstiqlal" ordeninə Bəxtiyar Vahabzadə, Xəlil Rza və Məmməd Arazı layiq görmüş və bu barədə 16 aprel 1995-ci il tarixli çıxışında məlumat vermişdir.

"Ədəbi dilə vətəndaşlıq borcu" məqaləsində professor Teymur Əhmədov Heydər Əliyevin fikir və məfkurəni dil siyasətinə doğru yönəltməsindən söz açır. Göstərir ki, Ulu öndər yüzlərlə gənci xarici ölkələrdə ali təhsil almağa göndərirdi. Əmin idi ki, onlar mükəmməl təhsilli mütəxəssislər kimi doğma ölkəsinin inkişafına namusla xidmət edəcəklər. 1997-ci il avqustun 29-da Prezident sarayında daxildə və xaricdə ali məktəblərə qəbul olunmuş tələbələrlə görüş keçirilmiş, Heydər Əliyev doğma ana dilimizi, dövlət dilimizi yaxşı bilməyi tövsiyə etmişdir. Ulu öndər bildirirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadiminin fəaliyyəti nəticəsində mümkün olur".

Teymur Əhmədov xatırladır ki, Heydər Əliyev 2001–2003-cü illərdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi", "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi haqqında" fərmanlar vermişdir. Ulu Öndər demişdir: "Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

Ədəbiyyatşünasalim "Müqəddəs əmanət" məqaləsində də Heydər Əliyevin dil siyasətinin təbliğini davam etdirmiş və yazmışdır: "Ümummilli lider Heydər Əliyev Azərbaycan ədəbi dilinə ayrıca diqqət yetirirdi, ana dilimizin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Müstəqillik dövründə isə dilin taleyini diqqət mərkəzində saxlamış, ardıcıl, məqsədyönlü siyasət aparmışdır. Ana dilimizin dövlət dili statusu hüquqi baxımdan tamamilə qanuniləşdirilmişdir".

Ümumiyyətlə, 1978-ci ildə Azərbaycan SSRİnin Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olaraq qəbul edilməsi Heydər Əliyevin sovet dövründə türkçülüyə göstərdiyi xidmətlərdən biri kimi xüsusi vurğulanır, bu addım Azərbaycan milli ruhuna göstərilən ən önəmli xidmət olaraq dəyərləndirilir. Ana dilinin dövlət dili olaraq saxlanılmasının böyük nailiyyət olduğunu vurğulayan Türk yazıçısı və siyasi araşdırmaçısı Hüseyn Adıgözəl bu faktı digər türk ölkələrindəki vəziyyətlə müqayisə edərək yazır: "1991 yılında Özbekistan Birlik Halk Hareketinin, meydanlarda, "Özbek dili" devlet dili olmalıdır, mitingleri yaptığı zaman, Azerbaycan'da, Azerbaycan dilinin devlet dili olmasının üzerinden yirmi yıl geçmişti. Yani, Azerbaycan, Aliyev'in bu uygulaması ile, diger Türk cumhuriyetlerinden en az yirmi yıl öne geçmişti".




Vətən, millət, dil...

Bunların hər üçü ümummilli lider Heydər Əliyevin məfkurə triadasının təməl daşları idi.

Hər üçünə məhəbbətlə xidmət elədi, sonadək sədaqətini qorudu, ucaltdı və ucaldı.

# Yeni dünya nizamına doğru: Fırtına qoynunda bəşəri ahəng axtarışı



### Xaotik görünüşün içərisindəki məntiq

Molekulların ilk baxışdan xaotik, yəni tənzimlənməyən, qarmaqarışıq hərəkəti, əslində, fizikanın bizim görə bilmədiyimiz qanunlarına tabedir. Məsələn, temperaturdan, molekulların sıxlığından, maddələrin aqreqat vəziyyətindən (qaz, maye və bərk cisim) və s. asılıdır.

Temperaturun yüksəlməsi molekulların hərəkət sürətini artırır, enməsi isə azaldır. Temperaturun sıfır səviyyəsində hərəkət dayanır. Molekulların kinetik enerjisi (hərəkətin enerjisi) temperaturla düz mütənasibdir.

Dövlətlərin hazırkı vəziyyəti də buna oxşardır: ayrıca götürülmüş dövlətlərin iqtisadi və siyasi gücü, yəni temperaturu artır, nəticədə müstəqil dövlətlərin və güc mərkəzlərinin sırası genişlənir. Temperatur, yəni güc artdıqca rəqslərin amplitudası da sürətlənir. Dünyada bir xaos yaşanır. Xaos və fırtına içərisində olan dünyanın molekullarının – dövlətlərin xaotik hərəkətlərini proqnozlaşdırmaq çox çətin olsa da, bu, zərurətdir və xoşbəxtlikdən mümkünsüz deyil.

### Bəsirətli siyasət zamanı

Xaosun içində məntiq tapmaq fırtınanın içində gizli nizamı üzə çıxarmağa bənzəyir bu, səbir, çeviklik, üzdə olmayanları görmək bacarığı və bəsirət gözü açıq olan siyasətçilər tələb edir. Bəsirət gözü, yəni məlumat və nəzəri biliklərdən başqa güclü intuisiya hadisələrin mahiyyətinə altıncı hiss səviyyəsində nüfuz etmək qabiliyyətidir.

### Təsadüflərin arxasında zərurəti görmək

Xaosun içərisindəki məntiqi, ilk baxışdan birbiri ilə əlaqəsi olmayan müstəqil proseslərin gizli əlaqələrini, birbirindən asılılığını görmək, yan proseslərin əsas prosesə bağlılığını üzə çıxarmaq, "təsadüf"lərin sıralanmasından, ardıcıllığından "zərurət"i ortaya çıxarmaq, bunların əsasında hadisələri proqnozlaşdırmaq və milli siyasəti formalaşdıraraq elmi əsaslandırılmış siyasi xətti səbirlə tətbiq etmək günün zərurətidir.

Bu gün siyasətçilərin əsas intellektual axtarış mövzusu məhz bunlardır:

– Xaosun içərisində məntiqi və qanunauyğunluğu tapmaq;

– Hadisələrin sonrakı istiqamətini proqnozlaşdırmaq;

– Proqnozlara uyğun milli siyasəti formalaşdırmaq.

Ancaq bu, elə də asan məsələ deyil. Qlobal siyasi, iqtisadi və təhlükəsizlik xaosunun içərisindəki məntiqi, qanunauyğunluqları və başlıca prosesləri tutmaq isə çox böyük siyasi təcrübə, dərin intellekt, tarixi biliklər, müşahidə qabiliyyəti və gündəlik proseslər barədə mahiyyət üzrə müfəssəl informasiyaya malik olmağı tələb edir.

### Analogiya: Xaosun içindəki nizamı tapma metodu

Osvald Şpenqler: "Ölü formaları (yəni, fizikanı) anlamaq üçün vasitə riyazi qanunlardır. Canlı formaların (yəni, cəmiyyətin) dərki vasitəsi isə analogiyadır".

Əvvəlki dövrlərdə təkrarlanan halları, tendensiyaları və ya dövrləri araşdırmaq xaosun içində nizamı tapmaqda və proqnozlaşdırmaqda ən səmərəli metodlardan biridir. Hətta ən qarışıq siyasi proseslərdə belə tarixdə müşahidə olunmuş şablonları görmək və onları təhlil edib bugünkü kontekstlə müqayisə etmək bir zərurətdir. Biz xaosun aydınlaşmasına məhz şablonların və təkrarlanan proseslərin öyrənilməsi vasitəsilə açar tapa biləcəyik. Tarixi təcrübə ölkələr arasında ziddiyyətlərin və gərginliklərin səbəblərini aydınlaşdırmaqda əvəzolunmaz amildir. Ziddiyyətlərin öyrənilməsi məntiqi üzə çıxarır. Osvald Şpenqler "Avropanın qürubu" əsərində yazırdı: "Ölü formaları (yəni, fizikanı) anlamaq üçün vasitə riyazi qanunlardır. Canlı formaların (yəni, cəmiyyətin) dərki vasitəsi isə analogiyadır".

Xaos mürəkkəblikdən doğulur və mürəkkəbliklə xaos ayrılmazdır. Odur ki, xaosun dərki üçün situasiyanı daha kiçik və idarəolunan hissələrə bölüb ayrılıqda anlamaq və həll etmək vacibdir. Bu, hər bir elementi ayrıca araşdırmağa və yenidən ümumi kontekstə qaytarıb anlamağa kömək edir.

Xaosa qeyrimüəyyənlik xasdır. Odur ki, qərarlar ənənəvi olmaya, improvizasiya edilə, qeyristandart ola bilər. Məsələn, 2020-ci ildə heç kim Azərbaycanın Ermənistan tərəfindən növbəti təxribata belə genişmiqyaslı əksreaksiya verəcəyini, müharibənin başlanacağını gözləmirdi. Fransanın anti-Azərbaycan siyasətinə, AŞPA və AP-nin təzyiqlərinə Azərbaycanın sərt əks-təzyiqlərlə cavab verməsi də qeyristandart reaksiyalar idi və özünü doğrultdu.

Xaos zamanı səbirli olmaqla çevik olmağın uzlaşdırılması ən dürüst hərəkət formasıdır. Çevikliyin əsas məqsədi isə sürətlə dəyişən şərtlərə uyğunlaşmaq, yeni şərtlərdən çıxış edərək qərarlar qəbul etməkdir.

### Azərbaycan və fırtına zamanı səmt küləyinin tapılması

Azərbaycanın belə bir qlobal xaosun içərisində 200 illik erməni ekspansiyası, Orta Dəhliz, Şimal-Cənub dəhlizi, Avropanın qaz bazarına maksimum intervensiya, Türkiyə ilə hərbisiyasi müttəfiqlik, türk dövlətlərinin vahid təşkilatlanma səviyyəsinə qədər yüksəlməsi kimi problemləri həll etməyi bacarması Prezident İlham Əliyevin xaotik hərəkətlərin qanunauyğunluğunu və məntiqini, fırtınanın içərisindəki səmt küləyini müəyyənləşdirə bilməsinin, "təsadüflərin arxasındakı zərurəti" görməsinin və səmt küləyindən istifadə edərək Azərbaycan adlı gəmini fırtınadan nəinki sağsalamat, hətta güclənərək çıxarmasının nümunələridir.

### Azərbaycan xaosda nizamı necə tapır: gələcəyə baxmaq və görmək istedadı

Xaosun içində məntiqi, nizamı tutmaq qlobal keçidin ən vacib məsələsidir. Səmt küləyini tutmaq mümkün oldusa, yerdə qalanı texniki manevrlərdir.

2022-ci ildə Azərbaycana səfərinin gedişində Serbiya Prezidenti Aleksandr Vuçiç Bakıda olarkən adətən prezidentlərin öz həmkarları haqqında ictimaiyyət qarşısında elan etmədikləri bir fikir səsləndirdi. A.Vuçiç Prezident İlham Əliyev haqqında danışarkən onun gələcəyə baxmaq və görmək istedadını belə vurğulamışdı: "...ondan bilikləri və gələcək haqqında bir çox məsələləri öyrəndiyimə görə də minnətdaram. Çünki mən bizi gələcəkdə nələrin gözlədiyini daha real, daha ciddi şəkildə görə bilirəm". Serbiya Prezidenti artıq başlanmış xaos dövründə siyasətçilərin məhz buna "gələcəyə baxmaq istedadı"na ehtiyacının olduğunu etiraf etmiş, Azərbaycan Prezidentinin gələcəyi hesablaya bildiyini demişdi.

2024-cü ilin yanvarında ABŞ-da prezident seçkilərinə 10 ay qalmış Donald Trampa siyasi dəstək verməklə Prezident İlham Əliyev çox mürəkkəb və qeyrimüəyyənliklərlə dolu bir situasiyada fəaliyyətdə olan prezident Co Baydeni və komandasını tənqid etmişdi. Bu, sadəcə, bir elmi və siyasi hesablama deyildi, həm də verilmiş bəyanatla artıq praktikada tətbiq olunmağa başlanmış siyasi xətt idi.

Bu, Azərbaycanın ABŞ-ın fəaliyyətdə olan administrasiyası, bütövlükdə Demokratlar Partiyası ilə münasibətlərinə təsir edən riskli, eyni zamanda, siyasi iradə tələb edən siyasi xəttin yürüdülməsinin başlanğıcı idi. Hesablanmışdı, proqnozlaşdırılmışdı, seçim edilmişdi və tətbiqinə start verilmişdi. Təbii ki, növbəti bir il ərzində təzyiqlərin ediləcəyi də hesablanmış və müqavimət gücü də səfərbər olunmuşdu.

Gözlənildiyi kimi oldu: D.Trampa dəstək verdiyinə görə demokratlar açıq təzyiqə başladılar. 2024-cü ilin aprelində Antoni Blinkenin rəhbərliyi ilə Aİ, ABŞ və Ermənistan Brüsseldə sammit keçirərək İrəvana hərbi dəstək vəd etdilər. 2025-ci ilin yanvarında isə hakimiyyəti təhvil verməyə bir neçə gün qalmış Ermənistanla strateji tərəfdaşlıq sazişi imzaladılar. Bütün bunlar D.Trampa verdiyi dəstəyə görə Azərbaycan Prezidentinə edilən təzyiq idi. Amma bu, ABŞ-ın maraqları ilə üstə-üstə düşməyən bir siyasət idi. İndi Azərbaycan Prezident İlham Əliyevin 2024-cü ilin yanvarında verdiyi bəyanat və sonrakı təzyiqləri dəf etməsinin bəhrəsini görməkdədir. Aprelin 10-da Donald Tramp Prezident İlham Əliyevə ünvanlandığı məktubda Azərbaycan Prezidenti ilə "birgə işləməyi səbirsizliklə gözlədiyini" bəyan edir, "ABŞ-ın Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olduğu"nu vurğulayır, gələcək əməkdaşlıqda "möhtəşəm məqamların" olacağını qeyd edir.

Bu, düzgün hesablama və doğru proqnozlaşdırma nəticəsində yürüdülmüş siyasətin 1 il 3 aydan sonrakı bəhrəsidir. Dünya tarixinin son 100 ili ərzində ən qarışıq, ziddiyyətli, təhlükələrlə dolu olan mərhələsində bu doğru proqnozlaşdırma Amerika ilə münasibətlərdə yeni siyasi səhifənin açılmasına şərait yaratdı, ölkəmizin təhlükəsizliyinə töhfə verdi.

2025-ci il aprelin 10-da Prezident İlham Əliyev təcrübəyə, məlumatlılığa və məntiqə əsaslanaraq qlobal gündəliyin daha bir prosesi – Ukrayna–Rusiya savaşı haqda realist proqnozunu səsləndirdi: "Şəxsən mən realist olaraq, yaxın gələcəkdə Ukrayna ilə Rusiya arasında sülh üçün hər hansı perspektivi görmürəm. Rusiya işğal olunmuş əraziləri Rusiyanın bir hissəsi kimi bəyan edib. Onlar bundan necə geri çəkilə bilərlər? Ukrayna, o cümlədən bütün dünya həmin işğal olunmuş əraziləri Ukraynanın hissəsi hesab edir. Azərbaycan da onları Ukraynanın hissəsi hesab edir. Onda necə qurban verə bilər və deyə bilər ki, ərazilər Ukraynanın deyil? Əgər bu baş verərsə, onda belə çıxır ki, mən beynəlxalq siyasətdə nəyi isə başa düşmürəm. Əfsuslar olsun ki, müharibələr yekun kapitulyasiya aktı olanda bitir". Bu, qərarlara, praktik siyasi gedişlərə təsir edəcək proqnozdur. Müharibənin nə qədər uzanacağı, nəticələrinə dair hesablamalar və proqnozlar gələcəyə yönəlik siyasi planlara da təsir edir. Artıq situasiyaya realist baxış olaraq beynəlxalq səviyyədə, Ukraynada da əks-səda verib.

2025-ci ildə Prezident D.Trampın fəaliyyətini tənqid etdiyi, rəsmən ləğv olunmuş USAID təşkilatının Azərbaycandakı fəaliyyəti hələ 2023-cü ildən sərt tənqid olunmağa başlanmışdı. Prezident İlham Əliyev bu təşkilatın Azərbaycanın təhlükəsizliyinə təhdid yaratması haqda A.Blinkenə iradlarını bildirmiş, Azərbaycanda USAID-ə yer olmadığı açıq elan edilmişdi. İki ildən sonra USAID tamamilə ləğv olundu.

AŞPA-nın Azərbaycana təzyiq etmək siyasəti də Fransa tərəfindən səhv siyasi hesablama nəticəsində meydana çıxmışdı. Ancaq Azərbaycanın assambleyanı tərk edərək geri qayıtmaması, əkstəzyiq göstərməsi dəqiq hesablama və siyasi cəsarət nümayişi idi və gözlənilən nəticəni verdi. Avropa Şurasının Baş katibi COP29da iştirak üçün Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevdən təşkilatdan tam çıxmamağı xahiş edib. Səbəb odur ki, Avropanın geosiyasi vəziyyəti və statusu dəyişib və zəifləyib. İndi Avropa hansısa dövləti sürgünlə cəzalandırmaq iqtidarında deyil. Əksinə, Avropanın Türkiyəyə və Azərbaycana ehtiyacı daha böyükdür. Brüsseldə və Strasburqda bu günü hesablaya bilməmişdilər, Bakıda isə dəqiq hesablanmış və proqnozlaşdırılmışdı.

Xaos dövrlərində Azərbaycanın siyasi xəttinin dürüst proqnozlaşdırılması 2008-2010-cu illərin qlobal iqtisadi böhranının ardınca başlanmış gərgin siyasi mərhələdə də müşahidə olunmuşdu.

2008-2010-cu illərin qlobal iqtisadi böhranından sonra mövcud qlobal təhlükəsizlik sistemi zəiflədi və çoxqütblülüyə keçid sürətləndi. Daha sonra 2014-cü ildə Krım ətrafındakı proseslərlə çoxqütblülük erasının formalaşması iqtisadi mərhələdən hərbisiyasi mərhələyə keçdi. Yeni eranın başlandığını və əsas proseslərin məntiqinin hesablanması gələcəyi proqnozlaşdırmağa və yeni vəziyyətə uyğun siyasi konsepsiyanın tətbiqinə səbəb oldu.

Bu yeni mərhələdə qlobal xaosdan qorunmaq üçün regional müstəvidə təhlükəsizliyin gücləndirilməsi əsas strateji xətt kimi götürüldü.

Son illər yenidən ölkələrin sürətlə silahlanması müşahidə edilir. Son məlumata əsasən, 2024-cü ildə dünyada hərbi xərclər 2,4 trilyon dollar səviyyəsinə çatıb. Aİnin qəbul etdiyi yeni plana əsasən, silahlanmaya 800 milyard avronun ayrılması hədəflənir. Sürətlə silahlanmanın belə bir mərhələsində bütün ölkələrin hərbi, siyasi və iqtisadi təhlükəsizliyi qonşularla münasibətlərdən birbaşa asılıdır. Qonşu ölkələrin iştirakı olmadan istənilən ölkənin milli təhlükəsizliyinə birbaşa zərbə vurulması çox çətindir.

### Regional siyasət – təhlükəsizliyin bazası

2008-2015-ci illərin qlobal iqtisadi böhranından sonra fövqəldövlətlər arasında rəqabətin güclənməsi nəticəsində dünyada təhlükəsizlik, ticarət və siyasi əlaqələrdə qloballaşma arxa plana keçməyə, regionallaşma meyilləri isə güclənməyə başladı. Regional ticarət birlikləri, regional ümumi bazarların formalaşması prosesi genişləndi.

Prezident İlham Əliyev bu tendensiyadan doğan nəticələri dərhal Azərbaycanın xeyrinə istifadə edərək regional əlaqələri dərinləşdirdi, Qarabağ məsələsi və Xəzərin statusu da daxil olmaqla bir çox problemlərin nizamlanmasında regional amillərin konstruktiv mövqeyini təmin etdi.

2018-ci ilin avqustunda Xəzərin statusu haqqında Konvensiyanın imzalanması regional əməkdaşlığı yeni mərhələyə çıxardı.

Elə həmin ilin sentyabrın əvvəlində Prezident İlham Əliyevin Soçiyə səfəri zamanı iki ölkə arasında energetika, iqtisadiyyat, idman, turizm və digər sahələrdə əməkdaşlıq üzrə 15 sənəd imzalandı. Sentyabrın sonunda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bakıya səfər etdi və IX Azərbaycan–Rusiya Regionlararası Forumu keçirildi.

Azərbaycan doğru hesablama və proqnozlaşdırma sayəsində müdrikcəsinə təhlükəsizlik məsələlərinin həllini regional, Ermənistan isə səhvən qlobal müstəviyə daşıyaraq, regiondan kənar qüvvələrin cəlbinə çalışdı. Nəticədə 44 günlük müharibə gedişində Azərbaycanın regional müstəvidəki diplomatik üstünlüyü bizə uğur qazandırdı.

2025-ci il aprelin 10-da tarif müharibələrinin yeni qızışdığı, Ukrayna–Rusiya savaşının, İsrail–Həmas münaqişəsinin sonunun görünmədiyi hazırkı mərhələdə Azərbaycan Prezidenti strateji istiqamətlər üzrə siyasi prinsipləri elan etdi.

Qlobal xaosa təsir edən qüvvələrin müxtəlifliyini, güc mərkəzlərinin çoxluğunu nəzərə alaraq Prezident İlham Əliyev çoxpilləli və çoxistiqamətli siyasət yürütməyə üstünlük verir. Hələlik xaosun qeyrimüəyyənlik mərhələsində olması bu siyasi prinsipi alternativsiz varianta çevirir. Həm də bu, Azərbaycanın uzun illər ərzində yürütdüyü beynəlxalq siyasətin təməlini təşkil edir.

İkinci mühüm prinsip ölkəni ziddiyyətlər deyil, qlobal qarşıdurmadakı bütün güc mərkəzlərinin əməkdaşlıq məkanı kimi təqdim etmək, Azərbaycanın təhlükəsiz, müstəqil və suveren qalmasında bütün tərəflərin maraqlı olmasına nail olmaqdır.

Üçüncü mühüm prinsip qonşularla dinc yanaşı yaşamaq, iqtisadi-ticari əlaqələrinin gücləndirilməsidir. Bu yanaşma qlobal xaos dövründə ölkə ətrafında təhlükəsizlik çəmbərini təmin edir.

İndi isə yeni mərhələdə beynəlxalq siyasətin təfərrüatlarına keçək, əsas prinsiplərini qruplaşdıraq.

### Xaos dövründə ümumi strategiyanın tezisləri

Yeni dövr üçün siyasəti formalaşdıran çıxış nöqtəsinin nədən ibarət olmasını Azərbaycan Prezidenti 2025-ci ilin yanvarında müsahibəsi zamanı bildirmişdi: "...yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq. İkinci Dünya müharibəsindən sonra yaranmış sistem artıq öz potensialını itirib. Bunu bir çox yerlərdə gedən proseslər, münaqişələr, müharibələr və sair hadisələr göstərir. ...Çünki bu sistem artıq tükənib".

Bütövlükdə xaos dövründəki strategiya son 20 ildə aparılmış siyasi xəttin 44 günlük müharibədən sonra daha da gücləndirilmiş, əməkdaşlıq və təsir dairəsi genişləndirilmiş, daha güclü mövqedən yürüdülən, daha qətiyyətli olmuş variantıdır.

Bu siyasi strategiyanın hədəfi Cənubi Qafqazı praktik olaraq ABŞ-ın, Avropanın, Yaxın Şərqin, Mərkəzi Asiya və Çinin, Rusiyanın maraqlarının cəlb olunduğu bir geostrateji mərkəzə çevirməkdir. Körfəz ölkələrinin investisiyalarının Cənubi Qafqazın və Mərkəzi Asiyanın iqtisadi, enerji potensialı ilə birləşdirilməsi Orta Dəhlizi nəqliyyat və sənaye dəhlizinə çevirmək strategiyasıdır. Statistika bu strategiyanın uğurlu olduğunu göstərir. 2024-cü ildə nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33 milyon ton olmuş, bu yüklərin 57 faizini tranzit yüklər təşkil etmişdir.

İnvestisiyalar, ticarət və nəqliyyat qlobal xaosun içərisində təhlükəsiz dəhliz axtarışındadır. Azərbaycanın tutduğu siyasi xətt bütün Avrasiyanı bu dəhlizdə maraqlı etməkdir. Prezident İlham Əliyev COP29-da çıxışı zamanı da beynəlxalq siyasətin əsas tezislərini elan etmişdi. Bu çıxışın baza tezisi Azərbaycanın ən müxtəlif qütblərdən olan geosiyasi güc mərkəzlərinin əməkdaşlıq məkanı olmağa can atmasıdır. Təfərrüatlara gəldikdə isə:

– Azərbaycan dünyanın qovuşma və əməkdaşlığı üçün siyasi, mədəni, infrastruktur və iqtisadi resurslara malikdir, əlverişli nəqliyyat dəhlizlərini təklif edir;

– Biz Qlobal Şimal ilə Qlobal Cənub arasında körpü rolunu oynamaq niyyətindəyik;

– Azərbaycan beynəlxalq hüququ fəaliyyətinin əsası kimi götürür;

– Yerləşdiyimiz coğrafiyada iqtisadi və nəqliyyat dəhlizlərinin hüquqi, hərbi təhlükəsizliyini, müstəqil fəaliyyətini təşkil etmək iqtidarındayıq.

### Xaos dövrü strategiyası: TDT-ni qlobal fəaliyyət mərkəzinə çevirmək və "boşluqları doldurmaq" siyasəti

Prezident İlham Əliyev hesab edir ki, bugünkü qlobal şərtlər daxilində Türk Dövlətləri Təşkilatının (TDT) güclənməsi, təhdidlərə qarşı səylərin birləşdirilməsi, təşkilatın qlobal iştirakçıya çevrilməsi üçün əlverişli fürsət yaranıb və bu fürsətdən istifadə edərək beynəlxalq səhnədə eyni mövqedən çıxış etmək məqsədəuyğundur. Azərbaycan Prezidenti TDT-ni daha sıx biləşməyi, hətta hərbi gücləri birləşdirərək:

– Qlobal səviyyədə beynəlxalq fəaliyyət mərkəzinə çevrilməyi;

– Qlobal geosiyasi boşluqları birlikdə doldurmağı;

– Avrasiyanın böyük hissəsində qərarların qəbul olunması mərkəzinə çevrilməyi təklif edir.

Rəqəmlər əlaqələrin faydalı olduğunu nümayiş etdirir. 2024-cü il ərzində Azərbaycanın TDTyə üzv ölkələrlə ticarət dövriyyəsi 6 milyard 892,7 milyon ABŞ dolları təşkil edib. Bu ölkələrlə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 14,5 faizinə bərabər olub.

**(ardı var)**

***İbrahim MƏMMƏDOV,***
***tarix üzrə fəlsəfə doktoru***

# Azərbaycan–Çin hərtərəfli tərəfdaşlığı Avrasiyada yeni əməkdaşlıq platformasıdır

**Azərbaycanla Çin arasında sənaye, investisiya, ticarət sahələrini əhatə edən iqtisadi əməkdaşlığın getdikcə genişlənməsi nəticəsində iki ölkənin xarici ticarət dövriyyəsi 2018-ci ildəki 1,3 milyard dollardan 2,4 dəfə və ya 1,9 milyard dollar artaraq 2023-cü ildə 3,2 milyard dollara yüksəlib. İqtisadi-ticari əlaqələrin sürətlə genişlənməsi sayəsində Çin respublikamızın əsas ticarət tərəfdaşlarından birinə çevrilib. Belə ki, əgər 2018-ci ildə dost ölkə Azərbaycanın 6cı ticarət tərəfdaşı idisə, 2023-cü ilin nəticələrinə görə 4cü iri ticarət tərəfdaşı kimi qeydə alınıb.**



Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Çinin Azərbaycanın xarici ticarət dövriyyəsində payı 7,9 faiz olub, eyni zamanda, idxal üzrə də lider mövqeyinə yüksəlib və bu göstərici 17,69 faizə çatıb.

Cari ilin yanvarmart aylarında Azərbaycandan Çinə 23,2 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18,2 milyon ABŞ dolları və ya 4,6 dəfə çoxdur. Eyni zamanda, hesabat dövründə Çindən Azərbaycana 1 milyard ABŞ dolları dəyərində idxal əməliyyatları reallaşdırılıb ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 261,6 milyon ABŞ dolları və ya 35,6 faiz artım deməkdir. Bununla da hesabat dövründə Çin Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkələr sırasında ikinci pillədə qərarlaşıb.

Ümumilikdə, Azərbaycanla Çin arasında olan bu dinamika ölkələrarası münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir və bu tərəfdaşlıq hər iki ölkənin iqtisadiyyatının müxtəlif sahələrində yeni imkanlar yaratmaqla yerli bazarların canlanmasına və iş imkanlarının artmasına töhfə verəcək. Ölkələrimiz arasında münasibətlər "Bir kəmər, bir yol" layihəsi və ticariiqtisadi əlaqələrlə yanaşı, digər sahə və istiqamətlərdə də sürətlə inkişaf edir. Məsələn, tranzitlogistika, elm, texnika, texnologiya, eləcə də İTK, rəqəmsallaşdırma, sahələrində önəmli layihələrin davamı gerçəkləşdirilməsi vurğulanan fukrin bariz ifadəsidir.

Dost ölkə respublikamızla iqtisadi münasibətlərində nəqliyyat əlaqələrinin genişlənməsinə də xüsusi diqqət yetirir. Bu baxımdan Çinin Şərq – Qərb və Şimal – Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla bu sahədə əməkdaşlığa verdiyi dəyər xüsusi əhəmiyyətə malikdir. "Bir kəmər, bir yol" layihəsinin tərkib hissəsi hesab olunan Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat marşrutudur.

Xatırladaq ki, Orta Dəhlizlə Çindən Avropaya 12 gün ərzində 10 min deyil, 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələrilə Çin arasında illik ticarət dövriyyəsi 700 milyard dolların üzərindədir. 2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda 2 dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması həyata keçirilir və 2020-2024-cü illərdə daşınma həcmi 2,5 dəfə artıb.

Prezident İlham Əliyev Orta Dəhlizin inkişafına və modernləşdirilməsinə xüsusi önəm verir. Dəhliz çərçivəsində yerləşən infrastrukturların fəaliyyətinin səmərəliyinin artırılmasını diqqətdə saxlayır. Dövlətimizin başçısının Bakı Beynəlxalq Dəniz Ticarət Limanının malik olduğu indiki 100 min TEU və 15 milyon ton ümumi yükaşırma qabiliyyətinin yetərli olmadığnı bildirməsi və və limanın ümumi yükaşırma qabiliyyətinin 25 milyon tona və 500 yüz min, yaxud, hətta bir milyon TEUya çatdırılmasını zəruri hesab etməsi də vurğulanan fikrin bariz ifadəsidir.

Qeyd edək ki, Orta Dəhlizin inkişafı və səmərəliyinin artırılması çərçivəsində indiyədək Sian (Çin) limanında Qazaxıstan terminalının tikintisi və Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə işlər başa çatdırılıb, Dostık – Moyıntı dəmir yolu hissəsində ikinci, Almatıdan yan keçən xəttin, eləcə də Poti limanında bu il işə salınması nəzərdə tutulan konteyner terminalının tikintisinə başlanılıb. Bundan əlavə, 2025-ci ilin ortalarına qədər Aktau limanında konteyner qovşağının inşası, eləcə də Qazaxıstan tərəfinin Kurık və Bakı limanları arasında fəaliyyət göstərəcək öz bərələrini alması planlaşdırılıb.

Hazırda respublikamızda Bakı limanının 2ci fazasının tikintisi davam etdirilir, quru yük körpüsü və liman stansiyalarının ötürücülük qabiliyyəti artırılır, eləcə də ölkəmizin dəmir yolları üçün vaqon parkının yenilənməsi nəzərdə tutulur, dəmir yollarının Ələt – Böyük Kəsik hissəsinin modernləşdirilməsi sürətlə həyata keçirilir.

Gürcüstan tərəfində keçid dəmir yolunun modernləşdirilməsi üzrə işlər artıq başa çatdırılıb və ilin sonunadək bu marşrutda ötürücülük qabiliyyətini artırmaq məqsədilə əlavə lokomotivlərin alınması planlaşdırılıb.-

## EKSPERT RƏYİ

*Xaliq RÜSTƏMOV,*
*BDU-nun beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi, iqtisad üzrə fəlsəfə doktoru*



Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycan – Çin əməkdaşlığı hazırda Prezident İlham Əliyevin uğurlu və ölkəmizin inkişafı naminə yürütdüyü məqsədyönlü siyasət nəticəsində müxtəlif istiqamətlərdə genişləndirilir, ölkələrimiz arasında siyasiiqtisadi, mədəni əlaqələr inkişaf etdirilir. 2005-ci, 2015-ci və 2019-cu illərdə dövlətimizin başçısının Çinə səfərləri zamanı iki dövlət arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində atılan addımlar bu gün münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək inkişafın dinamik xarakter almasına xidmət edir.

Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlığın gücləndirilməsi hər iki ölkə üçün önəmli olmaqla, müxəlif istiqamətlərdə inkişafa böyük töfhə verir. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına indiki səfəri isə ölkələrimiz arasında münasibətlərdə strateji tərəfdaşlığın hərtərəfliyini şərtləndirir. Müxtəlif sahələrlə bağlı imzalanan əməkdaşlıq sənədləri sözügedən ölkələrin perspektivdə inkişafını dəstəkləyən əsas istiqamətləri əks etdirir.

Çin–Azərbaycan iqtisadi əməkdaşlığı çərçivəsində atılan mütərəqqi addımlar respublikamızın regional və qlobal miqyasda etibarlı bir tərəfdaş olduğunu bir daha təsdiqləyir. Çinin xarici siyasətinin əsas tərkib hissəsi hesab edilən qlobal miqyaslı "Bir kəmər, bir yol" təşəbbüsündə Azərbaycanın tərəfdaş mövqeyində iştirakı ölkəmiz üçün yeni imkanlar yaradır, müxtəlif səviyyələrdə inteqrasiyaya töhfə verməklə yeni əməkdaşlıqları dəstəkləyir.

2024-cü il iyulun 3-də imzalanan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin ardınca 2025-ci il aprelin 23-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması ölkələrimiz üçün əməkdaşlığın daha bir pillə yüksəldiyini, hər iki ölkənin birbirini etibarlı və qarşılqlı faydalı strateji tərəfdaş hesab etdiyini diqqətə çatdırmaqla, əməkdaşlığın müxtəlif istiqamətlərdə inkişafının qarşılıqlı maraqlar çərçivəsində gerçəkləşdiyini bir daha təsdiqləyir.

Bu gün bir çox sahələrdə, xüsusilə ticarət, investisiya, "yaşıl" enerji, rəqəmsal iqtisadiyyat, turizm istiqamətlərində qarşılıqlı fəaliyyətlər məhz əməkdaşlığın ən mühüm istiqamətləri kimi qəbul edilir və bu istiqamətlərdə potensial imkanlar müəyyənləşdirilməklə əməkdaşlıqların daha da dərinləşdirilməsi əsas hədəflər kimi qarşıya qoyulur.

Çin–Azərbaycan iqtisadi əməkdaşlığında hər iki ölkənin və xalqlarının iqtisadi mənafeyinə uyğunluq inkişafa səbəb olan əsas amillərdən biridir və iqtisadi əməkdaşlığın inkişafı qarşılıqlı olaraq yüksək qiymətləndirilir. Çin Xalq Respublikası Azərbaycanın iqtisadi təşkilatlar və birliklərə üzvlüyü fonunda iqtisadi inteqrasiyasını və əməkdaşlığının müxtəlif istiqamətlərdə genişləndirilməsini dəstəkləyir.

Bütün bu qeyd olunanlar isə bir daha göstərir ki, Çin və Azərbaycan tərəfdaşlığı müasir mərhələdə nəinki hər iki ölkə üçün iqtisadi fayda təmin edir, eləcə də regional və və qlobal önəm daşıyır.

# Bakı beynəlxalq kosmik müzakirələr mərkəzinə çevrilib

**Aprelin 24-də Bakıda açılan Kosmik Texnologiyalar Konfransı dünən başa çatıb. Azərbaycan Respublikasının Kosmik Agentliyi – "Azərkosmos"un təşkilatçılığı ilə keçirilən beynəlxalq məclisdə Avropa, Asiya, Şimali və Cənubi Amerika və Afrikanın 35 ölkəsinin 112 təşkilatını təmsil edən 400-dən çox nümayəndə iştirak edirdi.**




Konfransın məqsədi Mərkəzi Avrasiya regionunda və ümumilikdə, dünyada kosmik texnologiyalar sahəsində əməkdaşlığı gücləndirmək, innovasiyaları təşviq etmək və kosmosun qlobal iqtisadiyyatda artan roluna dair müzakirələr aparmaqdan ibarət olub. İlk gün "Dayanıqlı regional inkişaf üçün Yerin məsafədən müşahidəsi", "Mərkəzi Avrasiyada peyk rabitəsinin rolu" və "Kosmik sənayedə innovasiya və investisiyalar" mövzusunda panel sessiyalar keçirilib.

Açılış nitqində "Azərkosmos" İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Dunay Bədirxanov bildirib ki, STC2025, sadəcə, bir konfrans deyil, Bu, dialoqun hərəkətə keçdiyi, tərəfdaşlıqların formalaşdığı və kosmosun gələcəyinin birgə dizayn olunduğu bir platformadır. Qeyd olunub ki, STC2025 Azərbaycanı regionda kosmik texnologiyalar sahəsində bilik mübadiləsinin və strateji tərəfdaşlıqların mərkəzinə çevirərək ölkəmizin bu sahədə artan rolunu bir daha nümayiş etdirir.

"Azərkosmos"un yeni nəsil peyk sistemlərini orbitə çıxarmağa hazırlaşdığını diqqətə çatdıran natiq bildirib ki, bu sistemlər yüksək dəqiqliklə Yerin müşahidəsi, yeni nəsil telekommunikasiya xidmətləri və regional əlaqə sahəsində qabaqcıl imkanlara malik olacaq. Qeyd olunub ki, "Azərkosmos" yeni beynəlxalq missiyaların, o cümlədən Türkiyədəki və digər ölkələrdəki tərəfdaşlarla birgə təşəbbüslərin perspektivlərini nəzərdən keçirir.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov qeyd edib ki, son illər Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarının inkişafında mühüm nailiyyətlər əldə olunub. O bildirib ki, dövlətözəl tərəfdaşlıq modeli üzrə həyata keçirilən "Onlayn Azərbaycan" layihəsi artıq uğurla başa çatıb. Hazırda bütün Azərbaycanın sabit genişzolaqlı internetlə təmin olunduğunu xatırladan nazir müavininin sözlərinə görə, son dörd ildə ölkədə sabit genişzolaqlı yüksəksürətli internetə çıxışı olan ev təsərrüfatlarının sayı 13 dəfə artıb və bu infrastruktur hesabatları beynəlxalq reytinqlərdə də öz əksini tapıb.

Beynəlxalq məclisdə kosmosun, sadəcə, bir vasitə deyil, elm və siyasət, sənaye və innovasiya, qlobal baxış və yerli fəaliyyət arasında bir körpü olduğu vurğulanıb. Bildirilib ki, Bakı artıq kosmik tədbirlərin mərkəzi olaraq 2023-cü ildə Beynəlxalq Astronavtika, COP29 çərçivəsində Kosmik Liderlərin Sammiti, STC kimi regional tədbirlər sayəsində beynəlxalq görüşlərin, tərəfdaşlıqların, ortaq strategiyaların qurulduğu məkana çevrilib.

Qeyd olunub ki, Beynəlxalq Telekommunikasiya İttifaqının Qlobal Kibertəhlükəsizlik İndeksində Azərbaycanın kibertəhlükəsizlik indeksi yaxşılaşıb, ölkəmiz mümkün 100 baldan 94-ə yaxın bal toplayıb və reytinqdə yüksək yer tutub.

Konfransın 2-ci günündə də əsas mövzular ətrafında müzakirələr davam etdirilib. "Azərkosmos"un İdarə Heyəti sədrinin müavini Fuad Aslanov çıxış edərək konfransın ilk günündə bir sıra maraqlı təqdimatların keçirildiyini vurğulayıb: "Mərkəzi Avrasiyada suveren kosmik proqramların inkişafını müşahidə etmək mənim üçün çox maraqlı idi. Hesab edirəm ki, bu gün kosmos artıq qapalı məkan deyil. Biz mütləq beynəlxalq tərəfdaşlarla əməkdaşlığa can atmalıyıq, çünki bir çox yerli biliklər mövcuddur. İnanıram ki, siyasətçilər, kosmik agentliklər, sənaye və akademik qurumlarla birgə biz daha inkişaf etmiş kosmik ekosistem qura bilərik".

Beynəlxalq konfransda Birləşmiş Ərəb Əmirlikləri Kosmik Agentliyinin nümayəndəsi Abdulla Ahmad Al Shehhi, Türkiyənin aparıcı kosmik texnologiyalar institutu olan "TÜBİTAK UZAY"ın direktor müavini Bülent Avenoğlu, Macarıstanın qabaqcıl texnologiya şirkəti "4iG Space and Defence Technologies"in nümayəndəsi Sebastyan Masurak, "Airbus" şirkətinin Avropa və Mərkəzi Asiya üzrə satış meneceri Joe Cotti, "Ghalam Kazakhstan" şirkətinin layihə direktoru Berik Jhumazhanov, türkiyəli astronavt Tuva Cihangir Atasever, "Azərkosmosun" nümayəndəsi Aynurə Balakişiyeva və başqaları çıxış edərək kosmik texnologiyalar sahəsində əldə olunmuş uğurlar, gələcək birgə əməkdaşlığın perspektivləri və digər məsələlərlə bağlı fikir və mülahizələrini bölüşüblər.

Ümumilikdə, kosmik agentliklərin rəhbərlərinin, dövlət qurumlarının nümayəndələrinin, özəl sektor təmsilçilərinin və beynəlxalq ekspertlərin bir araya gəldiyi iki gün ərzində 200-dən artıq ikitərəfli görüş keçirilib, 50 spikerin çıxışı dinlənilib. Konfrans çərçivəsində keçirilən 21 sərgi və 8 müxtəlif sessiya vasitəsilə iştirakçılar kosmos sahəsində bilik, təcrübə və trendləri paylaşıblar.

Konfrans çərçivəsində Azərbaycan Respublikasının Kosmik Agentliyi ilə dünyanın bir sıra şirkətləri arasında anlaşma memorandumları imzalanıb.

# Rəqəmsallaşmanın meydanı böyüyür



**Azərbaycan Respublikası Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi dövlət başçısının 9 iyun 2024-cü il tarixli fərmanına uyğun olaraq Elektron Rəqabət İnformasiya Sisteminin yaradılmasına başlayıb. Bunu qurumun sədri Elnur Bağırov "Ticarət şəbəkələrinin bazar iqtisadiyyatında rolu: imkanlar və perspektivlər" mövzusunda Bakıda keçirilən ictimai müzakirələr zamanı bildirib.**

Qurumun həyata keçirdiyi mühüm addımlardan birinin rəqabət qanunvericiliyinə dair məlumatların toplanması və təhlili üçün rəqəmsal platformaların tətbiqi imkanlarının genişləndirilməsi ilə bağlı olduğunu diqqətə çatdıran E.Bağırov deyib ki, agentlikdə Elektron Rəqabət İnformasiya Sisteminin yaradılmasında məhz bu amillər əsas götürülür: "Sözügedən sistem həm rəqabət, həm də istehlakçı hüquqlarının müdafiəsi sahələri üzrə istehlakçıların və bazar subyektlərinin müraciətlərinin qəbulunu, emalını, onlara əlavə edilməli olan sənədlərin və ya məlumatların real vaxt rejimində digər dövlət orqanlarından əldə olunmasını, həmin müraciətlərə dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsini, habelə qeyd olunan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığını təmin edəcək".

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Müstəqil dövlətdə sahibkarlığın hüquqi əsasları



(əvvəli 1-ci səhifədə)

Dövlət rəsmiləri, iş adamları və biznes strukturları rəhbərlərinin iştirak etdikləri toplantıda ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, dövlət tərəfindən sahibkarlığa yaradılan imkanlar və beynəlxalq ticarətə dair məsələlər müzakirə olunub. Çıxış edən natiqlər son illər Azərbaycanda qeyrineft sektorunun inkişafı, dünya bazarlarına çıxış, gələcək perspektivlər haqqında fikir mübadiləsi aparıblar.

Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov çıxışında ölkəmizdə iqtisadi inkişafın yeni, mühüm mərhələyə qədəm qoyduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi qələbənin ardınca suverenliyimizin bərpa olunması, yeni regional gündəmin bəlli olması, regionda kommunikasiyaların açılması və onların inkişaf etdirilməsi sahəsində atılan addımlar Azərbaycan iqtisadiyyatı və sahibkarlar qarşısında yeni üfüqlər açıb.

İşğaldan azad edilmiş ərazilərdə yeni iş yerlərinin açılması üçün bir sıra mexanizmlərin qəbul edildiyini bildirən şöbə müdirinin sözlərinə görə, ümumbəşəri dəyərləri rəhbər tutan Konstitusiyamızın mülkiyyətin qorunması, azad sahibkarlığın inkişafı və digər vacib konsepsiyalar kimi bir sıra vacib təminatları özündə əks etdirir.

Qarşıda duran əsas vəzifələrdən birinin ölkəyə xarici investisiya axınının təmin edilməsindən ibarət olduğunu bildirən G.Kərimov sahibkarları bu məsələdə fəal rol oynamağa səsləyib. O, son illər ölkəmizdə qəbul olunmuş qanunların xarici investorların cəlb edilməsi üçün mühüm sənədlər kimi xarakterizə edərək bildirib ki, bu sahədə sahibkarların da xüsusi fəallığına ehtiyac var. Bildirilib ki, son zamanlar bir sıra qanunların qəbul edilməsi, o cümlədən emissiyalar və dövlətözəl tərəfdaşlığı haqqında, arbitraj haqqında qanunların qəbul edilməsi Azərbaycanda xarici investisiyaların təşviqi istiqamətində mühüm rol oynayıb.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək bildirib ki, hazırda Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. Rəqəmsal iqtisadiyyatı ölkəmizin əsas iqtisadi istiqamətlərdən biri kimi xarakterizə edən nazir müavininin sözlərinə görə, ölkəmizdə yeni çağırışlara, gələcəyin trendlərinə uyğun biznes strategiyaları qurulmalı, insan resursları daha da inkişaf etdirilməlidir: "Müasir texnologiyalardan istifadə, məhsul və xidmətlərdə yenilikçi yanaşmaların tətbiqi mühümdür. Bu kontekstdə gənc sahibkarların təşəbbüsləri dəstəklənir, startap ekosisteminin gücləndirilməsinə, eləcə də yaşıl layihələrə xüsusi diqqət yetirilir", – deyə o əlavə edib.

İqtisadiyyatımızın şaxələndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən Ələt Azad İqtisadi Zonasının mərhələli şəkildə investorların istifadəsinə verildiyini bildirən birinci müavin deyib ki, burada yaradılmış mövcud əlverişli şərait, təklif olunan iş adamalarının marağını getdikcə artırır. Qeyd olunub ki, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, eləcə də iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyrineft məhsullarının ixracı 26 faiz artıb, ölkənin strateji valyuta ehtiyatlarının həcmi 73 milyard dolları ötüb.

Azərbaycanın xarici iqtisaditicarət əlaqələrinin genişlənməsinin sahibkarlarımız üçün əlavə imkanlar açdığını vurğulayan E.Əliyev daha sonra bildirib ki, Prezident İlham Əliyevin bugünlərdə Çinə səfəri çərçivəsində iki ölkə arasında Strateji Tərəfdaşlığın Genişləndirilməsi haqqında Bəyannamənin imzalanması, vizasız rejimin tətbiqi, həmçinin, hüquq, yaşıl inkişaf, alternativ enerji, rəqəmsal iqtisadiyyat, intellektual mülkiyyət və aerokosmik sahələrdə 20-yə yaxın əməkdaşlıq sənədinin imzalanması Azərbaycanın Asiya bazarına çıxması, regionu yaxından tanıması və yeni əməkdaşlıqlar qurması baxımından çox əhəmiyyətlidir.

Nazir müavini, həmçinin ölkəmizin beynəlxalq maliyyə institutları və inkişaf tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində də sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması və KOBların dəstəklənməsi istiqamətində mühüm işlər gördüyünü, Dünya Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və digər tərəfdaşların texniki və maliyyə dəstəyi nəticəsində bir sıra proqram və layihələr həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, bu proqramlar çərçivəsində sahibkarlara güzəştli maliyyə alətlərinə çıxış, biznes bacarıqlarının artırılması, rəqəmsal transformasiya və yaşıl iqtisadiyyata keçid istiqamətində dəstək göstərilməsi nəzərdə tutulur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxış edərək bildirib ki, ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsasında sahibkarlığın inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşması dayanır. Diqqətə çatdırılıb ki, Azərbaycanda ümumi daxili məhsul istehsalında qeyrinetf sektorunun payı 81,4 faiz, xidmət sahəsinin payı 71,4 faiz, kənd təsərrüfatının payı isə 99,4 faiz artıb. "Sərmayə qoyuluşunun artması, yeni aqroparkların istifadəyə verilməsi və digər iqtisadi tədbirlər büdcə gəlirlərini artırmaqla yanaşı əhalinin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olub", – deyə o əlavə edib.

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev isə çıxışında bildirib ki, bu ilin yanvarın 1nə olan məlumata əsasən, Azərbaycanda 1,4 milyondan çox fərdi sahibkar qeydiyyata alınıb. Bundan əlavə, hazırda ölkədə 212 mindən artıq hüquqi şəxs statusuna malik sahibkarlıq subyektinin fəaliyyət göstərdiyini diqqətə çatdıran konfederasiya rəhbərinin sözlərinə görə, bu, əvvəlki illə müqayisədə 7,1 faiz artım deməkdir. Qeyd olunub ki, son illər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin sürətlə inkişaf etməkdədir.

Sahibkarların qarşılaşdığı məsələlərin operativ şəkildə həllinə nail olmaq üçün yaradılan əlverişli mexanizmlərdən biri də Əməkdaşlıq Şuralarının olduğunu vurğulayan M.Musayev deyib ki, hazırda Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Mərkəzi Bankı, Dövlət Gömrük Komitəsi ilə Əməkdaşlıq Şuraları fəaliyyət göstərir. Bu şuralar sahibkarların qaldırdıqları məsələlərin həllində müstəsna rola malikdir və dövlətözəl dialoqunun ən işlək mexanizmlərindən biridir.

Konfransda, həmçinin Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin İcraçı direktoru Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, "PAŞA Holding" MMCnin Qrup üzrə Hüquq və Komplayens Departamentinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Aytac Qasımova və başqaları çıxış edərək fikir və mülahizələrini bölüşüblər.

# Azərbaycan Çinlə elektron ticarəti genişləndirir

**Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında imzalanmış Birgə Bəyanatda elektron ticarət sahəsi üçün də yeni imkanlar vəd olunur, iki ölkə arasında iqtisadi əlaqələrin dərinləşdirilməsi və kağızsız elektron ticarətin inkişafı prioritet istiqamətlərdən biri kimi göstərilir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu "Azexport.az" portalı 2017-ci ildən etibarən Azərbaycan məhsullarının dünyanın 15-dək aparıcı elektron ticarət platformasında yayımlanmasını təşkil edir. Bu istiqamətdə əldə olunan uğurlar sırasında Çinin "Alibaba" platforması xüsusi yer tutur. Portalın rəhbəri Ayxan Qədəşov bildirib ki, "Azexport" ilə "Alibaba" platforması arasında 7 ildən artıq davam edən əməkdaşlıq tarixçəsi mövcuddur. Onun sözlərinə görə, əməkdaşlığın ilk mərhələsində bu platformada cəmi 3 yerli şirkətin, təxminən, 10 adda məhsulu təmsil olunurdusa, "Azexport" portalının fəaliyyəti nəticəsində isə bu rəqəmlər sürətlə artdı. Hazırda "Alibaba" Azərbaycan məhsullarına dair ixrac sifarişləri və sorğularının sayına görə lider platformalardan birinə çevrildiyini diqqətə çatdıran A.Qədəşov deyib ki, bu əməkdaşlıq çərçivəsində Azərbaycan məhsullarının yalnız Çin bazarına deyil, həmçinin digər Asiya ölkələrinə, Okeaniya və Körfəz regionuna çıxış imkanları əhəmiyyətli dərəcədə genişlənib.




Portal rəhbərinin dediyinə görə, "Alibaba" platforması Azərbaycanda istehsal olunan məhsulların beynəlxalq rəqabət qabiliyyətinin artırılması və yeni bazarlara çıxışının təmin olunması baxımından müasir və strateji əhəmiyyətə malik rəqəmsal resursdur. Eyni zamanda, elektron ticarət sahəsində əməkdaşlığın hər iki ölkə tərəfindən ali səviyyədə tanınması və dəstəklənməsi bu sahədə daha geniş imkanlardan istifadə olunmasına şərait yaradır.

A.Qədəşov hesab edir ki, bundan sonra Çinin rəqəmsal ticarət ekosisteminə dərin inteqrasiya, rəqəmsal texnologiyalar sahəsində təcrübə mübadiləsi, dünyanın iqtisadi nəhəngini təmsil edən şirkətlərin Azərbaycanda elektron ticarət və logistika sahəsinə investisiya yatırması, ölkəmizdə birgə istehsal və ixrac imkanlarının yaradılması kimi istiqamətlərdə əməkdaşlıq daha da artacaq. Eyni zamanda, Azərbaycanın qlobal ticarət yolları üzərində yerləşməsi və beynəlxalq səviyyədə artan iqtisadi nüfuzu Çinin aparıcı elektron ticarət şirkətlərinin ölkəmizdə fəaliyyətlərini genişləndirməsi üçün əlverişli mühit formalaşdırır. Bu isə öz növbəsində "Made in Azerbaijan" brendinin tanıdılması və qeyrineft sektorunun ixrac potensialının artırılması baxımından mühüm rol oynayır.

Qeyd edək ki, "Azexport.az" portalı Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında" 2016-cı il sentyabrın 21-də imzaladığı sərəncam əsasında yaradılıb. Portal vasitəsilə Azərbaycanda istehsal olunan malların vahid məlumat bazası formalaşıb. Hazırda sahibkarların öz yerli məhsullarını 150-yə yaxın ölkədə fasiləsiz tanıtmaq imkanı var.

Portal Azərbaycan istehsalı olan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda "Made in Azerbaijan" brendi adı altında təşviqinə dəstək verir. Azexport.az ölkədə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma, sahəsində dəstək göstərir.

"Azexport"un "Amazon.com", "Alibaba.com", "all.biz", "Go4worldbusiness.com" kimi geniş auditoriyaya malik olan 15-dən artıq portala inteqrasiya olunması Azərbaycan istehsalı olan məhsulların dünya bazarına çıxış imkanlarını artırır, onların satış əhatəsini genişləndirir.

**Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova mediaya müsahibəsində ötən il respublikamızın aqrar sektorunda müşahidə olunan artımın əsasən sənaye təyinatlı və ixracyönümlü sahələrin inkişafı hesabına əldə edildiyini bildirib.**




# Kəndin ölkəyə töhfələri bu il də artır

Onun sözlərinə görə, cari ildəisə meyvə və giləmeyvə istehsalı 4,5 faiz, bostan məhsulları 11,9 faiz, pambıq istehsalı 11,1 faiz, şəkər çuğunduru 31,5 faiz, günəbaxan istehsalı 6,6 faiz, eyni zamanda, kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artıb.

İ.Qədimova bildirib ki, 2024cü ildə kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ixrac həcmi 1,3 milyard ABŞ dolları (son 5 illə müqayisədə 40 faiz çox) təşkil edib. Meyvətərəvəz məhsullarının dəyər ifadəsində ixracı isə 2019–2024cü illər ərzində 16,18 faiz artıb. Bu dövrdə tumlu meyvə ixracı 65,8 faiz, çəyirdəkli meyvələr 80,7 faiz, nar ixracı isə 53,9 faiz artım nümayiş etdirib. Bundan başqa, üzüm 2,3 dəfə, mandarin 4,6 dəfə, çiyələk 8,3 dəfə, bostan məhsulları 14,4 dəfə və qurudulmuş meyvələrin 7,8 dəfə ixracında da ciddi artım qeydə alınıb.

Nazir müavini vurğulayıb ki, aqrar sektorun inkişaf strategiyası məhsuldarlığın artırılması, intensiv və innovativ təsərrüfatçılığın genişləndirilməsi və dayanıqlı inkişafı təmin edən mexanizmlərin tətbiqinə əsaslanır.

"Bu istiqamətdə prioritetlər müəyyənləşdirilir və dövlət dəstəyi tədbirləri də həmin prioritetlərə uyğun təkmilləşdirilir. Ən mühüm istiqamətlərdən biri müasir suvarma sistemlərinin genişləndirilməsidir. Ölkə Prezidentinin tapşırıqlarına uyğun olaraq Şirvan və Qarabağ suvarma kanallarının yenidən qurulması istiqamətində işlər görülür. Milli səviyyədə su ehtiyatlarından səmərəli istifadə strategiyası qəbul olunur, bu sahədə əlaqələndirməni təmin edən komissiya da fəaliyyət göstərir", – deyə o qeyd edib.

İ.Qədimovanın sözlərinə görə, su təminatının yaxşılaşdırılması və müasir suvarma sistemlərinin tətbiqi sayəsində artıq 100 min hektardan artıq sahədə bu sistemlər qurulub. Bu, xüsusilə taxılçılıq, pambıqçılıq, qarğıdalı və şəkər çuğunduru sahələrində məhsuldarlığın artımına əhəmiyyətli təsir göstərib.

Torpaq resurslarının səmərəli istifadəsi də sektorun dayanıqlı inkişafı baxımından prioritet istiqamət kimi qiymətləndirilir. Bu məqsədlə torpaq istifadəçiliyi ilə bağlı konsolidasiya mexanizmi tətbiq olunur, torpaqların məhsuldarlığının artırılması və xəstəliklərə davamlılığın təmin edilməsi istiqamətində tədbirlər görülür.

# "Dəmir İpək yolu" modernləşdirilir

**"Azərbaycan Dəmir Yolları" QSC sədrinin müşaviri Emil Məmmədov Bakıda keçirilən "Xəzər və Mərkəzi Asiya neft ticarinəqliyyat Forumu"nda bu il Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttinin tam istismara veriləcəyinin nəzərdə tutulduğunu bildirib.**



E.Məmmədovun sözlərinə əsasən, ötən il adıçəkilən QSC dəmir yolu xəttində əsaslı yenidənqurma işləri aparıb və müvafiq olaraq terminal imkanları genişləndirilməklə dəhlizin səmərəli fəaliyyəti, marşrutun dinamikliyi gerçəkləşdirilib. Eyni zamanda, quru yükün cəlb edilməsi, həcmin artırılması qarşıya mühüm vəzifə kimi qoyulub. Bundan başqa BTQ dəmir yolu vasitəsilə neft məhsullarının nəqli adıçəkilən infrastrukturun tam istismara verilməsi ilə bağlı olduğundan son vaxtlar bu məsələyə diqqət daha da artırılıb, polad magistralda tikinti işləri sürətləndirilib. Ona görə də dəmir yolu xəttinin tam istismara hazırlanması prosesi, təxminən, 95 faiz tamamlanıb və ilin sonunadək təhvil verilməsi planlaşdırılıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan – Avropa İttifaqı: yeni strateji yanaşma

(əvvəli 1-ci səhifədə)



Son illərdə, xüsusilə 2020-ci ildən sonra Azərbaycanın beynəlxalq rolunun artması, enerji təchizatında etibarlı tərəfdaş kimi ön plana çıxması və eyni zamanda, yaşıl enerji keçidində əsas oyunçuya çevrilməsi TƏS-in hüquqi və siyasi imkanlarını aşmış vəziyyətdədir və Azərbaycanın regional təşəbbüslərdəki rolu onun strateji çevikliklə yön verdiyi diplomatik xətti müqaviləyə uyğun gəlmir.

Üstəlik, Aİ ilə münasibətlərdə rəqəmsal transformasiya, süni intellekt, enerji tranziti, geosiyasi sabitlik və təhlükəsizlik sahələrində yaranan yeni əməkdaşlıq sahələri də TƏS-in gündəliyində yoxdur. Yəni, sənədin hüquqi çərçivəsi də tərəflərin mövcud və gələcək maraqlarına cavab vermir.

Hazırda danışıqları davam edən və layihəsi üzərində razılaşmalar aparılan TƏS bu boşluğu doldurmağa yönəlib. Sənədin məqsədi yalnız texniki və iqtisadi sahələrdə əməkdaşlığı dərinləşdirmək deyil, həm də siyasi dialoqun institusional əsaslarla genişləndirilməsidir. Yəni, Azərbaycan–Aİ münasibətləri artıq gündəlik əməkdaşlıqdan çıxaraq, strateji qərarların, qarşılıqlı öhdəliklərin və dəyərlərin paylaşılmasına əsaslanan bir müstəviyə keçir.

Postmüharibə dövründə Cənubi Qafqazda yaranmış yeni reallıqlar, xüsusilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və regional sabitliyə çağırış edən sülh təşəbbüsləri Aİ üçün də yeni qiymətləndirmələrə səbəb olub. Azərbaycan bu gün, sadəcə olaraq, enerji mənbəyi deyil – regionda sabitliyin dayağı, kommunikasiya və nəqliyyat layihələrinin əsas təşəbbüskarı, yaşıl transformasiyanın lideridir.

Azərbaycanın Avropanın enerji xəritəsində oynadığı rolunun konturları da artıq tam aydındır. Əgər bir zamanlar bu əməkdaşlıq sadəcə layihələr səviyyəsində müzakirə edilirdisə, bu gün Cənub Qaz Dəhlizi (CQD) reallığa çevrilib və siyasi iradənin, qarşılıqlı etimadın və strateji sinxronizasiyanın canlı sübutudur. Bu gün Azərbaycan 10 Avropa ölkəsinə qaz ixrac edir, onların 8-i Aİ üzvüdür və bu, sadəcə statistik məlumat deyil – enerji diplomatiyasının siyasi çəkisi və Azərbaycanın Avropada etibarlı tərəfdaş statusunun rəsmi təsdiqidir.

TAP və TANAP kimi mühüm layihələr vasitəsilə Azərbaycan öz qazını Avropaya çatdırır və Aİ-nin enerji təhlükəsizliyi strategiyasına sabitlik və dayanıqlılıq bəxş edir. Enerji tərəfdaşlığı iki istiqamətli xarakter daşıyır: Azərbaycan öz resurslarını dünya bazarına çıxarır, Avropa isə öz enerji sabitliyini Bakı üzərindən təmin edir.

Əməkdaşlıq artıq təkcə təbii qazla məhdudlaşmır. Azərbaycanın yaşıl enerji sahəsində atdığı addımlar onu ənənəvi enerji təchizatçısından bərpaolunan enerjidə aparıcı oyunçuya çevirir. Xəzərin Azərbaycan sektorunda yerləşən dəniz külək enerjisi potensialı Avropa üçün yeni enerji mənbəyi və alternativ yol deməkdir.

Bununla yanaşı, Transxəzər "Yaşıl" Enerji Dəhlizi və Gürcüstan–Rumıniya–Macarıstan–Bolqarıstan xətti üzrə formalaşan yaşıl enerji platforması Azərbaycanın bu sahədə də strateji mərkəz rolunu oynadığını təsdiqləyir. Burada söhbət təkcə enerji mənbələrindən deyil, dayanıqlı gələcək, texnoloji əməkdaşlıq və iqlim diplomatiyasından gedir. Azərbaycan bu proseslərdə yaşıl enerji dövrünün fəal iştirakçısı və təşəbbüscüsüdür ki, bu amil də Avropa üçün xüsusi önəm daşıyır. Çünki yaşıl keçid geosiyasi etibarlılıq tələb edir və Azərbaycan da bu tələbi qarşılayan nadir ölkələrdəndir.

Siyasi müstəvidə isə Cənubi Qafqazda davamlı sabitliyin təmin olunması və Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində Azərbaycanın atdığı ardıcıl və prinsipial addımlar Avropa İttifaqının da diqqət mərkəzindədir.

Azərbaycan bu mürəkkəb prosesdə heç vaxt təşəbbüsü əldən verməyib. Bakı regiondakı sülh gündəliyini beynəlxalq vasitəçilərin monopoliyasına buraxmadan, onu öz diplomatik iradəsi və strateji baxışı ilə formalaşdırmağa çalışır. Buradan isə Azərbaycanın yalnız ərazi bütövlüyünü bərpa etməklə kifayətlənməmdiyini, eyni zamanda, postmünaqişə dövründə sülh arxitekturasını özü dizayn etmək əzmində olduğunu görürük.

Azərbaycanın bu yanaşması klassik diplomatiyadan fərqlənir – bu, proaktiv və müstəqil xarici siyasət strategiyasıdır. Diplomatik prosesləri yönləndirmək və gündəmi müəyyənləşdirmək bacarığı Azərbaycanın beynəlxalq münasibətlər sistemində, aktiv "oyunçu"ya çevrildiyini sübut edir.

Brüsselin bu proseslərdəki rolu da dəyişməkdədir. Avropa İttifaqı Azərbaycanı regional sülh və sabitliyin əsas təminatçılarından biri kimi qiymətləndirir. Bu kontekstdə tərəflər arasında münasibətlərin strateji siyasi sinxronizasiyasına yol açan yeni bir dövrün artıq başlandığını söyləmək olar. Kaya Kallasın səfəri də məhz bu yeni mərhələnin göstəricisidir və Aİ-nin öz mövqeyinə yenidən baxdığını açıq şəkildə nümayiş etdirir. Bu görüş Aİ-nin Cənubi Qafqaz siyasətində ciddi bir dönüş nöqtəsi kimi qiymətləndirilə bilər.

Bu gün beynəlxalq münasibətlərdə vədlərdən çox nəticələr önəmlidir. Reallıq onu göstərir ki, Azərbaycanla Aİ arasında münasibətlər artıq sadəcə niyyət bəyanatları səviyyəsində deyil – təməli konkret layihələrlə möhkəmlənən strateji əməkdaşlığa çevrilməkdədir. Tərəflər arasında artan qarşılıqlı anlayış və ortaq maraqlar bu əməkdaşlığı daha da dərinləşdirir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

(əvvəli 1-ci səhifədə)

# "Metsamor" AES dilemma qarşısında: ABŞ, yoxsa Rusiya?





Ermənistan "Metsamor"-un istismar müddəti başa çatana qədər yeni AES tikmək niyyətindədir. Artıq bununla bağlı həm Rusiya, həm də ABŞ öz xidmətlərini təklif ediblər. Amerikalı diplomatlar Ermənistanla "modul reaktorlar", "Rosatom" isə öz növbəsində yeni AESin tikintisi ilə bağlı danışıqlar aparıb. Belə görünür ki, Ermənistanda yeni atom elektrik stansiyasının tikintisi potensial olaraq enerji sektorunda ABŞ ilə Rusiya arasında ciddi rəqabətə səbəb olacaq.

Maraqlıdır ki, Çin də bu rəqabətə qoşulmaq istəyir. Bu ölkənin Ermənistandakı səfiri "Metsamor" AESə baş çəkib. Məlumatlara görə, səfir AESin rəhbərliyi ilə nüvə enerjisi sahəsində mümkün əməkdaşlıq məsələlərini müzakirə edib. Bəs Ermənistan kimə üstünlük verəcək? Xarici mətbuatın yazdığına görə, İrəvan bu sahədə Vaşinqtonla əməkdaşlığa üstünlük verir. "Civilnet" internet nəşri ABŞ Dövlət Departamentinə istinadən xəbər verib ki, Ermənistan ABŞa yeni texnologiyadan istifadə etməklə ərazisində atom elektrik stansiyasının tikintisi ilə bağlı sorğu göndərib. Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat xidməti bildirib: "ABŞ hökuməti danışıqlar prosesinin tərəfrüatlarını şərh etmir, lakin biz xəbər verə bilərik ki, Dövlət Departamenti Ermənistanın "123 sazişi" ilə bağlı (ABŞ Atom Enerjisi Aktının 123-cü maddəsinə əsasən əməkdaşlıq haqqında saziş) tələbini nəzərə alır və ona müvafiq olaraq baxır".

Başqa sözlə, hər hansı bir ölkəyə nüvə ilə bağlı avadanlıq və ya materialların tədarükü üçün ABŞ həmin ölkə ilə "123 razılaşması" kimi tanınan müqavilə bağlamalıdır. Hazırda ABŞın 48 ölkə ilə belə müqaviləsi var.

Beləliklə, ilk dəfədir ki, ABŞ İrəvanın Vaşinqtonla "123 sazişi" imzalamağa can atdığını açıq şəkildə təsdiqləyib. Bildirilib ki, Ermənistanın bu müraciəti onun ənənəvi müttəfiqi olan Rusiya ilə münasibətlərinin pisləşməyə doğru getdiyi bir vaxtda daxil olub. Müraciət müsbət cavablandırılarsa, Hayastan ABŞ-ın mülki nüvə texnologiyasını əldə edə biləcək. Ermənistanda yeni atom elektrik stansiyasının layihələndirilməsinə və tikintisinə yol açacaq.

Yada salaq ki, bu barədə Ermənistan təhlükəsizlik şurasının sədri Armen Qriqoryan "Ermənistan – Qərb Tərəfdaşlığı – Avropa İttifaqı, çağırışlar və imkanlar" adlı panel müzakirəsində çıxışı zamanı demişdir: "Yeni atom elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlarda biz çox mühüm mərhələyə qədəm qoyduq. Hələlik topun ABŞın meydanında olduğunu deyə bilərəm".

Onu da qeyd edək ki, bu tip (modul) stansiyaları Rusiya da tikir. Atom elektrik stansiyasının tikintisində dünyanın aparıcı şirkəti "Rosatom"dur. İrəvan Moskva ilə də yeni atom elektrik stansiyasının tikməsilə bağlı danışıqlar aparıb. Ancaq bunun üçün 10 milyard dollar lazımdır. Məbləğ ABŞ texnologiyası əsasında tikiləcək AESin xərcindən 2 dəfə çoxdur. Bu səbəbdən Moskva ilə danışıqlar çətin gedib. ABŞ da öz növbəsində yaranmış vəziyyətdən istifadə edərək enerji sektorunda aparıcı ölkələrdən biri olan Rusiyanın mövqeyini zəiflətmək istəyir.

Son hadisələr də hayların Vaşinqtona meyilli olduğunu göstərir. Bu günlərdə nüvə enerjisi üzrə ixtisaslaşmış ABŞ şirkətinin nümayəndələri İrəvanda peyda olublar. Erməni mediası xəbər verir ki, şirkət nümayəndələrinin İrəvanda görünməsi ABŞ-ın gələcək nüvə tikinti layihələrində iştirakının nəinki həll olunmuş, həm də artıq icra mərhələsində olduğuna işarədir.

Çünki podratçı şirkət ABŞ hökumətinin müvafiq departamentinin – Nüvə Tənzimləmə Komissiyasının və Ermənistan hökumətinin müvafiq icazəsi olmadan İrəvana gələ bilməzdilər.

Erməni mediasının yazdığına görə, ABŞ səfirinin müşayiət etdiyi nümayəndələrin İrəvana gəlməsi o deməkdir ki, Nikol Paşinyan hökuməti "Rosatom"un xidmətlərindən imtina edərək, Amerikaya etibar edib. ABŞ şirkəti nümayəndəsini baş nazirin müavini Mher Qriqoryan qəbul edib. Bildirilir ki, görüşdə nüvə müqaviləsinin açıq və gizli şərtlərinin təsdiqləndiyi şübhə doğurmur.

Erməni mediası yazır ki, AES siyasi məsələdir: "Nikol Paşinyan nüvə müqaviləsi müqabilində Donald Tramp administrasiyası ilə hansısa addımları və qərarları razılaşdırıb". Ona da işarə vurulur ki, Paşinyan bu anlaşmaya hakimiyyətini qorumaq üçün razılaşa bilər.

*

Yeri gəlmişkən, "Metsamor" AES-in bölgə üçün fəlakət mənbəyi olduğu, onun tullantılarının Araz çayına axıdıldığı, köhnəlmiş infrastrukturun sıradan çıxması halında regionda qarşısıalınmaz fəlakətlərin yaşana biləcəyi barədə illərdir yazılır, deyilir. Dəfələrlə Azərbaycan tərəfi beynəlxalq qurumların qarşısında bu məsələni qaldırıb. Azərbaycan vətəndaş cəmiyyəti təmsilçilərinin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktoruna ünvanladığı məktubda da "Metsamor" atom elektrik stansiyasının törətdiyi qlobal təhlükəyə toxunulub. Bu stansiyanın fəaliyyətinin dərhal dayandırılması barədə Ermənistan hökuməti qarşısında məsələ qaldırılmasının vacibliyi vurğulanıb: "Köhnə texnologiya ilə işləyən, 9,5 ballıq seysmik zonada 1976-cı ildə inşa edilmiş, cəmi 8 bala hesablanmış "Metsamor" atom elektrik stansiyası Azərbaycan, Türkiyə, Ermənistan və bütün region üçün böyük nüvə təhlükəsi yaradır. Ermənistan hakimiyyətinin AES ilə əlaqədar məsuliyyətsiz davranışları, dünya ictimaiyyətini aldatmağa hesablanan yalan hesabatları bölgəni növbəti Çernobıl və Fukusima qəzalarına doğru aparır. Hər keçən gün bu risk daha da böyüyür. "Metsamor" AES-i istismardan çıxarmaq, beynəlxalq ictimaiyyətin gözlədiyi qaydada və prosedurlara əməl etmək əvəzinə, Ermənistan hakimiyyəti hər dəfə onun ömrünü süni şəkildə uzatmağa çalışır. "Metsamor"un maye tullantıları son nəticədə transsərhəd çayı olan Araz çayına axıdılır. Bu stansiya su qıtlığı olan ərazidə yerləşir, köhnələn reaktorunu soyutmaq üçün su dərinlikdəki quyulardan götürülür. Zəlzələlər zamanı yeraltı suların səviyyəsinin və axınların istiqamətinin dəyişməsi mümkündür, bu isə soyutma sisteminin etibarsızlığını aydın nümayiş etdirir".

"Metsamor"dan qaynaqlanaraq bəzi nüvə materiallarının qanunsuz ticarətinin aparılması da böyük narahatlıq doğurur: "Ermənistan ərazisində 200-dən artıq radioaktiv mənbələr mövcuddur. Bu mənbələr sırasına müxtəlif növ izotoplar daxildir. Ermənistanda radioaktiv izotoplarla əlaqədar qaçaqmalçılıq faktları da mövcuddur. Bu, radionuklidlərin terror məqsədilə istifadə edilməsi ehtimalını artırır. "Metsamor" AESin tullantılarının yerləşdirildiyi poliqonların artıq dolduğu və yeni nüvə tullantıları poliqonunun yaradılması göstərir ki, bu tullantıların yerləşdirilməsi ilə bağlı ciddi problemlər mövcuddur".

Hadisələrin gedişi göstərir ki, "Metsamor" AES ekoloji problemlərlə yanaşı, regionda siyasi problemlər də yaradacaq. Amma Ermənistan hakimiyyəti bu nimdaş tikilidən qurtulmağın yolunu seçərkən də mənfur niyyətlərə əl atır ki, bu da əlavə gərginlik yarada biləcək haldır. Bu, həm də iki nəhəngi – ABŞ ilə Rusiyanı– üz-üzə qoymağa hədəflənən strategiyadır.

**Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı** XQ-yə dedi ki, "Metsamor" AES sovetlər dövründə inşa edilib: " Yerevandan təxminən 30 km qərbdə, Metsamor şəhəri yaxınlığında yerləşir. Stansiya ölkənin əsas elektrik enerjisi mənbələrindən biridir və ümumi istehsalın 40 faizə qədərini təmin edir. Əvvəlcə onun istismar müddəti 2026-cı ilə qədər uzadıldı, sonra yenidən 10 il müddətinə uzadılması istiqamətində işlər aparıldı. Bu işlər Rusiya mütəxəssisləri tərəfindən həyata keçirildi. İndi isə yeni atom elektrik stansiyasının tikintisi planlaşdırılır. Çünki mövcud stansiyanın bu şəkildə qalması bölgə üçün çox böyük təhlükələr törədir. Gələcəkdə baş verəcək qəza bütün regionun əhatə edə bilər. Bu mənada "Metsamor" stansiyasının bağlanması həyati məsələ kimi gündəmdədir. Ona görə də haylar ölkənin elektrik enerjisina olan tələbatını təmin etmək üçün yeni atom elektrik stansiyası tikmək istəyirlər. Bu məqsədlə müxtəlif ölkələrin təcrübəsi öyrənilir. Ermənistan tərəfi "Rosatom" dövlət korporasiyası tərəfindən hazırlanmış yeni blokun tikintisinin ilkin texnikiiqtisadi əsaslandırmasını nəzərdən keçirib. ABŞda öz təklifi ilə çıxış edib.

Onu da qeyd edim ki, adi atom elektrik stansiyasının tikintisi milyardlarla dollara başa gəlir və azı 7–8 il çəkir. Ermənistanın belə vəsaiti yoxdur və Rusiyanın krediti hesabına yeni atom elektrik stansiyasının tikintisinə razılıq vermək İrəvanın Moskvanın orbitindən çıxmaq planlarını pozacaq. Axı, Kreml "Rosatom"dan "Qazprom" kimi geosiyasi təsir rıçaqı kimi istifadə edir. "Rosatom" tərəfindən tikilən atom elektrik stansiyası həm nüvə yanacağı, həm zavodun saxlanması, həm də ödənilməmiş kreditlər baxımından Rusiyadan asılılıq deməkdir. Ermənistan bunu istəmir. İkincisi, Rusiya tərəfinin özünün layihəni maliyyələşdirmək imkanı məhduddur.Bu səbəbdən İrəvan başqa mənbələr axtarmalı olub".

Professor daha sonra qeyd etdi ki, yeni atom elektrik stansiyasının tikintisi üçün Ermənistan büdcəsində də vəsait yoxdur. Deməli, yalnız ABŞ bu layihənin nəinki benefisiarına, həm də sponsoruna çevrilə bilər.

Beləliklə, Rusiya ilə ABŞ arasında "erməni atomu" uğrunda ciddi rəqabət yaranıb. Göründüyü kimi, Ermənistanın ən əlverişli şərtlərlə problemi həll etmək istəyir. Nəticədə ABŞ faktiki olaraq Rusiyanı regionda əsas təsir rıçaqlarından birindən məhrum edir. Nəzərə alsaq ki, Moskva Ukrayna müharibəsində bataqlığa düşüb, çox güman ki, amerikalılara köhnəlmiş atom elektrik stansiyasını "verərək" Ermənistanı tərk etmək məcburiyyətində qalacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin may ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazitəşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **1** |
| **Azərbaycan Respublikası Birinci vitseprezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **2, 8, 23** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **2,15** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **7** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **12** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **19** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **20** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyrihökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **20** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | **21** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **2** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **23** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **27** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | **29** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **30** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **30** |
| * ** | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **30** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 130** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

**“Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.11ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 131** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

**“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin may ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Mingəçevir** | Mingəçevir, Yevlax | **01** |
| 2. | **“Azərişıq” ASCnin sədri** Vüqar Əhmədov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **01** |
| 3. | **Ədliyyə naziri** Fərid Əhmədov | **İmişli** | İmişli, Beyləqan, Biləsuvar, Saatlı, Sabirabad, Zərdab | **02** |
| 4. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Tərtər, Bərdə, Ağcabədi, Naftalan, Goranboy, Xocalı | **08** |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Göygöl** | Göygöl, Daşkəsən | **08** |
| 6. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Oğuz** | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | **15** |
| 7. | **Energetika naziri** Pərviz Şahbazov | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy | **16** |
| 8. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Xaçmaz** | Xaçmaz, Qusar | **16** |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Daşkəsən** | Daşkəsən, Gədəbəy | **16** |
| 10. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Yardımlı** | Yardımlı, Masallı, Cəlilabad, Lənkəran, Astara, Lerik | **16** |
| 11. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ucar** | Ucar, Zərdab, Kürdəmir, Ağdaş, Göyçay | **16** |
| 12. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **İsmayıllı** | İsmayıllı, Ağsu | **16** |
| 13. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Tərtər** | Tərtər, Bərdə, Ağcabədi, Ağdam, Füzuli, Laçın, Xocalı | **16** |
| 14. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Şamaxı** | Şamaxı, Qobustan | **16** |
| 15. | **“Azəristiliktəchizat” ASCnin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Lerik** | Lerik, Lənkəran, Astara | **16** |
| 16. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Qəbələ** | Qəbələ, Oğuz | **16** |
| 17. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy | **19** |
| 18. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Xaçmaz** | Xaçmaz, Şabran, Siyəzən | **23** |
| 19. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı | **30** |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **İsmayıllı** | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | **30** |
| 21. | **Mədəniyyət naziri** Adil Kərimli | **Siyəzən** | Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar | **30** |
| 22. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | **30** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00da başlayır.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 127** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları”nın təsdiq edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının 3.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasının dövlət orqanlarının aidiyyəti sahələr üzrə diplomatik nümayəndəliklərə və konsulluqlara, beynəlxalq təşkilatlara, diplomatik nümayəndəliklərin tabeliyində yaradılan təşkilatlara təyin etdikləri, diplomatik nümayəndəliklərin və konsulluqların mövcud olmadığı dövlətlərdə isə ayrıca fəaliyyət göstərən xarici dövlətlərdəki nümayəndələrinə və onların (aparatlarının) işçilərinə təminat və kompensasiyaların verilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41 (Cild I) ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”na 2 nömrəli əlavə – “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarında çalışan diplomatik xidmət əməkdaşlarının yaşayış yeri ilə təminatı normaları”nın “Diplomatik xidmət əməkdaşları” sütununda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü sətirdən “, hərbi attaşe (nümayəndə)” sözləri çıxarılsın;

2.2. 5-ci sətirdən “hərbi attaşenin (nümayəndənin) baş köməkçisi,” sözləri çıxarılsın;

2.3. 6-cı sətirdən “hərbi attaşenin (nümayəndənin) köməkçisi,” sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1111 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə”nin 5.25.4-cü və 5.10-cu bəndləri ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 dekabr tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici ölkədəki diplomatik nümayəndəliyinin tabeliyində olan mədəniyyət mərkəzi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 24 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 193 (Cild I) 2ci hissəsi ləğv edilsin.

**5.** “Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələrinə və onların aparatlarının işçilərinə təminatların verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 oktyabr tarixli 430 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1893 (Cild I) ləğv edilsin.

**6.** Bu Qərar 2025ci il aprelin 1dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 132** **Bakı şəhəri, 23 aprel 2025-ci il**

“Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023cü il 22 dekabr tarixli 1058VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.31ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 134** **Bakı şəhəri, 24 aprel 2025ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş “İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106) ilə təsdiq edilmiş “İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi”ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10.1.1-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 10.1.2-ci, 10.1.3-cü yarımbəndlər ləğv edilsin.

**2.** 10.2-ci bəndə “müraciət üçün” sözlərindən sonra “bu tibbi xidmətlər üzrə tarifin” sözləri əlavə edilsin və həmin bənddə “manat” sözü “faiz həcmində” sözləri ilə əvəz edilsin.

**3.** 11.1-ci bəndə “göstərilən” sözündən sonra “planlı” sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Madam Coli başından böyük danışdı

*Kanadanın xarici işlər naziri erməni diasporunun fitvası ilə hərəkət edir*



**Ermənilərin uydurma "soyqırımı"nın 110 illiyi ilə bağlı "X" sosial şəbəkədə paylaşım edən Kanadanın xarici işlər naziri Melani Coli Azərbaycana qarşı qərəzli münasibətini bir daha ortaya qoyub. Fransız əsilli M.Coli Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayətləri görməzdən gəldiyi bir yana, "artsaxlıların" geri qayıdışına dəstək verəcəklərini deməkdən də çəkinməyib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Kanadanın xarici işlər naziri Melani Colinin bədnam açıqlamasını şərh edərkən, onu öz ölkəsinin milli xeyrinə ziyan vuraraq erməni diasporunun maraqlarına xidmətdə ittiham edib: "Ölkəsinin milli maraqlarına üstünlük vermək və beynəlxalq arenada etimadı qorumaq əvəzinə, Kanada erməni milli komitəsinin maraqlarının müdafiəsində iştirak etmək xarici işlər naziri rolu üçün lazım olan mühakimə və məlumatlılıq barədə ciddi suallar doğurur". Azərbaycan xarici siyasət idarəsinin rəsmi nümayəndəsinin sözlərinə görə, M. Coli hələ də Ermənistan tərəfindən etnik təmizləməyə, kütləvi qırğınlara və mədəni soyqırıma məruz qalmış bir milyondan çox azərbaycanlının əzablarını tanımayıb: "Təəssüf ki, siz hələ də Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə, kütləvi qırğınlar, vəhşiliklər, mədəni irsin silinməsi və digər insanlıq əleyhinə cinayətlərdən əziyyət çəkmiş bir milyondan çox azərbaycanlının əzablarını tanımamısınız".

Bu zaman Meloni Colinin ermənipərəstliyini ibrətamiz aforizmdə deyilənlərlə müqayisə edən A.Hacızadə bildirib: "Necə də dəqiq deyilib: Qərəz kölgə kimidir, ağlı qaranlıqlaşdırır". Həm siyasi məntiq, həm də diplomatik yöndən dəqiq tapıntı sayıla biləcək uğurlu müqayisənin ardınca XİN rəsmisi kanadalı nazirə faktlara əsaslanmağın vacibliyini də xatırladıb: "Kiçik bir xatırlatma: həmişə faktlara əsaslanın, erməni diasporunun yalan narrativlərinə yox!".

***

Artıq neçənci dəfədir ki, Azərbaycanı Qarabağda "etnik təmizləmə" aparmaqda itiham edən nazirə cavabında A.Hacızadə onun nəzərinə 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirlərinin beynəlxalq hüquq və tarixi ədalət prinsipləri ilə tam mütənasib olduğunu çatdırıb: "Azərbaycanın 2023-cü ildəki antiterror tədbirləri ölkəmizin ərazisində olan qanunsuz erməni silahlı birləşmələrinin təxribatlarına qarşı qanuni və mütənasib cavab idi. 24 saatdan az davam edən əməliyyat bu birləşmələrin və infrastrukturun neytrallaşdırılmasına yönəlmişdi və tamamilə beynəlxalq humanitar hüquq normalarına uyğun idi".

Azərbaycan XİN rəsmisi haqlı olaraq qeyd edib ki, əməliyyat zamanı mülki əhali və infrastruktur hədəfə alınmayıb, erməni sakinlərin regiondan getməsi isə onların könüllü qərarı olub. Bununla da Kanada xarici işlər naziri rəsmi Bakıdan layiq olduğu cavabı alıb.

Oxucuların diqqətinə bir maraqlı məqamı da çatdırmağı vacib sayırıq. Kanada xarici işlər nazirinin başqa bir ölkənin ərazisindən üçüncü dövlətin sərhədlərini binoklla müşahidə etmək kimi "diplomatik vərdişləri" də var. İki il bundan əvvəl Ermənistana səfəri zamanı Avropa İttifaqının mülki missiyasnın emissarları ilə görüşən, şərti sərhədə baş çəkən, hətta binoklla Azərbaycan tərəfə baxan madam Coli bunun protokol qaydalarının, elementar etik normaların kobud şəkildə pozulması olduğunun fərqinə də varmamışdı. Yəqin Melani Coli uzun müddət ölkəsinin turizm naziri olduğu üçün özünü xarici ölkələrə rəsmi səfərlərində yenə turist kimi aparır. Onun İrəvana səfəri zamanı Azərbaycana qarşı əsassız ittihamlar səsləndirməsi, bu da azmış kimi, Bakını sanksiyalarla hədələməsi, sözün əsl mənasında, həddini aşması idi. Madam Coli yenə də həddini aşdı.

Bütün dünya bilir ki, Kanada yarandığı gündən ABŞın forpostu missiyasını icra edib, siyasi proseslərə yanaşmada Vaşinqtonun boyunduruğundan qurtula bilməyib. Bu Şimali Amerika ölkəsinin dövlət və hökumət başçılarının səlahiyyətləri ABŞ ştatlarının qubernatorlarının səlahiyyətindən də aşağıdır. Meloni Colinin açıqlamalarında faktların təhrif olunması, yalan və böhtan üzərində qurulan ritorika bizə yaxşı tanışdır. Onun ölkəmizin ünvanına yağdırdığı hədyanlar Milli Demokratiya İnstitutunun erməni layihə rəhbərlərinin həyasızcasına uydurduqları yalanlardan qətiyyən fərqlənmir.

***

Kanadanın qalmaqallı və ermənipərəst xarici işlər naziri Melani Coli doqquz il bundan əvvəl – 2016-cı ilin aprelində dördgünlük döyüşlər barədə "X" hesabında paylaşım etmiş, Azərbaycan torpaqlarında öldürülmüş Ermənistan ordusunun əsgərləri üçün acı göz yaşlarıı axıtmışdı. Onun o zaman etdiyi paylaşımından sitat: "2016-cı ilin aprelində Dağlıq Qarabağda (?) baş vermiş dördgünlük müharibənin (?) ildönümündə biz həlak olan insanların xatirəsini yad edirik və Kanadanın sülh və dialoqa sadiqliyini bir daha təsdiqləyirik. Davamlı həll yalnız diplomatiya və beynəlxalq hüquqa hörmət yolu ilə mümkündür".

Azərbaycan həmin diplomatiyanın və beynəlxalq hüququn öz yerini tutacağını 30 il gözlədi. Amma, bu, baş verməyəndə münaqişəni məhz beynəlxalq hüququn diktə etdiyi qaydalara uyğun şəkildə, amma gücün hesabına həll etdi. Və "davamlı həll yalnız diplomatiya və beynəlxalq hüquqa hörmət yolu ilə mümkündür" – deyən kanadalı nazir hələ də anlaya bilmir ki, onun erməni separatizmini və terrorizmini fəal şəkildə dəstəkləməsi Ermənistanla Azərbaycan arasında münasibətlərin diplomatiya və beynəlxalq hüquqa hörmət ilə tənzimlənməsinə mane olur.

Azərbaycanın əzəli torpaqlarını işğalda saxlayan, xalqımıza və dövlətimizə qarşı döyüşmüş, indi Bakıda Femidanın ədalətli hökmünü gözləyən təqsirləndirilən şəxslərə yas tutan bu avantürist nazirin diqqətinə çatdırmağı zəruri sayırıq ki, bu gün nə Bakının, nə də İrəvanın sənin məkrli tövsiyələrinə ehtiyacı var.

Onu da xatırladaq ki, 2023-cü il oktyabrın 25-də Kanada Ermənistanda səfirlik açanda İrəvana təşrif buyurmuş nazir M.Coli ondan bir qədər əvvəl – avqustun 1820də erməni diasporunun Monrealda keçirilən illik festivalında çıxış etmiş, ölkəsinin "Qarabağ erməniləri ilə bağlı məsələlərin həllində fəal rol oynayacağını" bildirmişdi. O vaxt "ermənilər Artsaxda real təhlükə ilə üz-üzədir" – deyən nazir bildirmişdi ki, onun təmsil olunduğu hökumət Cənubi Qafqazda baş verən proseslərə yaxından müdaxilə edəcək. Görəsən, belə məsuliyyətsiz və təxribatçı bəyanat vermək dünyanın hansı ölkəsinin baş diplomatının ağlına gələrdi? 30 illik işğal dövründə ağzına su alıb susan bir ölkənin nazirinin bu gün Azərbaycana qarşı əsassız iddialar səsləndirməyə haqqı yoxdur. Bəli, bu ölkənin xarici siyasət xəttində Fransanın təsiri açıqaşkar hiss olunur. O da məlumdur ki, erməni lobbiçiliyi Kanadada olduqca güclüdür. Yarandığı gündən indiyədək müstəqil xarici siyasəti olmayan Kanadanın missiyası həm də Vaşinqtondan gələn göstərişləri qeyd-şərtsiz icra etməkdir.

Kanadalı nazirin "X" şəbəkədə cəfəng paylaşımı bir daha göstərir ki, o, səriştəsiz və səbatsız diplomatdır. Əks təqdirdə Azərbaycanın bölgə və Avropa üçün hansı əhəmiyyətə malik olduğunu anlayardı.

**P.S.** Əslində, Meloni Coli xarici siyasət idarəsinə rəhbərlik etdiyi ölkənin – Kanadanın bu məsələyə rəsmi mövqeyini ortaya qoyur. Kanadanın ermənipərəst mövqe tutması isə bizə çoxdan məlumdur. Bu ölkə 3 dəfə –1996, 2002 və 2004-cü illərdə saxta erməni soyqırımını tanıması ilə "tarixə düşüb".

***İmran BƏDİRXANLI***
***XQ***



## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü Meloni Coliyə nə lazımdırsa dedi. Ermənipərəst mövqeyini heç vaxt gizlətməyən bu xanımı nə tarixi həqiqətlər, nə də bu günün reallığı maraqlandırır. Onun əsas məqsədi bu "yubiley"i bəhanə gətirərək Azərbaycana qarşı ideoloji təzyiq tapşırığını yerinə yetirməkdir. Halbuki, tamamilə faydasız və bekara bir işlə məşğuldur. Bizim ölkəmizin Kanadadan nə alacağımız var, nə də verəcəyimiz. Okeanın o tayından ünvanımızı nələri üfürürlər, özləri bilər. Kanada xarici işlər nazirinin mövqeyinin, məsələyə yanaşmasının Azərbaycana heç bir təsiri yoxdur.

Bakıda bu faktı da yaxşı bilirlər ki, Jelli Rollun sədrliyinə gətirildiyi və Colinin təmsil etdiyi Liberal partiya fransız əsilli kanadalıların toplandığı qurumdur. Sədr Parisin ağzına baxaraq danışır. Aydın məsələdir ki, Fransa bütün məsələlərdə özünün haypərəst yanaşmasını gizlətmir. Bu "çete"nin danışmalarından, açıqlamalarından heç ermənilərin özləri də xeyir görməyəcəklər. Ona görə ki, ermənipərəst qüvvələr Makronun və ya Jellinin nəsə deməyindən ruhlanaraq, reallıqları yaddan çıxarırlar. Onlar da xəstə daşnak-revanşistlər kimi heç vaxt reallaşmayacaq xəyallarla yaşayırlar.

## Replika

**Qəribə vəziyyət yaranıb. Ermənistan hakimiyyəti qondarma "erməni soyqırımı" mövzusunda bir elə canfəşanlıq eləmir, ancaq dünya saxta iddianın 110-cu ildönümü ilə bağlı göz yaşı tökür. Açıqlamalar, bəyanatlar birbirini əvəzləyir. Hər kəs bir ağızla "erməni soyqırımı"nın bəşəriyyətin tarixində ən faciəli hadisə olduğunu bildirir. Ortada isə yalanın ayaq tutub yeriməsi ilə bağlı dəhşətli durum var. Ancaq məsələnin daha dəhşətli tərəfi də istisna deyil və bu qeydlərimizdə onun üzərində dayanacağıq.**

# Soyqırımı məntiqi: zombilərin zorladığı ədalət

*Dünyanın bəşəri cinayət baxışına sözardı*

Məlum olan, daha doğrusu, tam açıq formada özünü göstərən isə budur ki, ermənipərəst dairələr "erməni soyqırımı"nı antitürk, o cümlədən, antiAzərbaycan siyasətinin mühüm seqmenti kimi istifadə edir, dividend qazanmağa çalışırlar. Bu barədə sonda söz açacağıq. Hələlik isə.

***

Bəli, "erməni soyqırımı" ilə bağlı real faktlar açıqlanmır. Əslində, dünya da 1915-ci ildə nələrin baş verdiyinin fərqinə varmır. Məsələn, İkinci dünya müharibəsi illərində alman faşizminin yəhudilərə qarşı həyata keçirdiyi soyqırımına dair bütün təfərrüatlar məlumdur. Başqa sözlə desək, insanlığa qarşı cinayət faktlarla təsdiqini tapıb. Üstəlik, bu baxımdan nasistlər üzərində qurulmuş Nürnberq məhkəmə prosesinin də ciddi materialları var. Necə deyərlər, kor kor, gör gör. Görəsən, nə üçün eyni dəqiqlikdə yanaşma "erməni soyqırımı"na münasibətdə tətbiq edilmir? böyük olduğu aşkara çıxarılacaq? İnsan taleləri maraqlı deyilmi? Görünür deyilmiş! Olmazmı ki, ciddilik qorunsun? Əgər, həqiqətən, soyqırımı cinayət baş veribsə, təzminat məsələsi qalxmalıdır. Osmanlının varisi kimi Türkiyə də müəyyən məsuliyyət daşımalıdırsa, daşısın, təki ədalət təmin edilsin. Amma...

Dediyimiz kimi, dünya "erməni soyqırımı" ilə əlaqədar konkretlikdən qaçır, sadəcə, saxta göz yaşları tökür ki, onu həmişə görmüşük, yenə də gördük. Halbuki, bu, çıxış yolu sayıla bilməz. Cəfəngiyyata lobbiçilik isə heç olmaz. Belə yanaşma, istəristəməz, mənfi presedent yaradır. Mənfi presedent odur ki, kimlərsə, hansı dövlətlərsə düşmən saydıqları xalqlara qarşı bəşəri cinayət, yaxud cinayətlər törətməyi adi hala çevirəcəklər. Axı məntiq var – beynəlxalq aləm zombilikdən ayılmırsa, yalnız mənasız göz yaşları ilə kifayətlənirsə, hər cür oyunbazlıq mümkündür.

Bəli, soyqırımı faktlarına konkret yanaşılıb cəza tətbiq edilmədiyi, ümumən bəşəri cinayətlər siyasi təsir vasitəsi kimi nəzərdən keçirilmədiyi təqdirdə, kim təminat verə bilər ki, onu törədənlər arxayın düşməyəcəklər? Heç şübhəsiz, onlar siyasi güc amilinə söykənib onsuz da qorxunc əməlləri barədə layiqli hüquqi ölçü tədbirinin götürülməyəcəyini düşünəcək, daha da azğınlaşacaqlar. Cəlladların özlərini suda balıq kimi hiss etmələri nəticəsində insan öldürmək toyuq başı kəsmək qədər asanlaşacaq. Bəlkə dünyaya bu lazımdır?



Fikrimizi qüvvətləndirmək üçün daha bir nüansa diqqət yetirək. Ermənistan baş naziri Nikol Paşinyan bir müddət əvvəl bildirmişdi ki, soyqırımı məsələsini ortaya keçmiş SSRİ atıb. Nikolun nəyə eyham vurduğu məlumdur. Baş nazir demək istəmişdi ki, "erməni soyqırımı", əslində, böyük güclərin oyunudur. Sovetlər Birliyinə bu "oyun" sərhədlərinə yaxın NATO Türkiyəsinin mövcudluğundan duyduğu əndişəni sakitləşdirmək üçün lazım idi.

Deməli, Türkiyənin Ermənistanla (sovet Ermənistanı) sərhədləri var. 1952-ci ildə Ankara Alyansa üzv qəbul olunan kimi, Sovet İttifaqının yadına "soyqırımı" düşdü. Məqsəd bəllidir: sovet insanı, yəni SSRİ vətəndaşı olan ermənilər ölkəsinin sərhədləri yaxınlığındakı Türkiyəni qəddar görməli simada idi. Paşinyanın da ötən əsrin 50-ci illərinə fokuslanması bunu vurğulamaq məqsədi daşıyırdı. Sözümüz ondadır ki, dünya, heç olmasa, Paşinyanın şübhə toxumları səpməsini nəzərə almalı, qondarma iddia ilə bağlı həqiqətlərə can atmalıdır. Amma...

***

Diqqət yetirək, "erməni soyqırımı" məsələsində beynəlxalq miqyasda səslənmiş, demək olar, bütün fikirlərdə başlıca olaraq bu məqam vurğulanır: Dünya soyqırımı cinayətlərinə münasibətdə səssiz qalmamalıdır ki, belə qorxunc hallar bir daha təkrarlanmasın. Çox gözəl! Həqiqətən, düzgün fikirdir. Ancaq məsələ ondadır ki, beynəlxalq birlik soyqırımı məsələsində özünü, obrazlı desək, çobanın qabağına düşən sürü kimi aparıb zombiləşir. Zombiləşir ki, Türkiyə dövlətinin dəfələrlə bildirdiklərinə həssas yanaşılmır. Qardaş ölkə rəsmilərinin mövqeyi budur ki, Ankara 1915-ci il hadisələri ilə bağlı arxivləri açmağa hazırdır.

Məsələ tarixçilər tərəfindən tədqiq edilməli, əsl həqiqətlər üzə çıxarılmalıdır. Türkiyənin bununla əlaqədar Ermənistana təklif göndərdiyi də məlumdur. O da məlumdur ki, ikincinin əvvəlki iqtidarı 1915-ci il hadisələrinin öyrənilməsi ilə bağlı müştərək ekspert komissiyasının yaradılmasından imtina etmişdi. "Erməni soyqırımı" mübahisə predmeti ola bilməzmiş. Niyə?

Beynəxalq aləm də Türkiyənin təklifinə laqeyd yanaşıb və yanaşmaqdadır. Bu laqeydlik, mahiyyətcə, bəşəriyyət əleyhinə cinayətlərə eyni tərzdə münasibətin nəticəsidir. Sual olunur: Bəlkə, doğrudan da, 1915-ci ildə ermənilərə qarşı soyqırımı həyata keçirilib? İndi deyilir ki, guya, 1915-ci ildə 1,5 milyon hay qətlə yetirilib. Bəlkə arxivlər açılsa, bu rəqəmin daha

Onu da bildirək ki, soyqırımı məsələsini siyasi manipulyasiya predmetinə çevirənlər insanlıq əleyhinə ən qorxunc cinayətləri törədənlər qədər təhlükəlidirlər. Beynəlxalq aləm isə bunun fərqinə varmır. Fərqinə varmır və qondarma "erməni soyqırımı"nın 110 illiyi ilə bağlı qaldırılan vaşşivən ritorikası dünya erməniliyinin və ermənipərəstlərin ənənəvi ittiham klişeləri ilə bəzədilir.

Təsəvvür edin, Azərbaycan ərazilərində çoxsaylı cinayətlər törətməkdə, o cümlədən, Xocalı soyqırımı kimi əsrin faciəsini həyata keçirməkdə təqsirli bilinənlər Bakıda məhkəmə qarşısına çıxarılır, vayşivənçilər durumu 1915-ci il hadisələrinin davamı kimi qələmə verirlər. Üstəlik, Azərbaycanın beynəlxalq hüquqla özünə aid ərazilərində hakimiyyətini bərpa etməsi Qarabağ ermənilərinə qarşı etnik təmizləmə kimi qiymətləndirilir. Dünyanın soyqırımı məsələsinə laqeyd münasibət tendensiyasından siyasi suiistifadə elə budur! Belə çıxır ki, Qarabağ caniləri məsuliyyətə cəlb edilməməli, onlar üzərində ədalət mühakiməsi qurulmamalıdır.

***

Sonda bildirək ki, İkinci dünya müharibəsindən sonra beynəlxalq aləmin antinasist köklənişini gördük. Durumun yaranmasına səbəb alman faşizminin bəşəriyyətin o vaxtadək qərarlaşmış dinc və birgəyaşam qaydalarını sıradan çıxarması, dəyərləri altüst etməsi idi. Haqqında söz açdığımız kökləniş isə insanlığın duruma qarşı barışmazlıq immunitetinin parlaq göstəricisi idi. "Erməni soyqırımı"nın timsalında soyqırımı cinayətlərinə baxış siyasi təsir vasitəsinə çevrilirsə, deməli, bəşəriyyətə qarşı təhdid qalmaqdadır. Deməli, dünyanın təhlükəsizliyi də sual altındadır. Beynəlxalq aləm bu barədə indi düşünməlidir. Çünki sabah gec olacaq. Nəzərə alaq ki, dəyərlərin itdiyi, ədalət anlayışının yoxa çıxdığı şəraitdə sabahlar heç açılmaya da bilər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Postmünaqişə mərhələsində uğurlu liderlik



## II MƏQALƏ

### Dövlətlərarası münaqişələr

Ümumi tərifə görə, dövlətlər arasında münaqişələrin müxtəlif səbəbləri ola bilər. Onların sırasında XX əsrin ikinci yarısından başlayaraq, XXI əsrin ilk onilliklərində də özünü göstərən ərazi iddiaları əsas yer tutur. Ərazi iddiasının da müxtəlif səbəbləri, arqumentləri və ya sadəcə, bəhanələri ola bilər. Bu fikir dünya üzrə 1812-ci ildən başlayaraq 1992-ci ilə qədər olan dövlətlərarası münaqişələrdə ərazi iddialarının yeri və rolu araşdırılan tədqiqatlarda irəli sürülür.

Bundan başqa, tədqiqatçılar ərazi iddiası kontekstində beynəlxalq miqyasda rəqabət faktorunun da dövlətlərarası münaqişələri motivə etdiyi haqqında yazırlar.

Nəhayət, nə qədər qəribə də olsa, dövlətlərarası münaqişələrdə ərazi iddiasını bəhanə üçün demokratiya anlayışından suisitifadə edənlər də tapılır. Onlar özlərini "demokratik" göstərib, "avtoritarizmə", "qeyrisivilliyə" qarşı mübarizə aparmaq "zərurəti"ndən başqa dövlətin müəyyən ərazisinə iddialarını əsaslandırmağa çalışırlar.

Deməli, son 200 ilin tarixi təcrübəsinə əsaslansaq, ərazi iddiası səbəbindən yaranan dövlətlərarası münaqişələr məzmunca çox mürəkkəb ola bilər. Ən kiçik görünən məsələni elə şişirdə bilərlər ki, cəmiyyət səviyyəsində ciddi problem kimi görünsün. Burada dövlətlərarası münaqişələrin bir özəlliyini liderlik kontekstində müəyyən etmək olar. Münqişəyə cəlb edilən lider qarşı tərəfin hər bir hiyləsinə hazır olmalıdır. Çünki ərazi iddiasında olan tərəf minbir bəhanə ilə özünü haqlı çıxarmağa çalışacaq. Bunun üçün onun gerçək əsası olmadığını bildiyindən müxtəlif süni arqumentlər və bəhanələr quraşdırıb fəaliyyət göstərəcək və hətta, ümumiyyətlə, problemin mahiyyətini təhrif olunmuş formada təqdim etməyə çalışacaq.

Bunu biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin (artıq keçmiş münaqişədir, onu Azərbaycan təkbaşına həll etmişdir) gedişində əyani gördük. Belə ki, erməni tərəfi açıq və həyasızcasına Azərbaycan torpaqlarının 20%-ni havadarlarının dəstəyi ilə işğal etdikdən sonra, bunu dini və mədəniyyət məsələlərinə, guya Azərbaycanın müasir idarəetmə üsuluna malik olmayan dövlət olmasına görə etdiyini dünyaya yaymağa çalışdı. Həmin sırada bir müddət ermənilər din faktorunu daha çox qabartdılar ki, burada başlıca məqsəd aydın idi – dünyanın güclü xristian dövlətləri və cəmiyyətlərini aldadaraq Azərbaycanın müsəlman dövləti kimi ermənilərə qarşı qanunsuz, hüquqsuz, qeyrisivil davrandığını önə çəksin.

Buna görə də azərbaycanlıların hər bir hərəkətini asanlıqla "terror və soyqırımı" kateqoriyasına aid edib, əsl niyyətlərini örtbasdır edirdilər. Bunun fonunda isə erməni din adamları problemin dinc, ədalətli və humanizmə uyğun həllindən dəm vururdular. Bir tərəfdən, başlanğıcdan erməni kilsəsi işə qarışırdı, erməni diplomatlar məsələni daha çox dini müstəvidə təqdim edirdilər. Digər tərəfdən isə həmişə günahı azərbaycanlıların üzərinə atırdılar. Buna görə də "ədalətli və hüquqi, humanist həll" dedikdə Azərbaycan tərəfinin mütləq surətdə ermənilərə güzəştini nəzərdə tuturdular. Yəni bu, ümumiyyətlə, münaqişəni tarixi ədalətə dayanıb həll etmək deyildi, müxtəlif dini, diplomatik və siyasi ibarələrlə Azərbaycanın təslim olmasına çalışmaq idi. Bu niyyəti hətta münaqişənin başlanğıcından tərəflərin dini nümayəndələrinin Rusiya təmsilçisi də daxil olmaqla apardıqları müzakirələrin mahiyyətindən aydın görmək mümkündür. Bununla bağlı bir sıra elmi araşdırmalar da aparılmışdır.

Ərazi iddiası əsasında meydana gələn dövlətlərarası münaqişələrin yuxarıda apardığımız qısa müqayisələri göstərir ki, onun həm özəl kökləri vardır, həm də həlli elmi baxımdan mürəkkəb prosesdir. Bu kimi problemlərin beynəlxalq miqyasda həlli təcrübəsi də xüsusi əhəmiyyət daşıyır. İndi problemin bu aspekti üzərində bir qədər geniş dayanaq. Çünki onun daha dəqiq və əhatəli təsəvvürü Azərbaycanın münaqişəni həll edə bilməsi fonunda necə yüksək zəkalı və güclü liderə malik olmasını dərk etməyə yardım edəcəkdir.

### BMT-nin yarımçıq "sülhyaratma missiyası"

Dövlətlərarası münaqişə məsələsinə BMT iki səviyyədə yanaşır. Birinci səviyyə münaqişənin həlli mərhələsi ilə bağlıdır. İkinci səviyyə isə münaqişə həllini tapandan sonra "sülh quruculuğu"nun həyata keçirilməsində BMT-nin konseptual iştirakıdır. Keçən əsrin ikinci yarısından bu yana yaranmış təcrübə göstərir ki, BMT-nin hər iki səviyyədə fəaliyyəti yarımçıqdır. Yəni onların heç birində qurum sona qədər uğurlu ola bilməmişdir. Burada müəyyən məsələlərdə xırda istisnalar ola bilər. Ancaq geniş kontekstdə mütəxəssislərin təhlilləri başqa mənzərəni yaradır. Faktlara baxaq.

1992-ci ildə o dönəmdə BMT-nin Baş Katibi olmuş B.Butros-Qali "dünya üçün günün gündəmi" adlı məruzə etmişdir. Orada BMT-nin münaqişələrin həllində önləyici, nəzarətedici və həlledici rollarını aydın ifadə etmişdir. O cümlədən, dünya üçün daha təhlükəli olan dövlətlərarası münaqişələrin həll edilməsinin ümumi cizgilərini vermişdir. Lakin çox keçmədən məlum oldu ki, dünyada silahlı münaqişələr o dərəcədə riskli, çoxaspektli və çətin həll olunandır ki, yeni yanaşmalara ehtiyac vardır. Onun təsiri nəticəsində B.Butros-Qalinin konsepsiyasını "humanitarlaşdırmaq" kimi bir incə məqamı əlavə etmək lazım gəldi. Məsələ onunla bağlıdır ki, silahlı münaqişə həll olunandan sonra münaqişənin yenidən alovlanması üçün başqa tədbirlər də görmək lazım gəlir. Bundan başqa, münaqişənin nəticələrini aradan qaldıran dövlətlərə xüsusi yanaşma gərəkdir. Çünki münaqişədən sonrakı mərhələ olduqca mürəkkəb məqamlarla müşaiyət olunur.

1994-cü ildə BMT-də Baş Katibin təklif etdiyi konsepsiya yeniləşdirilərək "İnkişaf üçün günün gündəmi" adlandırıldı. Burada həm "sülh" anlayışına pozitiv məna verildi, həm də dövlətin inkişafının postmünaqişə mərhələsinin əsas parametrləri nəzərdən keçirildi. Burada ziddiyyətsiz inkişaf məsələsi ön sıraya çıxarıldı. Beləliklə, "sülh" anlayışı sadəcə "münaqişə yoxdur" kontekstindən çıxarılaraq "davamlı, ziddiyyətsiz inkişaf üçün şərait vardır" kontekstinə transformasiya edildi. Həmin sırada münaqişənin fundamental səbəblərinin aradan qaldırılması və insanların təhlükəsizliyinin yüksək səviyyədə təmin edilməsi xüsusi yer tutdu.

Burada Azərbaycan – Ermənistan münasibətləri üçün də prinsipial konseptual əhəmiyyəti olan bir siyasi qiymətləndirmə məqamı vardır. O, "postmünaqişə mərhələsi" anlayışının hüquqi və siyasi baxımdan tam özünütəsdiq etmədiyi halda belə sülhü təmin etməklə bağlıdır. Çünki əvvəlki sənəddə söhbət əsas olaraq BMT anlamında "postmünaqişə mərhələsi"nin rəsmi başlamasından sonrakı müddətdə fəaliyyətdən gedirdi. 1994-cü il sənədində isə artıq sülh müqaviləsi imzalanmadığı dönəmdə belə münaqişənin baş qaldırmasını əngəlləməkdən bəhs edilir.

Həmin dövr üzərində çox da dayanmadan onu vurğulayaq ki, BMT 2015-ci ildə rəsmi etiraf etdi ki, dövlətlərarası münaqişələrin həllində tam müsbət nəticə ala bilmir. Bu, tarixi bir etiraf idi! Çünki ilk dəfə olaraq BMT gücsüzlüyünü, yəni beynəlxalq hüququn tam işləmədiyini açıq bəyan edirdi. Bunun əsasında yaradılmış Məsləhətçi qrupu yeni məruzə hazırladı. Məruzədə göstərildi ki, 2005-ci ildə BMT-nin yaratdığı strukturlar təşkilatın Nizamnaməsinin əsas vəzifələrini yerinə yetirə bilmir, yəni sülhü qorumaq və ona dəstək verməyin öhdəsindən gələ bilmir. Yekun olaraq, məruzəçilər yeni yanaşma konsepsiyası təklif etdilər. Onun əsas əlaməti BMT-nin sistemli olaraq münaqişələri həll etməkdə iştirakı və postmünaqişə mərhələsində nəticəverici fəaliyyət göstərməsi ilə bağlı idi.

Nəhayət, bizim üçün ciddi əhəmiyyəti olan və BMT təcrübəsinə aid edilə biləcək növbəti məqam. BMT yeni konsepsiyasında münaqişədən sonrakı mərhələdə dövlətlərin dayanıqlı inkişafını bütövlükdə qarşıdurmanın tam həll edilməsi ilə əlaqələndirmişdir. Bu xüsusiyyət BMT-nin 2030-cu ilə qədər dünya üçün davamlı inkişaf konsepsiyasında öz əksini tapmışdır. BMT dayanıqlı və davamlı inkişafın 17 məqsədini müəyyən etmişdir. Onlar kompleks halında dövlətlərin dayanıqlığının möhkəmlənməsinə xidmət etməlidirlər.

Vurğuladığımız məqamlardan bir neçə ümumi qənaət əldə edə bilərik. Birincisi, indiki mərhələdə dövlətlərarası münaqişələrin həlli üsulu ilə postmünaqişə mərhələsində bərpa prosesinin təşkili arasında filosoflar və politoloqlar sıx əlaqə görürlər. Belə ki, təcrübə göstərir ki, münaqişənin həlli metodu sonradan dövlətlər arasında münasibətlərin uğurlu formalaşması üçün ya münbit təməl rolunu oynaya bilər, ya da ona əngəl yaradar. Kolumbiya nümunəsi bu tezisi təsdiq edir.

İkincisi, postmünaqişə mərhələsinin tam hüquqi və siyasi təsbiti olmasa da, bir sıra əlamətlərə görə, hətta münaqişənin gedişi zamanı sonrakı addımları müəyyən etmək mümkündür. Bu məqam BMT-nin 2015-ci ildə postmünaqişə mərhələsi üçün müəyyən etdiyi sənəddə əksini tapmışdır. Deməli, XXI əsrdə dövlətlərarası münaqişələrin həlli ilə ondan sonrakı mərhələdə həyata keçirilməli bərpa işləri vəhdətdə nəzərdən keçirilməlidir.

Üçüncüsü, dövlətlərarası münaqişələrin uğurlu həllində iştirakçıların daxili davamlı və dayanıqlı inkişafı məsələsi də ciddi aktuallıq kəsb edir. Münaqişənin gedişində həmin dövlətlərin BMT-nin 2030-cu ilə qədər müəyyən etdiyi inkişaf konsepsiyasının şərtlərinə əməl etmələri, bütövlükdə, həm münaqişənin həllinə, həm də postmünaqişə mərhələsində uğurlu fəaliyyətə baza yarada bilər.

Nəhayət, dördüncüsü, yuxarıda aparılan təhlil göstərir ki, həm münaqişənin həllində, həm də postmünaqişə mərhələsində liderin rolu aparıcıdır. Lider münaqişədə qalib gəlirsə, onun fəaliyyətinin əhəmiyyəti daha da artır. Çünki müasir dövrdə hər bir münaqişənin həlli təcrübəsi postmünaqişə mərhələsində də uğurlu olmağın əsas məqamlarını aydınlaşdırmağa yardım edir. Bu kontekstdə Prezident İlham Əliyevin liderlik təcrübəsi postmünaqişə mərhələsi üçün xüsusi aktuallıq kəsb edir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Məqsəd aydın, niyyət safdır

## ŞƏT-də müşahidəçi statusu almağımız Avrasiyada sülhə, sabitliyə və inkişafa xidmət edəcək

**Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"da bir çox məsələlərlə yanaşı, iki ölkənin beynəlxalq və regional təşkilatlarda əməkdaşlığı məsələsinə də toxunulur.**

Sözsüz ki, bu çərçivədə ən böyük universal təşkilat olan BMT-nin adı çəkilir. Bildirilir ki, tərəflər BMT mərkəzli dünya quruculuğunun və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizamın və beynəlxalq münasibətlərin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan əsas normalarının qorunmasına səy göstərir, hegemonluğa və güc siyasətinə qarşı çıxırlar.

Bundan əlavə, Çin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində sədrliyini dəstəkləyib və Azərbaycan tərəfinin AQEMin inkişafına yönəlmiş "Daha Güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf" mövzusunda silsilə tədbirlərin keçirilməsi üzrə səylərini yüksək qiymətləndirib. Sənədin digər bəndlərindən birində qeyd edilib ki, Çin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tezliklə üzv olmasını dəstəkləyir. Bildirilib ki, tərəflər dünya iqtisadi düzənində baş verən dəyişiklikləri daha yaxşı əks etdirmək üçün beynəlxalq maliyyə arxitekturasında islahatın təşviqini dəstəkləyiblər.



Birgə bəyanatda digər bir təşkilatın da adı çəkilir. Bu da ölkəmizin son illərdə xüsusi önəm verdiyi Şanxay Əməkdaşlıq Təşkilatıdır. Sənəddə bildirilib ki, Azərbaycan Çinin ŞƏT-ə sədrliyini dəstəkləyir və Çin tərəfinin qurumun keyfiyyətcə inkişafı üçün göstərdiyi əməli səylərini yüksək qiymətləndirir. Azərbaycan "ŞƏT-in Dayanıqlı inkişaf ili" tədbirlərində fəal iştirak etməyə və təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirib. Çin isə Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləyib.

Qeyd edək ki, həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu ŞƏT 2001-ci il iyunun 15-də Çin, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Rusiya liderləri tərəfindən Şanxayda təsis olunan beynəlxalq təşkilatdır. 2017-ci ilin iyunun 9-da təşkilata Hindistan və Pakistan, 2023-cü il iyulun 4-də İran, 2024-cü il iyulun 4-də isə Belarus da üzv qəbul edilib. Beləliklə, hazırda ŞƏTin 10 əsas, 2 müşahidəçi üzvü (Əfqanıstan və Monqolustan) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı və Şri-Lanka) var.

ŞƏT-ə üzv ölkələrin ümumi ərazisi 35 milyon kvadratkilometrdən çoxdur. Bu, Avrasiya ərazisinin 65 faizi deməkdir. 2022-ci ilə olan məlumata görə, ŞƏT ölkələrinin ümumi əhalisi təxminən 3,5 milyard nəfər idi. Bu isə dünya əhalisinin yarısıdır. ÇXR iqtisadiyyatı 2014-cü ildən nominal ümumi daxili məhsula görə dünyada ikinci, alıcılıq qabiliyyəti paritetinə əsaslanan ÜDM-ə görə isə birincidir. Rusiya, Çin, Hindistan və Pakistan "kosmik klub"un üzvləridir.

ŞƏT NATO kimi hərbi blok və ya CənubŞərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) kimi açıq müntəzəm təhlükəsizlik konfransı deyil, aralıq mövqe tutur. Təşkilatın əsas məqsədləri iştirakçı dövlətləri birləşdirən geniş məkanda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizm, separatizm, ekstremizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə, iqtisadi əməkdaşlığın, enerji tərəfdaşlığının, elmi və mədəni qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi elan edilib.

ŞƏT-in iki daimi orqanı – Pekində yerləşən katibliyi və Daşkənddə yerləşən terrorizmə qarşı regional strukturu mövcuddur. Təşkilatın hazırkı Baş katibi Çin nümayəndəsi Can Mindir.

Qeyd etdiyimiz kimi, Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə ölkəmizlə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT-lə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizmlə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

Bu mötəbər təşkilatla əməkdaşlığını uğurla inkişaf etdirən Azərbaycan ŞƏT-də müşahidəçi statusu almaq niyyətindədir. Sürətlə inkişaf edərək regionda ən nüfuzlu dövlətə çevrilən Azərbaycanın müşahidəçi statusu alması bu nüfuzlu qurum üçün də böyük önəm daşıyır. Təbii ki, bunun da əsasında bir sıra mühüm amillər dayanmaqdadır. Əvvəla onu qeyd etmək yerinə düşər ki, Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, özünü bütün dünyada mötəbər beynəlxalq qurumlara uğurla rəhbərlik edən ölkə, qlobal səviyyəli məsələlərin müzakirə olunduğu mühüm platforma kimi sübut edib. 2011-ci ildə dünyanın 155 dövlətinin dəstəyini alaraq BMT Təhlükəsizlik Şurasının qeyridaimi üzvü seçilən Azərbaycanın BMTdən sonra dünyada ən böyük təşkilat olan Qoşulmama Hərəkatına uğurlu sədrliyi, ölkəmizin ötən il COP29 kimi ən nüfuzlu tədbirə ev sahibliyi etməsi Prezident İlham Əliyevin dünyada böyük hörmət və nüfuz sahibi olmasının göstəricisidir. Xüsusi vurğulamaq lazımdır ki, dövlətimizin başçısının ŞƏT-in 2024-cü il iyulun 34-də Astanada keçrilən Zirvə görüşündə iştirakı Azərbaycanın COP29 ilə bağlı mesajlarının bu mötəbər platforma vasitəsilə bir daha çatdırılması, eləcə də bu istiqamətdə səmərəli müzakirələrin aparılması baxımından da çox əhəmiyyətli idi. Azərbaycanın bu tədbirdə iştirakı, eyni zamanda, ölkəmizin Şərqlə Qərb arasında bütün sahələrdə mühüm körpü rolunu oynamasının əyani təsdiqi idi.

Prezident İlham Əliyev bir neçə gün öncə Çinin "Sinxua" agentliyinə müsahibəsində ŞƏT-lə əməkdaşlığımızın inkişafına dair fikirlərini belə ifadə edib: "Hesab edirəm ki, Çinin "Şanxay ruhunun təşviqi: ŞƏT fəaliyyətdədir" devizi altında təşkilata sədrliyi onun institusionallaşdırılmasına və beynəlxalq arenada rolunun gələcəkdə də möhkəmlənməsinə kömək edəcək. ÇXR ŞƏT-in təsisçi ölkələrindəndir və təşkilatın inkişafının aparıcı güclərindən biri olaraq qalır. Əminəm ki, Çinin sədrliyi üzrə geniş proqramı çərçivəsində səyləri ŞƏT prinsipləri əsasında çoxtərəfli əməkdaşlığın möhkəmlənməsinə, həmçinin onun vəzifələrinin həyata keçirilməsinə əlavə impuls verəcək. Biz ŞƏT-in fəaliyyətinə böyük əhəmiyyət veririk və bu təşkilatın təməlində dayanan prinsipləri bölüşürük. Regionda etibarlı tərəfdaş və mühüm dövlət olan Azərbaycan beynəlxalq və regional sülhün, təhlükəsizliyin bərqərar olmasına töhfə verməkdə davam edir, ticarət, kommersiya və investisiya əlaqələrinin genişlənməsinə yönəlmiş, bununla da qlobal iqtisadi inkişafa və Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına kömək edən irimiqyaslı iqtisaditicari, nəqliyyat, infrastruktur və energetika sahələrində layihələr həyata keçirir. Həmçinin əminəm ki, ölkələrimizin sıx ikitərəfli qarşılıqlı fəaliyyəti Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcək".

Birmənalı olaraq demək mümkündür ki, Avrasiyada təhlükəsizlik məsələlərini müzakirə etmək üçün mühüm platforma olan ŞƏT-də Azərbaycanın hüquqi statusunun artırılması həm bu təşkilat, həm də ölkəmiz üçün faydalı olacaq.

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi

**İlqar VƏLİZADƏ,**
**"Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri, siyasi şərhçi**



– Prezident İlham Əliyevin aprelin 2224-də Çin Xalq Respublikası etdiyi dövlət səfəri, əlbəttə, çox əhəmiyyətli idi. Səfər əsnasında müxtəlif məsələlər, o cümlədən ÇXR-lə Azərbaycan Respublikası arasında müxtəlif platformalar çərçivəsində münasibətlərin davam etdirilməsi müzakirə edilib. Biz bilirik ki, Çin hazırda Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik edir və Pekinin sədrliyinin gündəmi çox zəngindir. Çin bu təşkilatla digər ölkələr arasında əməkdaşlığın inkiaf etdirilməsi və dərinləşdirilməsi məsələsinə xüsusi önəm verir. Azərbaycan–Çin münasibətlərinin məhz bu platforma çərçivəsində inkişafı həm Bakıya, həm də Pekinə əlavə üstünlüklər gətirəcək.

Qeyd etmək lazımdır ki, Şanxay Əməkdaşlıq Təşkilatı ilk növbədə təhlükəsizlik platformasıdır. Hazırda dünyada təhlükəsizlik məsələsində böyük problemlər yaşanır. Bu problemlər onunla səciyyələnir ki, ümumiyyətlə, beynəlxalq, qlobal təhlükəsizlik sistemi dağılır. Əlbəttə, regional əməkdaşlıq və təhlükəsizlik sistemlərinin önəmi, rolu xeyli artır. Ona görə də Azərbaycanla Çin arasında münasibətlər məhz bu platforma çərçivəsində çox vacibdir, önəmlidir. Bu platformada müxtəlif istiqamətlər var ki, tərəflər inkişaf etdirə bilərlər. Burada əməkdaşlıq, sırf təhlükəsizlik, eləcə də digər komponentlər var ki, onların inkişafı və bu çərçivədə işbirliyi hər iki tərəfə böyük fayda verə, dünyada iqtisadi və hərbi təhlükəsizlik prinsiplərinin eroziyası fonunda tərəflərin münasibətlərini daha da yeni səviyyəyə qaldıra bilər.

Şanxay Əməkdaşlıq Təşkilatında Çinlə yanaşı digər ölkələr – bizimlə yaxın olan Mərkəzi Asiya dövlətləri, qardaş Pakistan, qonşu Rusiya və İran təşkilatda təmsil olunurlar. Bu da bizə imkan verir ki, təşkilatda ən azı müşahidəçi statusda çıxış etməklə digər ölkələrlə daha sıx münasibətlər quraq. Digər tərəfdən hüquqi statusumuzun artırılması Azərbaycana öz təşəbbüslərini bu platformada səsləndirməyə imkan yaradacaq.

Bundan əlavə, məlumdur ki, ölkəmiz hücum diplomatiyası strategiyasını seçib. Bu strategiya çərçivəsində belə təşkilatlarda ölkəmizin yer alması xüsusi önəm kəsb edir. Ona görə də düşünürəm ki, Çinin Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycanın hüquqi statusunun artırılmasını dəstəkləməsi ümumi məqsədlərə xidmət edəcək. Həm Cənubi Qafqaz regionunda, həm də bütövlükdə Avrasiyada sülh, sabitlik və inkişafa töhfə verəcək.

Mənəvi qaynaqlarımız

# Söz dünyamızın Mir Cəlal yolu

**Görkəmli yazıçı-ədəbiyyatşünas Mir Cəlal Paşayevin yurd sevgisi ilə mənalanmış ömür yolu, zəngin ədəbi-elmi yaradıcılığı və mükəmməl pedaqoji fəaliyyəti xalqa xidmətin bənzərsiz örnəklərindən biri kimi zaman keçdikcə daha böyük önəm daşıyır, dərin və əhatəli araşdırmalarla mükəmməlləşir.**

Unudulmaz ədibin soy-kök şəcərəsi, mənsub olduğu ailənin kimliyi yaşadığı dövrün siyasi-ideoloji yasaqları şəraitində əhatəli öyrənilməyib, oxuculara bitkinliyi ilə çatdırılmayıb. Xalqa dəyərli övladlar bəxş etmiş Mir Cəlal ailəsinin yetirmələri də cəmiyyətə yetərincə tanıdılmayıb.

Tədqiqatçı-jurnalist Dəyanət Səlimxanlının böyük söz ustasının dünyaya göz açdığı Güney Azərbaycanda və nümunəvi bir ailə qurduğu ölkəmizdə apardığı 5 illik axtarışların nəticəsi olaraq ərsəyə gətirdiyi "Soy ağacı. Müqədəs yolun işıqlı davamı" kitabı bu baxımdan bir sıra qaranlıq məqamlara aydınlıq gətirib, önəm daşıyan sualları cavablandırıb. Həyatı və yaradıcılığı ilə otaylı-butaylı Azərbaycanın mənəvi zənginlik timsalına çevrilmiş, ortaq sevgi qazanmış şəxsiyyətləri arasında şərəfli yer tutan Mir Cəlal Paşayevin anadan olmasının 117-ci ildönümü günündə bu dəyərli nəşrin müəllifi ilə müsahib olduq.

**– Azərbaycanın uzun illər çoxsaylı filoloq, tarixçi və jurnalistlərinin sevimli müəllimi olmuş Mir Cəlalın bioqrafiyası zəngin olduğu kimi, həyat və fəaliyyəti də geniş öyrənilmişdir. Necə oldu ki, siz bu silsiləyə nəsə əlavə etmək üçün araşdırmalara başladınız?**

– Doğrudan da, Mir Cəlal müəllimin həyatının Quzey Azərbaycanla bağlı dövrü, onun buradakı ədəbi-elmi və pedaqoji fəaliyyəti barədə xeyli dəyərli əsər yazılıb, qiymətli araşdırmalar aparılıb. Amma onun o tayda da, bu tayda da böyük hörmət və nüfuz qazanmış ailəsi, doğmaları barədə xalqımız bir çox önəmli məsələlərdən xəbərsiz idi. Mənim bu axtarışa başlamağıma səbəb isə 2005-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə klassik yazıçıların əsərlərinin yeni qrafikalı əlifbamızla çap edildiyi dövrdə yaranan bir sual oldu: Mir Cəlal Paşayev harada anadan olub?

XX əsrin klassikləşmiş ədibi Mir Cəlal Paşayevin yeni çap edilmiş kitabını oxuyarkən görkəmli yazıçımızın təcümeyi-halında onun 1908-ci ildə Təbrizin Əndəbil kəndində anadan olmasını öyrəndim. O vaxta qədərki kitablarda, hətta ilk ensiklopediyamızda Ərdəbil görkəmli yazıçının doğum yeri kimi göstərilirdi. Məni maraq götürdü: Ərdəbil, yoxsa Əndəbil? Sonradan öyrəndim ki, yazıçı məhz Əndəbildə dünyaya göz açıb. "Əndəbil" sözü də yeni ədəbiyyata səbəbsiz salınmayıb.

Mir Cəlalın nəsil şəcərəsini dərindən öyrənmək üçün Güney Azərbaycana getməyi qərara aldım. 2009-cu ilin iyununda yazıçının bibisi oğlu Mir Rəsulla Təbrizə getdik. İlk olaraq Mir Cəlalın qohum-əqrəbasını soraqladım, Əndəbili arayıb-axtardım. Mir Rəsulun dostu Səidağa Əndəbil kəndinin Təbriz yaxınlığında olduğunu söylədi və bizi oraya apardı.

Əndəbil kəndində bizi yüksək hörmətlə qarşıladılar. Kənd sakinləri görkəmli yazıçının babalarının yaşadığı həyəti, evi





Əndəbil kəndi

bizə göstərdilər. Dedilər ki, Mir Cəlalın Mir Maqsud adlı bibisi nəvəsi Təbrizdə yaşayır. Təbrizə qayıdanda Mir Maqsudu axtarıb tapdıq. O dedi ki, Mir Cəlal dayım, həqiqətən, Əndəbildə doğulub, sonra Gəncəyə oxumağa gedib. Dayıoğlu Hafiz Paşayev 2005-ci ildə Güneyə gələndə 2 dəfə Əndəbildə oldu, ata yurdunu ziyarət etdi. Sonra Mir Maqsud bizi nəsillərinin tarixi ilə tanış elədi və söy-kök şəcərəsinin surətini bizə verdi.

**– Kitabınızda bu şəcərədən əlavə, xeyli qiymətli sənəd və mənbələr də yer alıb. Onları necə əldə etdiniz?**

– Bizə bildirdilər ki, nəslin 14 əsrlik tarixini öyrənmək üçün İranın dini-tarixi saxlanclarına getmək lazımdır. Beləliklə, ölkənin Qum Elm Hövzəsinə yola düşdük. Burada nəsəbşünaslıq elmləri doktoru Seyid Hüseynlə görüşdük. Şəcərəni göstərib, gəlişimizin məqsədini izah etdik. Alim bizə dedi ki, əlavə məlumat üçün xeyli vaxt lazım gələcək. Yaxşısı budur siz bizimlə əlaqə saxlayın.

Burada təhsil alan həmyerlimiz Rza Şükürbəyli ilə əlaqə yaratdıq. Beləliklə, 5 il ərzində Təbriz və Əndəbildən əlavə, Sofyan, Şəbüstşər, Urmiya və Tehranda da olduq. Qədim mənbələrə söykənən dəyərli faktlar və sənədlər əsasında şəcərəni tamamlayan xeyli material topladıq.

**– Kitabınızda Əndəbillə bağlı oxucunu təsirləndirən maraqlı epizodlar var...**

– Güney Azərbaycanda seyidlər kəndi kimi tanınan Əndəbilin tarixi 8 əsrə çatır. Oradakı qoç abidələri bu tarixin ayrı-ayrı dövrlərinin yadigarıdır. Mir Cəlalın babası Mir Məhəmməd (Paşa bəy), atası Mir Əliəşrəf, onun övladları Mir Xəlil, Mir Cəlil, yazıçının anası Fatimə haqqında xoş xatirələr indiyədək yaddaşlarda yaşayır. Mir Məhəmmədin mədrəsəsində ətraf kəndlərdən gələnlər də təhsil alıblar. Oğlu Mir Əliəşrəfin böyük dəyirmanı olub. Bu nəsil Əndəbil və onun ətrafında zənginliyi, xeyirxah əməlləri ilə tanınıb. Onlar imkansızlara, yetimlərə, şikəstlərə daim əl tutublar. Fatimə ana bişirdiyi çörəkdən və xörəklərdən mədrəsədə təhsil alanlara pay göndərərmiş.

Mir Cəlil Mir Xəlillə dəyirmanda üyüdülən unu kisələrə yığıb, ətraf kəndlərdə kasıb ailələrə paylayarmışlar. Onlar Miyandoabda şaha məxsus qənd fabrikini də idarə ediblər. Nəslin ulu nənəsi Şahsənəm isə şah nəslindən olub.

**– Sən demə, Mir Cəlalın qardaşı Mir Xəlil Təbrizdə qurulmuş Milli Hökumətin rəhbəri Seyid Cəfər Pişəvərinin yaxın silahdaşlarından olub.**

– Bəli, 1945–1946-cı illərdə Pişəvəri Mir Xəlili Sofiyandan Culfaya qədər fərmandar vəzifəsinə təyin edib və ona bir qara at da bağışlayıb. Milli Hökumətin bir illik fəaliyyəti dövründə Mir Xəlil onun qərarlarını yüksək səviyyədə həyata keçirib. O, Təbrizdə olan Güney ziyalıları ilə də sıx əlaqə saxlayıb.



Mir Cəlalın soy-kök səcərəsi

**– Mir Cəlalın daşıdığı Paşa soyadı kiminlə bağlıdır?**

– Araşdırma zamanı yazıçının əmisi uşaqlarından Mir Həsən qeyd etdi ki, Mir Cəlalın babası Mir Məhəmməd Əndəbilin kəndxudası olub. O, xeyirxah, sərvətini kasıblarla bölüşən bir insan imiş. Mir Məhəmmədi görən kasıblar "Paşam gəldi, paşam gəldi" deyib üstünə qaçarmışlar. "Paşa" soyadı da buradan qaynaqlanıb. Bu gün də nəslin genində yaşayan xeyirxahlıq, alicənablıq bax buradan gəlir.

**– Kitabda görkəmli yazıçımız Mir Cəlalın ötən dövrlərdə arxa planda qalmış insani keyfiyyətləri, ailəsi barədə çoxlarına məlum olmayan fakt və epizodları da oxucular maraqla qarşılayıblar.**

– Mir Cəlalın milli ziyalı, realist yazıçı, dərin zəkalı alim, tələbələrinə övlad sevgisi ilə yanaşan müəllim olması, təlim və tərbiyə metodları, mərhəmət və və şəfqəti, səbr və dözümü, səhvləri bağışlaması, ailə sevgisi, övladlarının tərbiyəsinə diqqəti, qonşulara, qonağa xoş münasibəti söy-kökündən, ailə tərbiyəsindən gəldiyinə görə araşdırmalarım məni bu mövzuları da öyrənməyə həvəsləndirdi. Mir Cəlalın "Ömürgün yoldaşım Püstəxanım və övladlarım mənim şah əsərimdir" sözləri onun müdrik ailə başçısı kimi necə nəcib şəxsiyyət olduğundan xəbər verir. Atası Mir Əliəşrəfin onu Gəncəyə təhsil arxasınca yola salarkən verdiyi nəsihət, söylədiyi müdrik kəlamları bu ailənin müqəddəs dəyərlərimizə sayğı və bağlılığının göstəricisi kimi kitaba əlavə etdim.

**– Sevimli ədibimiz Mir Cəlal müəllimlə bağlı yurdumuzun Güneyində apardığınız axtarış və tapıntıları qısaca necə ifadə edərdiniz?**

– Bunu kitabın sonunda belə yazmışam: Əndəbildə böyük bir tarix var – 14 əsrlik tarix. Əndəbildə bir yol var – Mir Cəlalı Azərbaycanın bu tayına gətirən işıqlı tale yolu!

– Maraqlı məlumata görə təşəkkür edirik.

*Söhbəti apardı: Tahir AYDINOĞLU*

*XQ*

# Nəsimi Rayon Prokurorluğu yeni binaya köçüb



**Aprelin 25-də Nəsimi rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib. Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi rəhbərin xatirəsini ehtiramla anıblar.**




İstifadəyə verilən yeni inzibati binada əməkdaşların rahat və funksional iş şəraiti üçün bütün zəruri texniki avadanlıqlarla təchiz olunmuş xidməti otaqlar, vətəndaşların qəbulu üçün xüsusi hissə, konfrans və iclas zalları yaradılıb. "Elektron prokurorluq" informasiya sistemi də tam şəkildə tətbiq olunub.

Binanın akt zalında keçirilən iclasda Baş prokuror Kamran Əliyev çıxış edərək bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. Bu istiqamətdə atılan ardıcıl və məqsədyönlü addımlar Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan dövlətçilik strategiyasının mühüm tərkib hissəsini təşkil edib. Bu yol hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə olunub.

Kamran Əliyev prokurorluq əməkdaşlarını daim öz üzərində çalışmağa, bilik və bacarıqlarını təkmilləşdirməyə, eləcə də fəaliyyətlərini dövlətçiliyə sədaqət, dürüstlük və obyektivlik prinsipləri əsasında qurmağa çağırıb.

*XQ*

# Əqli mülkiyyət: melodiya, harmoniya və ritm yaradıcılığı

**Dünən Əqli Mülkiyyət Agentliyi "Konstitusiya və Suverenlik İli" çərçivəsində 26 Aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə "Əqli mülkiyyətin melodiya, harmoniya və ritmlərinin başında yaradıcılıq durur" mövzusunda dəyirmi masa müzakirəsi keçirib.**



Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri professor Kamran İmanovun dəyirmi masada "Əqli mülkiyyətin melodiya, harmoniya və ritmlərinin başında yaradıcılıq durur" mövzusunda məruzəsi dinlənilib. Builki Beynəlxalq Əqli Mülkiyyət Gününün "Əqli mülkiyyətin ritmini hiss et" devizi altında qeyd olunduğunu bildirən natiq qeyd edib ki, son 15 ildə əsasını əqli mülkiyyət təşkil edən qeyri-maddi aktivlərə investisiyalar maddi aktivlərlə müqayisədə 3 dəfə artıb və 2024-cü ildə 7 trilyon ABŞ dollarına çatıb. Dünya üzrə verilən patentlərin üçdəbir hissəsi rəqəmsal texnologiyalara aiddir və generativ süni intellektə əsaslanan patentlər güclü artım göstərir.

Məruzədə diqqətə çatdırılıb ki, musiqili əsərin məzmunu musiqinin emosional və məna yüküdür, onun forması isə melodiya, harmoniya və ritmi əhatə edən əsərin strukturudur. Professor Kamran İmanov bununla bağlı mühüm bir məsələyə diqqət çəkərək deyib: "Belə bir struktur elementi mövcuddurmu ki, ümumi əsərlə yanaşı, müstəqil şəkildə müəlliflik hüququ ilə qorunması mümkün olsun və əgər mövcuddursa, "melodiya", "harmoniya" və "ritm" sırasından bu hansı elementdir?"

Qeyd olunub ki, zaman keçdikcə "müəlliflik" anlayışı dəyişir. Sivilistik (mülki hüquq) doktrina yaradıcılığın müəyyən olunmasında iki yanaşma– subyektiv və obyektiv yanaşmaları nəzərdə tutur. Birinci halda (subyektiv yanaşma) yaradıcılığa dair tələb müəllifin əməyinə, onun əqli fəaliyyət nəticəsində öz şəxsiyyətini və fərdiliyini əks etdirməsinə yönəlir. İkinci halda (obyektiv yanaşma) isə diqqət müəllifin subyektiv-yaradıcı fəaliyyətinə deyil, əqli fəaliyyət nəticəsinin özünün yaradıcı xarakterinə yönəlir.

*XQ*

# Şabranda tibbi aksiya



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və "Referans Medical Group"un dəstəyi ilə keçirilən "Həmkardan həmkara qayğı ilə" sosial layihəsi aprelin 23-24-də Şabran rayonunda davam etdirilib.**



Əvvəlcə Şabran şəhərində ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub. Sonra Şabran Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən ödənişsiz səyyar tibbi müayinə zamanı onkologiya, kardiologiya, nevrologiya, psixiatriya, ginekologiya və endokrinologiya sahəsi üzrə peşəkar həkim heyəti tərəfindən müayinələr aparılıb. İki gün ərzində ümumilikdə 700-dən artıq vətəndaşa 1100-dən çox tibbi xidmət göstərilib. Səhhətində problem aşkarlanan sakinlərə tibbi məsləhətlər verilib, müvafiq müalicələr təyin olunub.

Qeyd edək ki, layihənin ölkəmizin digər dağ, dağətəyi və sərhədyanı rayonlarında da keçirilməsi nəzərdə tutulur.

*XQ*

# Azərbaycan dövləti milli mediamızın xidmətlərini yüksək dəyərləndirir

**“Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Prezident Sərəncamının Azərbaycan dövlətinin media siyasətində növbəti qədirbilənlik aktı, milli jurnalistikamızın keçdiyi tarixi yola verilən yüksək dəyər olduğunu vurğulayan Mətbuat Şurasının sədri Rəşad Məcid XQ-yə açıqlamasında bildirdi:**



– Azərbaycan dövləti milli mediamızın xidmətlərini həmişə yüksək dəyərləndirib. Prezident İlham Əliyevin imzaladığı 25 aprel 2025-ci il tarixli “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” sərəncamı mətbuatımızın ictimai fikir və dövlətçilik tariximizdə oynadığı rola verilən önəmin növbəti nümunəsidir. Bu sərəncam, eyni zamanda, əsası müstəqillik illərində ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli mətbuatımızın yubileylərinin ümummilli bayram kimi keçirilməsi ənənəsinin davamlı olduğunun göstəricisidir. Belə yüksək dəyərə görə dövlətimizin başçısına həm öz adımdan, həm də Mətbuat Şurasının İdarə Heyətinin üzvləri adından dərin təşəkkürümü bildirirəm.

Prezident sərəncamında mediamızın 44 günlük müharibə zamanı, müqəddəs Zəfərimizin əldə edilməsində xüsusi rolunun vurğulanması da sənədin mühüm xüsusiyyətlərindən biridir. Əlbəttə, sənəddə mətbuatın müstəqil dövlət quruculuğu xəttində, o cümlədən, ölkədə söz azadlığı və plüralizmin dərinləşməsindəki missiyasına dəyər verilməsi də son dərəcə önəmlidir.

Onu da deyim ki, Prezident İlham Əliyevin “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı, həmçinin, yol xəritəsi mahiyyəti daşıyır. Sənəddə ölkəmizin qlobal informasiya məkanında təmsilçiliyi kimi mühüm vəzifədən, habelə dezinformasiya və sair bu sayaq mənfi meyillərlə mübarizənin vacibliyindən bəhs edilir. Düşünürəm ki, bütün bunlar jurnalistikamızın keçmişi ilə bu gününü əlaqələndirməyə, gələcəyə baxış bucağımızı optimallaşdırmağa imkan verir.




Azərbaycan Mətbuat Şurası sədri açıqlamasının sonunda dedi: “Əminəm ki, mediamız və jurnalistikamız üçün əlamətdar tarixlə bağlı imzalanmış mühüm dövlət sənədi bu böyük tarixə yüksək dəyərin ifadəsi baxımından yaddaqalan tədbirlərin keçirilməsi ilə yaddaşlarda qalacaq. Sərəncamda Mətbuat Şurasının da məsuliyyəti müəyyən edilib və Şura üzərinə düşən vəzifələri yerinə yetirməyə hazırdır”.

***XQ***

# BAMF Kanada liderinin açıqlamasını cavablandırıb

**Beynəlxalq Avrasiya Mətbuat Fondu Kanadanın baş naziri, Liberal partiyanın lideri Mark Karninin qondarma erməni soyqırımının 110-cu ildönümü ilə bağlı səsləndirdiyi həqiqətə uyğun olmayan fikirləri kəskin təndiq edən bəyanat yayımlayıb. BAMF Karninin açıqlamasının əsassız və qərəzli olduğunu, bütövlükdə, belə çıxışların regionda mümkün sülhə birbaşa təhdid yaratdığını bəyan edib.**

BAMF prezidenti Umud Rəhimoğlunun imzaladığı və Kanada baş nazirinin ofisinə göndərilən bəyanatda deyilir ki, 24




aprel 2025-ci il tarixində Kanadanın baş naziri və Liberal partiyanın lideri Mark Karninin Azərbaycan və Ermənistan arasında baş verənlərlə bağlı səsləndirdiyi əsassız və tarixi reallıqlardan uzaq açıqlama regionda davam edən sülh təşəbbüslərinə, beynəlxalq hüququn prinsiplərinə açıq hörmətsizlikdir: “Beynəlxalq Avrasiya Mətbuat Fondu belə təxribat xarakterli və birtərəfli bəyanatları qətiyyətlə pisləyir, belə fikirləri Cənubi Qafqazda yeni gərginliklərə zəmin yarada biləcək təhlükəli addımlar kimi qiymətləndirir. Cənab Karninin qeyd etdiyi “zorla köçürülmə” ifadəsi qətiyyən reallıqlarla üst-üstə düşmür”.

Sənəddə göstərilir ki, 2023-cü ildə Azərbaycanın Qarabağ bölgəsini könüllü şəkildə tərk edən ermənilər heç bir zorakılığa və ya təzyiqə məruz qalmamış, əksinə, Azərbaycan dövləti tərəfindən onlara humanitar dəstək göstərilmişdir. BMT və digər beynəlxalq təşkilatların nümayəndələri də bölgədə heç bir zorakılıq halının qeydə alınmadığını təsdiqləmişdir.

BAMF 1988-ci ildən bəri Ermənistanın işğal siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlının öz doğma torpaqlarından vəhşicəsinə qovulduğunu, qətlə yetirildiyini, kənd və şəhərlərin viran edildiyini, qəbiristanlıqların dağıdıldığını, mədəni irslərin məhv edildiyini Karninin nəzərinə çatdıraq bildirir: “Ötən əsrdə azərbaycanlılar bir neçə dəfə, son olaraq 1988-1989-cu illərdə isə tamamilə indiki Ermənistan ərazisindəki doğma torpaqlarından deportasiya olunublar. Uzun illər doğma kəndi, evi işğal altında olan, dağıdılan və bu münaqişədən əziyyət çəkən bir milyona yaxın azərbaycanlı qaçqından biri kimi cənab Karniyə xatırlatmaq istəyirik: sülh tarixi saxtalaşdırmaqla deyil, ədalətə və obyektivliyə əsaslanmaqla qurula bilər”.

Açıqlamanın sonunda qeyd edilir ki, Azərbaycan bu gün sülh sazişinin imzalanması üçün konkret və konstruktiv addımlar atır. Ermənistan isə hələ də revanşist ritorikadan əl çəkmir: “Belə bir həssas dövrdə Kanada kimi bir ölkənin baş nazirindən gözlənilən birtərəfli və emosional çıxışlar deyil, regionda dayanıqlı sülhə dəstək verəcək ədalətli və balanslı mövqe nümayiş etdirməkdir.

Beynəlxalq Avrasiya Mətbuat Fondu 30 ildən artıqdır ki, bölgədə sülh və əməkdaşlığın təşviqi üçün çalışan beynəlxalq qeyri-hökumət təşkilatı olaraq, bu tip məsuliyyətsiz bəyanatları kəskin şəkildə qınayır və sülhə xələl gətirə biləcək istənilən addımlara qarşı çıxış etməyə davam edəcəyini bildirir”.

***XQ***

# “Jurnalistikamız vətəndaşlıq dəyərləri ilə zənginləşib”



**Milli məfkurənin formalaşmasında əvəzsiz rolu olan, anadilli mətbuatın qaranquş”u “Əkinçi”qəzetinin şanlı yubileyi ərəfəsində redaksiyamızın növbəti qonağı “Ayna”–“Zerkalo” qəzetlərinin təsisçisi və baş redaktoru olmuş, Azərbaycan Jurnalistlər Birliyinin sədri, Medianın İnkişafı Agentliyi (MEDİA) Müşahidə Şurasının üzvü Elçin Şıxlıdır. Onunla söhbətin əvvəlində şərəfli yol keçmiş milli mətbuatımızın əsas inkişaf mərhələlərinə nəzər saldıq.**

**– Elçin müəllim, əsryarımlıq yolun başlıca tarixi məqamları hansılardır?**

– Bütövlükdə, bu, böyük və işıqlı bir yoldur. Mən bu yolu öz aləmimdə 3 mərhələyə bölürəm. İlk mərhələ 1875-ci ildə “Əkinçi”dən başlayır və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə başa çatır. Sonrakı dövr sovet hakimiyyəti illərini əhatə edir. O vaxt biz də 5 mayı – Moskvada çıxan “Pravda” qəzetinin yarandığı günü peşə bayramı kimi qeyd edirdik. Üçüncü mərhələ isə özündə hazırkı müstəqillik dövrünü ehtiva edir.

Ötən əsin əvvəllərində Azərbaycanın mətbuat şəbəkəsi genişlənib. Bir sıra rusdilli qəzetlər də vardı, lakin əhali arasında çox da populyarlıq qazanmayıb. Həmin dövrdə “Molla Nəsrəddin” jurnalı əli qələm tutan ziyalıları öz ətrafına geniş cəlb edə bilib. Jurnalda karikaturalar da verilir, dizaynın gözəlliyi diqqət çəkirdi...

Növbəti mərhələ – Sovet dövrü 2-ci dəfə dövlət müstəqilliyi qazandığımız vaxta qədər davam edib. O dövrün jurnalistikası da ciddi imzalar yetişdirib. Mətbuat sosialist ideologiyasına xidmət etsə də, ustad qələm sahiblərimiz yeri gəldikcə Ezop dilində, sətiraltı mənalarla çatışmazlıqlardan məharətlə yazırdılar. Əslində, bu, çox çətin idi, çünki məhdud çərçivədən çıxış etmək heç də asan deyildi. Həm də o dövrlərdə jurnalistika bu qədər kütləviləşməmişdi. İndi bu tendensiya vətəndaş jurnalistikasına qədər genişlənib. Azərbaycan Konstitusiyası da icazə verir: istənilən vətəndaş informasiya axtara, toplaya və onu yaya bilər. Amma bu, heç də o demək deyil ki, informasiya yayan hər kəs jurnalistdir. Sırf jurnalistika peşəsinin öz incəlikləri, normaları, strukturu var. Hansısa görüntünü çəkmək, yaymaq hələ jurnalistika deyil.

1988–90-cı illərdə yeni müstəqil jurnalistikamız yarandı. Cəmiyyət ilk olaraq məhz mətbuat vasitəsilə yönəldilməyə başladı, deyərdim ki, müstəqillik ideyaları əsasən bu müstəvidə yayıldı. Milli ruh, azadlıq eşqi güclədi. Bir çox yazıçı və şairlərimizin ictimai-siyasi və peşəkar fəallığı həddən artıq yüksəldi. Əsl milli mətbuat bumu vətənpərvər, savadlı insanların, jurnalistlərin sayəsində yaşanmağa başladı. “Azadlıq”, “Yeni Müsavat”, “Azərbaycan” qəzetləri işıq üzü gördü, mətbuat əsl xalq tribunası oldu. Ona əbəs yerə KİV – kütləvi informasiya vasitəsi demirik. 20 Yanvar hadisələrindən sonra “Kommunist” (indiki “Xalq qəzeti”), partiya nomenklaturasına aid olsa da, “Səhər” qəzeti, əslində, onun iqtisadi əlavəsi kimi nəzərdə tutulsa da, orada çalışanlar qadağa sədlərini dağıdaraq, qanlı qırğının xalqa və dünyaya çatdırılması üçün cəsarətli addımlar atdılar. Digər KİV-lər də həmçinin. Yeni, döyüşkən jurnalistika beləcə yarandı. Mətbuatımızda məna yükü olmayan, yalan informasiyalar da xeyli azaldı.

**– O vaxt hələ sovetdənqalma “Qlavlit” idarəsi, yəni mətbuatı qayçılayan qurum var idi, senzura nəzarəti güclü idi...**

– Elədir. Biz “Zerkalo” qəzetinin nömrələrini çapa verəndə 4 senzordan keçməli olurduq. Bizdə daycest (başqa KİV-lərdə getmiş maraqlı materiallardan qısa seçmələr – red.) formasında xəbərlər verilirdi. Rusiyada çıxan hansısa qəzetdən götürülmüş bir informasiya getmişdi ki, bəs, Brejnev ölməyib, Atlantik okeanında hansısa bir adada yaşayır və sair. Bizə Mərkəzi Komitədən zəng edib soruşdular ki, bu məlumat sizdə hardandır? Az qaldı, bununla bağlı büro iclası çağırsınlar... Bir dəfə də digər qəzetlərdə gedən bir informasiyanı baş senzor “Zerkalo”dan çıxartmışdı. Soruşanda ki, “niyə o biri qəzetlərdə gedir, bizdə olmaz?”, – cavab belə oldu: “O qəzetlər müxalif yönümlüdür, “Zerkalo” isə müstəqildir, olmaz (?!). Belə qeyri-məntiqi yanaşmalar da vardı. Yaxşı ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra senzuranın aradan qaldırıldı.

**– Sizin atanız – böyük ədibimiz İsmayıl Şıxlı həm də jurnalist adını haqq edir. Onun məqalələri, məktubları, çıxışları Azərbaycan mətbuatını bəzəyib. Sizin qələm sahibi olmağınızda atanızın rolu varmı?**

– İnsanın böyüdüyü mühitin ona təsiri mütləqdir. Mən gözümü açandan kitablar görmüşəm, bir növ, atamın kitabxanasında böyümüşəm. Onun yazıpozu çabalarının şahidiyəm. Özüm də çoxlu mütaliə eləmiş, ilk qələm təcrübələrimi, tərcümələrimi atama göstərib, peşəkar məsləhətlər almışam. Yazıçı deyiləm, amma özümü qəzetçi hesab edirəm. Əlbəttə, ailə mühitimizin, konkret olaraq atamın təsiri rol oynayıb.

Evdə, İsmayıl Şıxlının arxivindəki qəzetlərdə onun yazmış oluğu o qədər oçerkləri var ki, kitablara salınmayıb, nəşrə verilməyib. Səbəbini soruşanda deyirdi ki, bu yazılar şahmat lövhəsindəki piyadalar kimidir: döyüşdülər – ya uduzdular, ya da qazandılar – lakin sonda hamısının missiyası bitdi. Bunlar zamanla aktuallığı azalmış yazılardır, kitab halında çap etdirmək olmaz. Jurnalistikada elə janrlar var ki, o istiqamətdə qələmə alınan yazıların ömrü qısadır. Amma, əlbəttə, sonradan jurnalistika tarixini tədqiq edəndə, hansısa hadisəni öyrənmək istəyəndə o xəbərlərin dəyəri olur.

**– Bir halda ki, müsahibəmizə mətbuatımızın 150 illik yubileyi səbəb olub, istərdim ki, Azərbaycan Jurnalistlər İttifaqının tarixinə də ötəri nəzər salasınız.**

– AJB ölkəmizdə ən ilkin jurnalistika təşkilatıdır, 1959-cu ildə yaradılıb. SSRİ miqyasında bütün müttəfiq respublikalarda təşkil edilmişdi. Aparıcısı və təşkilatçısı bir çox hallarda Şıxəli Qurbanov olub. O vaxt bu ittifaqın sanbalı var idi, tanınmış jurnalistlər, yazıçılar təşkilati məsələlərə cəlb edilirdi.

1990-cı ilin 20 Yanvar hadisələri baş verən zaman Azərbaycan Jurnalistlər İttifaqı SSRİ Jurnalistlər İttifaqının tərkibində idi. Bakıda kütləvi tədbirlər qadağan edilsə də, o vaxtkı sədrimiz – mərhum jurnalist Hacı Hacıyevin rəhbərliyi ilə Gəncədə keçirilən plenumda Azərbaycan Jurnalistlər İttifaqının SSRİ Jurnalistlər İttifaqının tərkibindən çıxması barədə qərar qəbul edilib və yaradıcılıq itiifaqı Azərbaycan Jurnalistlər Birliyi adlandırılıb. 1991-ci ildə o vaxtkı ölkə rəhbərliyi Hacı müəllimin yazdığı məktubu nəzərə alaraq, “Əkinçi” qəzetinin ilk nömrəsinin çıxdığı 22 iyulun Milli Mətbuat Günü elan edilməsi ilə razılaşdı. Amma konkret bir addım atılmadı. Mətbuat gününün dəyişdirilməsi prosesinin rəsmi olaraq həyata keçirilməsi və 22 iyulun peşə bayramımız kimi təsdiqlənməsi ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra baş tutdu, bu əlamətdar gün dövlət səviyyəsində rəsmiləşdi.

Xatırladım ki, Mətbuat Şurasının yaradılması ilə bağlı Azərbaycan jurnalistlərinin I qurultayında Hacı Hacıyev də iştirak edib. Hacı müəllim etiraz olaraq bildirmişdi ki, bu, Azərbaycan jurnalistlərinin I qurultayı deyil, biz artıq 6 qurultay keçirmişik... Hazırda Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası daha aparıcı mövqedə qərarlaşıblar. Onu da deyim ki, indi ölkəmizdə neçə-neçə media təşkilatı var.

**– Medianın İnkişafı Agentliyi Mətbuat Şurası ilə birgə çalışmaqla nəsə etmək olarmı?**

– Olar, əlbəttə. Mətbuat Şurasının təsisçilərindən biri də elə AJB idi. 150 illik yubiley tədbirlərindən sonra konkret işlər görə, yeni, birgə fəaliyyət səhifəsi aça bilərik.

**– Yeri gəlmişkən, yubileylə bağlı birliyinizin xəttilə hansısa tədbirlər nəzərdə tutulurmu?**

– AJB-də olan “Həsən bəy Zərdabi” mükafatıdır, onu bir qrup jurnalistə təqdim edəcəyik. Dövlət səviyyəsində də tədbirləri olacaq.

**– Türk şairi Ziya Paşanın 2 misrası yadıma düşdü: “Ayinəsi işdir kişinin, lafə baxılmaz, Şəxsin görünür rütbeyi-əqli əməlində”. Mən bunu sizə aid edirəm. Mətbuat tarixində dərin iz buraxmış “Ayna-Zerkalo” qəzeti niyə fəaliyyətini davam etdirmədi?**

– O vaxt mediaya nəzarət edən adamlar tənqidlə təhqirin arasında fərq görmürdülər. Lakin bunlar başqa anlayışlardır, təhqir etik və hüquqi normalara da uyğun gəlmir. Bizim prinsip belə idi ki, əgər əlində sənəd, sübut yoxdursa, kimsəni tənqid edə bilməzsən. Tənqid ona görə lazımdır ki, qüsurlar düzəlsin. Kimsə öz qüsurunu, neqativlərini görmürsə, görüb düzəltmək istəmirsə, yuxarı dairələr bir tədbir görsünlər. O vaxt media işinə baxan şəxslər isə yanlışları düzəltməkdə, yumşaq desək, həvəsli deyildilər. Bu və digər səbəblərə görə də biz qəzetimizi bağlamalı olduq. İndi internet portalımız fəaliyyət göstərir. Bilirsiniz, informasiya onu yayan KİVə elə ötürülməlidir ki, sənin peşə maraqlarına maneə törətməsin. Bundan ötrü beyin işlətmək, oxumaq, müqayisə və təhlil etmək lazımdır...

**– Elçin müəllim, sizin ixtisasınız ingilisalman dili müəllimliyidir, tərcümə kitablarınız var. AJBdəki fəaliyyətinizlə yanaşı, yenə də tərcümə işi ilə məşğul olursunuzmu?**

– Xeyr, indi tərcümə ilə məşğul deyiləm. “Sehirli nağıllar” və Əziz Nesinin “Futbol kralı” tərcümə kitablarım çap edilib. Onların üzərində illərlə işləmişəm. Bir çox hissələrini atam İsmayıl Şıxlı ilə müzakirə etmişəm. Üzərində redaktorlar, korrektorlar çalışıb. İndi o qədər tərcümə ədəbiyyatı, texnoloji platforma proqramları vasitəsilə bir növ mexaniki üsulla edilən çevirmələr var ki, bəlkə də, bu səbəbdən mən bədii tərcüməyə baş qoşmaq istəmirəm. Amma bunu da deyim ki, əksər tərcümələr müxtəlif proqramlarla olduğu üçün keyfiyyət çox aşağıdır. Estetik zövq gözlənilmir, dil “kalka” tərcümələrlə korlanır. Qardaşım nəşriyyatda redaktor işləyir. Deyir, oxuyuram, redaktə edirəm, baxıram ki, nəsə elə deyil. Çünki səlislik, rəvanlıq, obrazlılıq, məntiqi məna pozulur, orijinalın müəllifinin fikirləri təhrif olunur. Nə bilim, tərcümə yaradıcılığına qayıdıbqayıtmayacağımı zaman göstərəcək.

**– Sonda gənclərə, mətbuata yenicə gələnlərə nə arzulayardınız?**

– Gənclərə çox oxumağı, mütaliə etməyi arzulayardım. Oxuduqca insanın beyni işləyir. Biz oxumaqla, biliyimizi, bilgilərimizi artırmaqla, millət olaraq, dövlət olaraq irəli gedə bilərik. Mən 10–15 il əvvəl Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində dərs demişəm. Auditoriyaya ilk dəfə dərsə girəndə tələbələrə sualım bu olurdu ki, “kim jurnalist olacaq?”. 25 nəfərdən 23-ü əl qaldırırdı. Digərləri bildirirdilər ki, qəbul imtahanında topladığım bal bu fakültəyə çatıb deyə, jurnalistikaya düşmüşəm. Onlara sözüm bu olurdu ki, hər halda, çalışmalı, burada verilən biliklərə yiyələnməlisiniz. Gələcəkdə hansı peşəyə gedirsinizsə gedin, öz fikrinizi şifahi və ya yazılı şəkildə ifadə etməyi bacarmalısınız. Bir də ki, jurnalistin təkcə internet texnologiyalarını bilməsi azdır, gərək necə məsuliyyətli bir sahəni təmsil etdiyini bilsin, öz davranışları, atdığı addımlarla cəmiyyət arasında seçilməyə, nümunəvi olmağa çalışsın, mətbuatımızın korifeylərinin, klassiklərimizin, sələflərimizin irsini dərindən öyrənsin. Dünyagörüşünü daim zənginləşdirsin. Əsas məram Vətənə, millətə fədakar xidmət olmalıdır. Bunlar zəruri şərtlərdir.

***Müsahibəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

Xuntaçıların məhkəməsi

# Ermənistan ordusu kəndlərə hücum edir, insanları öldürür, girov götürür, işgəncə verirdilər



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 25-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin ifadələri ilə davam etdirilib. Zərərçəkmiş şəxslər ifadə verdikdən sonra dövlət ittihamçılarının, zərərçəkmiş şəxslərin nümayəndələrinin, müdafiəçilərin və təqsirləndirilən şəxslərin suallarını cavablandırıblar.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin ifadə vermələri və sualları cavablandırmaları ilə davam etdirilib.

Zərərçəkmiş şəxs Ağalar Əliyev Şuşa şəhərində doğulduğunu, orta məktəbdə ermənilərlə bir yerdə oxuduğunu bildirib. O, Ermənistanın Azərbaycana ərazi iddiaları olan vaxt hüquq-mühafizə orqanlarında çalışdığını deyib.

A.Əliyev "Miatsum hərəkatı" proseslərinin 1988-ci ilin fevralında açıq şəkildə başladığını xatırladaraq qeyd edib: "Dedilər ermənilər tələb edirlər ki, Qarabağ Ermənistana verilməlidir.

Əvvəlcə daş terroruna başladılar. Daş terroru ondan ibarət idi ki, Şuşadan kənara gedən bütün maşınları, o cümlədən avtobusları Əsgəranda, Xankəndinin girəcəyində, Xanabadda yığışan erməni kütləsi daşa basırdı. Bu zaman kimsə yaralanırdı, kiminsə maşınının şüşəsi qırılırdı. Sonralar ağır silahlarla yaşayış məntəqələrini atəşə tutmağa başladılar. 1991-ci il noyabrın 20-də bizim vertolyotu vurdular. Vertolyot vurulan günün səhəri Şuşada mənim toyum idi. Bu, Şuşada axırıncı toy oldu. Həmin gün birinci dəfə idi ki, ermənilər Şuşanı ağır silahlarla yaylım atəşinə tutdular. Demək olar ki, şəhəri lərzəyə saldılar".

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında zərərçəkmiş şəxs qeyd etdi ki, əfsuslar olsun, bizim onlara cavab vermək üçün heç nəyimiz yox idi. Onların isə əksinə, hər şeyləri var idi - 366-cı motoatıcı alay Xankəndidə yerləşirdi, orada xidmət edən zabitlərin, hərbi qulluqçuların çoxu erməni idi. Biz öz tabel silahımıza bir dənə güllə tapmayanda, onlarda dolu silahlar var idi.

O, dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında vertolyotların Azərbaycanın vaxtilə işğal altında olan ərazilərindən Ermənistana və geriyə hərəkət etməsindən danışıb: "Vertolyotları özüm görmüşəm. Ermənistandan adam da daşınırdı, silah da".

A.Əliyev erməni tərəfi ilə danışıqlarda iştirak etdiyini deyib. Qeyd edib ki, bir dəfə əsir və girovları dəyişdirəndən dərhal sonra erməni tərəfi onların avtobusunu atəşə tutub. Nəticədə girovluqdan xilas edilən yaralı azərbaycanlı yenidən xəsarət alıb.

O, təqsirləndirilən şəxslərdən Arkadi Qukasyanı tanıdığını, onun "Sovetskiy Karabax" qəzetinin redaktoru olduğunu bildirib. A.Əliyev qəzetdə azərbaycanlıların öz torpaqlarından didərgin salınmalarına çağırış edildiyini söyləyib. Buna nümunə kimi isə sonralar Ermənistanın müdafiə naziri olmuş Seyran Ohanyanın həmin qəzetə verdiyi müsahibəsini göstərib.

Ardınca zərərçəkmiş şəxslərin nümayəndələri, müdafiəçilər və təqsirləndirilən şəxslər zərərçəkmişə suallar veriblər.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan zərərçəkmiş şəxsin dediklərinə münasibət bildirərək, 1992-ci ildə "Sovetskiy Karabax" qəzetinin artıq çap edilmədiyini, həmin nəşrdə redaktor müavini işlədiyini, zərərçəkmiş şəxsi tanımadığını iddia edib.

Zərərçəkmiş şəxs Orduxan Kərimov da ifadəsində təqsirləndirilən şəxslərdən Arkadi Qukasyanı tanıdığını deyib. O, Ermənistan silahlı qüvvələrinin hadisə törətdiyi yerlərə istintaq qrupunun tərkibində getdiyini deyib.

O.Kərimov 1991-ci ilin yayında Sırxavənd kəndində dörd azərbaycanlının erməni silahlıları tərəfindən yandırıldığını vurğulayaraq qeyd edib: "Yandırılaraq qətlə yetirilənlər iki ata və iki oğul idi. Qaradağlıda 7 nəfər yandırılmışdı. Meşəli qətliamında isə həmin gün çatdıra bilmədik, yalnız bir gün sonra gedib çıxa bildik. Biz kəndə girəndə oradan insan ətinin iyi gəlirdi, sakinləri yandırmışdılar".

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarına cavab verən zaman Şuşanın mütəmadi olaraq raket atəşinə tutulmasından da bəhs edib: "Atışma olanda əhali evlərin zirzəmilərində gizlənirdi. Mənim üç uşağım var idi, balaca idilər. Zirzəmidə o qədər qalmışdılar ki, bədənləri yara olmuşdu".

Zərərçəkmiş şəxs Məhərrəm Hüseynov 1990-cı illərdə Şuşa Polis Şöbəsində çalışdığını, həmin vaxt Xankəndidə keçirilən mitinqlərə Şuşa ermənilərinin də cəlb edildiklərini söyləyib.

Zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarına cavab verərkən Məhərrəm Hüseynov 1992-ci il fevralın 10-dan 11-nə keçən gecə Malıbəyli və Quşçular kəndlərinə erməni silahlı birləşmələri tərəfindən hücum edildiyini, həmin kəndlərin işğal olunduğunu deyib. "Onlarla soydaşlarımızı qətlə yetirdilər. Yaralılar oldu, insanların bir hissəsini girov götürdülər. Azğınlaşmış terrorçular qısa müddət sonra - fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımını törətdilər. Xocalı soyqırımı həqiqətən də, sözün əsl mənasında, bəşər tarixində misli görünməyən bir terror idi", - deyə o əlavə edib.

M.Hüseynov zərərçəkmişlərin nümayəndəsinin həmin vaxt Şuşada ağır silahlar, o cümlədən raketlərin olub-olmaması barədə suala isə belə cavab verib: "Əgər bizim ağır texnikamız olsaydı, Xocalı soyqırımı vəhşicəsinə törədilən zaman onlara tərəf mərmi atardıq ki, qorxsunlar, çəkinsinlər".

Zərərçəkmiş şəxs Arif İbrahimov Şuşa şəhərində qohumlarına məxsus evlərin dağıdıldığını bildirərək deyib: "Evimiz Şuşada olub. Xankəndiyə də gəlib-gedirdim. Şuşada bizim qohumlara aid 32 ev var idi. Şuşa azad olunandan sonra oraya getdim, həmin evlərin heç biri yox idi".

Zərərçəkmiş Əvəz Məmmədov Şuşada anadan olduğunu, orada yaşadığını və müəllim işlədiyini deyib. O əlavə edib: "1988-ci ilin fevralında ermənilər mitinq keçirən gündən Şuşanın işğalını da planlaşdırırdılar".

Ə.Məmmədov ilk vaxtlarda Şuşadan çıxan maşınların daşqalaq edildiyini, insanlara xəsarət yetirildiyini, nəqliyyat vasitələrinin şüşələrinin qırıldığını diqqətə çatdırıb.

Zərərçəkmiş şəxs dövlət ittihamçıları Vüsal Abdullayevin və Təranə Məmmədovanın suallarına cavab olaraq bildirib ki, Ermənistan ordusu növbəti mərhələdə sakinləri azərbaycanlılar olan yaşayış məntəqələrini, o cümlədən Şuşanı atəşə tutub, kəndlərə hücum edib, insanları öldürüb, girov götürüb, onlara işgəncə veriblər.

"Növbəti mərhələdə isə Şuşa T-55 tankları, ağır artilleriya, raketlər ilə atəşə tutulurdu. Dinc əhali, Şuşa qadınları gecələri körpələrlə zirzəmidə keçirirdilər", - deyə o sözlərinə davam edib.

Zərərçəkmiş şəxs Niyazi Həsənov Malıbəyli və Quşçular kəndlərinin 1991-ci il dekabrın sonlarından başlayaraq hücuma məruz qaldığını deyib. Onun sözlərinə görə, fevralın 7-dən hücumlar intensivləşib. Zərərçəkmiş şəxs fevralın 9-da özünün və anasının PDM-dən açılan atəş nəticəsində yaralandığını, bədənində indiyədək qəlpələrin qaldığını bildirib. O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandırarkən kəndlərə hücum edilən zaman dinc əhalinin çıxması üçün heç bir yol, dəhliz verilmədiyini vurğulayaraq qeyd edib: "Biz məcbur olub meşə ilə çıxdıq, özümüzü Ağdamın Abdal-Gülablı kəndinə çatdırdıq. Abdal-Gülablıdan bizi Ağdam xəstəxanasına apardılar. Xocalı soyqırımından sonra o xəstəxanaya xeyli yaralı gətirdilər. Bizim çarpayıları xəstəxananın həyətində şam ağaclarının altına düzdülər. Həkimlər bizə orada yardım göstərirdilər ki, ölməyək".

Zərərçəkmiş şəxs Sədirxan Əhmədov da Ermənistan ordusu tərəfindən Malıbəyli və Quşçular kəndlərinə edilən hücumdan danışaraq həmin hadisələr zamanı yaralandığını, torpaqlarının işğal edildiyini, qohumlarının öldürüldüyünü bildirib.

Məhkəmədə Niyazi Həsənov və Sədirxan Əhmədov ilə bağlı məhkəmə tibbi-ekspertizasının rəyləri də açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 28-nə təyin olunub.

***XQ***

# "Məhəmməd Füzuli" medalı təsis edildi

***Mükafat ilk dəfə qazax şairi Oljas Suleymenova veriləcək***

**Azərbaycan Yazıçılar Birliyi katibliyinin 2025-ci il 3 saylı qərarı ilə "Məhəmməd Füzuli medalı" təsis edilib. Bu haqda xəbəri AYB-nin beynəlxalq məsələlər üzrə katibi Səlim Babullaoğlu paylaşıb.**




Məhəmməd Füzuli medalının təqdimetmə komissiyasının rəhbəri olan Səlim Babullaoğlu qeyd edib ki, əsasnaməyə görə bu medalla yalnız "yüksək ədəbi uğurlara görə" əcnəbi şair və yazıçılar təltif ediləcək. Nominantlar həm öz ölkəsində, həm də xaricdə yüksək ədəbi uğurları ilə təsdiq və təqdir olunan ədiblərin, eləcə də Azərbaycan ədəbiyyatını, həqiqətlərini öz ölkələrində və dünyada təbliğ edən, sənət əsərlərimizin tərcüməsi sahəsində fəaliyyətlərinə görə fərqlənən ədəbiyyat xadimlərinin sırasından seçilir.

Medalın bürüncdən hazırlandığını, ortasında Məhəmməd Füzulinin barelyefinin əks olunduğunu, xüsusi hazırlanmış diplomla birgə təqdim olunacağını bildirən komissiyasının rəhbəri Səlim Babullaoğlu açıqlamasında deyib:

– Ötən il dahi şairimiz Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi idi və Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevin sərəncamı ilə "Füzuli ili" elan olunmuşdu. İl çərçivəsində həm ölkə səviyyəsində, həm də beynəlxalq səviyyədə çoxlu konfrans və simpoziumlar, tədbirlər keçirildi. Çoxsaylı kitablar, tədqiqatlar çap edildi. AYB-nin "Füzuli ili"nin məntiqi yekunu kimi təsis etdiyi medal il ərzində yalnız 3 əcnəbi ədibə veriləcək.

Azərbaycan Yazıçılar Birliyi katibliyinin qərarı ilə bu il Məhəmməd Füzuli medalı 2 nəfərə – böyük qazax şairi, ədibi, mütəfəkkiri Oljas Suleymenova və görkəmli rumın şairi və alimi, Mihay Eminesku Akademiyasının prezidenti İon Deakoneskuya veriləcək. Azərbaycanın böyük dostu olan Oljas Suleymenovu ədib kimi ölkə ictimaiyyəti yaxşı tanıyır. Onu Azərbaycanda elə öz klassiklərimiz qədər sevirlər. Üstəgəl, bu il onun məşhur "Az I Ya" əsərinin 50 illiyi qeyd olunacaq.

İon Deakonesku isə həm öz ölkəsində, həm də Şərqi Avropada yaxşı tanınan məşhur şair, ədəbiyyat təşkilatçısı və ölkəmizin dostudur. Rumıniyada keçirilən bir çox ədəbiyyat tədbirlərində zamanzaman ölkəmizin və ədiblərimizin təmsil olunmasına şərait yaradıb. Türklərə, Azərbaycana və azərbaycanlılara hörmətlə yanaşır.

Sonda Səlim müəllim vurğulayıb ki, bu ilin may ayında medallar sahiblərinə təqdim ediləcək.

***XQ***

BEYNƏLXALQ HƏYAT

**Dünən Pakistanın müdafiə naziri Xavaca Asif Kəşmirdə baş verən terror aktı ilə əlaqədar bildirib ki, onun ölkəsi ilə Hindistan arasındakı münaqişə nüvə qarşıdurmasına çevrilə bilər. "Dünya birliyi nüvə qarşıdurmasına çevrilə biləcək bu təhlükəli mübahisəyə diqqət yetirməlidir. Hər iki ölkə nüvə dövlətidir", – nazir qeyd edib.**

# Hindistan və Pakistan yenidən üz-üzə...

Xatırladaq ki, aprelin 22-də "Ləşkəre-Taiba" terror qruplaşmasının silahlı üzvləri məşhur turizm şəhəri olan Pahalqamda (Cammu və Kəşmir ittifaq ərazisi) terror aktı törədiblər. 25 Hindistan, 2 Birləşmiş Ərəb Əmirliyi və 1 Nepal vətəndaşı həlak olub, çoxlu sayda insan yaralanıb. Hücum edənlər qaçmağa müvəffəq olublar.

Terror aktının baş verdiyi Pahalqam populyar turizm məkanlarından sayılır. Bura uzun illərdir ki, Pakistanla Hindistan arasında mübahisəli ərazilərdəndir. Əhalinin əksəriyyəti dini inanclarına görə müsəlmanlardır.



Terror hadisəsi Pahalqamın yaxınlığındakı Baysaran adlı çəmənlikdə baş verib. Buranı "Hindistanın İsveçrəsi" adlandırırlar. Yeri gəlmişkən, son onillər ərzində Bollivudun bir çox populyar filmləri məhz Baysaranda çəkilib.

Yerli sakinlərdən birinin sözlərinə görə, hücum edənlər ya 2, ya da 3 nəfər silahlı şəxslər olublar. Terrorçuların nümayəndəsi sosial şəbəkələrdə yazıb ki, Hindistan hökuməti bölgədə mövcud dini və demoqrafik nisbəti dəyişdirmək üçün əraziyə 85 min "yad adam" (qeyri–müsəlmanlar nəzərdə tutulur-müəllif) gətirib və bu da yerli sakinlərin ciddi etirazına səbəb olur. Terrorçular, həmçinin xəbərdarlıq ediblər ki, rəsmi Dehli ədalətsiz hərəkətlərini davam etdirərsə, bura köçürülən yeni ailələr eyni aqibətlə üzləşəcəklər.

Hindistanın Baş naziri Narenda Modi yaraqlıların cəzalandırılacağını bildirib və ölənlərin yaxınlarına başsağlığı verib. Bundan əvvəl isə Pakistan rəsmiləri terror aktında həlak olan ailələrin kədərinə şərik olduqlarını bildirmişdilər.

Hindistan iqtidarı baş verən insidentə görə, əzəli rəqibi İslamabadı günahlandırmağa cəhd edib. Lakin İslamabad bunu qəti surətdə inkar edir və bu ittihamın tamamilə əsasasız olduğunu bildirir.

Pahalqamda baş verən ağır olay Pakistan və Hindistan dövlətləri arasındakı gərgin münasibətləri daha da pisləşdirib. Pakistan vətəndaşları 2 gündür ki, Hindistan ərazisini tərk etməyə məcbur edilirlər. Onlar iki ölkənin quru sərhədində yeganə fəaliyyət göstərən sərhədkeçid məntəqəsi Attari-Vagah vasitəsilə Hindistanı tərk edirlər. Müəyyən müddətdən sonra sərhədkeçid məntəqəsi bağlanacaq.

Hindistan hakimiyyətinin hərəkətlərinə cavab olaraq, Pakistan öz hava məkanını qarşı tərəf üçün bağlayıb. Pakistan həmçinin Hindistan səfirliyinin işçi sayının 30 nəfərə qədər azaldılmasını tələb edib və ticarəti tamamilə məhdudlaşdırıb. O cümlədən Hindistan mallarının Pakistan vasitəsilə 3-cü ölkələrə daşınması qadağan edilib.

Sonda qeyd edək ki, mübahisəli Kəşmir və Cammu vilayətlərini Hindistan öz ərazisinə qatmağa çalışır. Hazırda Kəşmirin şimalqərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. Hindistanla Pakistan arasında bir neçə dəfə ağır hərbi silahlı münaqişə baş versə də, bu problem hələ də öz həllini tapmayıb. Pakistan əhalisinin sayına görə İndoneziyadan sonra dünyanın böyük müsəlman ölkəsidir və müstəqil Azərbaycanın strateji tərəfdaşıdır. Rəsmi İslamabad Ermənistan–Azərbaycan, Qarabağ münaqişəsinin həllində daim prinsipial olaraq Bakını dəstəkləyib. Pakistan bu vaxta qədər işğalçı Ermənistan ilə diplomatik əlaqələr qurmayıb.

***MH ACIXANLI***
***XQ***

"Quba konserv-2" ASC səhmdarlarının nəzərinə!

13 iyun 2025-ci il saat 14.00da "Quba konserv-2" ASC səhmdarlarının 2024-cü ilin maliyyətəsərrüfat fəaliyyəti ilə əlaqədar növbəti illik ümumi yığıncağı Quba şəhəri, Vaqif küçəsi 139 nömrəli ünvanda "Quba konserv-2" ASC-də keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1** Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesabatlarının təsdiqi.

**2** Cəmiyyətin yerləşdiyi dövlət mülkiyyətində olan 7,8 ha torpaq sahəsinin özəlləşdirilməsi və ya satınalma hüququ ilə icarəyə götürülməsi barədə Əmlak Məsələləri Dövlət Xidmətinin müraciətinə baxılması.

**3** Digər cari məsələlər.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiq edən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiqlənmiş surətini) təqdim etməlidir.

"Abşeron Şərab" ASC səhmdarlarının nəzərinə!

14 iyun 2025-ci il saat 11.00-da "Abşeron Şərab" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

**1** 2024-cü ilin maliyyə fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2** 2024-cü maliyyə ilinin yekunlarına görə dividendlərin elan edilməsi və ödənilməsi.

**3** Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

**Telefon: +994 51 255 71 42.**

**Ünvan – Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Dostluq küçəsi 1.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 83 (30777) 26 aprel 2025-ci il, şənbə

## İdman

### Paralimpiya çempionumuz “gümüş” qazanıb



**Azərbaycan parataekvondo komandasının üzvü İmaməddin Xəlilov Çinin Taiyan şəhərində keçirilən “Prezident Kuboku”nda gümüş medal qazanıb.**

70 kiloqram çəki dərəcəsində çıxış edən paralimpiya çempionu zədə səbəbindən final görüşünə çıxmayıb.

Daha əvvəl Sabir Zeynalov (58 kiloqram) həmin yarışda üçüncü yeri tutub.

Qeyd edək ki, Azərbaycanın 4 idmançı ilə təmsil olunduğu yarış “Los-Anceles-2028” Yay Paralimpiya Oyunlarına reytinq xalları qazandırır.

### Avropa çempionatında daha 2 medal



**Monteneqronun paytaxtı Podqoritsada keçirilən Avropa çempionatında komandamız daha 2 medal qazanıb.**

Yarışda təmsilçilərimiz Zelim Tçkayev (81 kq) və Murad Fətiyev (90 kq) bürünc medal qazanıblar. Bununla da komandamızın qazandığı medalların sayı 4-ə çatıb. Bundan əvvəl Əhməd Yusifov (60 kq) və Rəşid Məmmədəliyev (73 kq) bürünc medal qazanıblar.

Qeyd edək ki, Avropa çempionatında ölkəmizi 12 çəki dərəcəsində, ümumilikdə, 15 cüdoçu (9 kişi, 6 qadın) təmsil edir. Yığma həmçinin qarışıq komanda yarışında mübarizə aparacaq.

*L.AZAD*
*XQ*

## HAVA

### Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı şənbə...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 26-da Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim şimal küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Gecə 13–17°, gündüz 22–27° isti olacaq. Atmosfer təzyiqi 751 mm civə sütunundan 757 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70–75, gündüz 45–50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrıayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13–18°, gündüz 27–32°, dağlarda gecə 5–10°, gündüz 15–20° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## İNSAN VƏ TƏBİƏT



# “Başı kəsik gözəl kötük...”

*Başı kəsik gözəl kötük,*
*bu dağı sənə kim çəkdi?*
*Baltanı sənə kim vurdu,*
*bıçağı sənə kim çəkdi?*
*İpəkipək yarpaqların*
*küləklərlə talandımı?*
*Biləkbilək budaqların*
*ocaqlarda qalandımı?*

Ramiz Rövşənin bu şeirini oxuyanda insanın ürəyi qövr eləyir. Xəyalım uşaqlığımın uzaq illərinin enişliyoxuşlu yollarından keçib geri qayıdır. Ağac kölgəsində dincəldiyim, kitab oxuduğum, universitetə hazırlaşdığım günlər yadıma gəlir. Həyətimizdə yaz aylarında çiçək salxımlarından şirə çəkən, bal arılarından ballı çiçəklərini əsirgəməyən akasiya ağacımız düşür yadıma.

Ramiz Rövşən başı kəsik gözəl kötüyü sözlə elə gözəl təsvir edir ki... Şair dililə ona layla çalır. Onun söz sığalı ürəkləri isindirir.

Meşədə hündür bir ağac kəsiləndə şaqqıltıyla əli baltalının üstünə yıxıldığını görmüsünüzmü? Mən öz gözlərimlə görməsəm də, rəhmətlik atam meşədə bunun şahidi olmuşdu. Deyirdi ki, nəvaxtsa adamlar kəsdikləri ağacların altında qalıb ölüblər. Kənddə də danışırdılar ki, filankəsləri meşədə kəsdikləri ağac vurub öldürüb.

Bir payız günü, yaşadığımız yerin yaxınlığında təbiətin pərişan çağında özüm də pərişan oldum. Həmişə kölgəsində oturub dincəldiyim tut ağacını yerində görmədim. Onun yerində başı kəsik qərib bir kötük qalmışdı. Qanunsuz ağac kəsənlər təbiətə və insanlara xar tutun xeyirindən qatqat çox ziyan vurmuşdular. “Sapı özümüzdən olan baltalar”ın qurbanı olmuşdu xar tut. Çox üzüldüm. Ahım tüstü olub göylərə qalxdı. Neçəneçə insanlar onun təmiz havasından ciyərdolusu nəfəs alır, kölgəsində şükranlıqla dincəlir, şirin meyvələrindən yeyirdilər.

...Aylar keçdi. Təbiətin ilk bahar çağında, tut kötüyünün bəxtinə gün doğdu. Şəfəqləri əlvan, üfüqləri qızıla çalan günəşli bir gündə tut kötüyü rəngdənrəngə düşdü. İşıqlı, nurlu göyə, qızılı üfüqlərə sarı həsrətlə boylandı. Şahanə yarpağa, köksünün üstünə atılan torpağa, bir ovuc torpaqdan boy verən çiçəklərə baxıb öz keçmişini andı...

Astaca meh əsir, kötüyün sinəsindən rişələnən yarpaqlara, çobanyastığı çiçəklərinə baxdıqca adamın ürəyi açılır. Doğrudan da kötük ağ günə çıxıb. Bir ovuc torpağa qucaq açıb, sinəsindəki çiçəklərlə könülkönülə dayanıb. Yaşıllığın, gülçiçəyin arasında özünə qarşı mehrməhəbbət görür. Köksündə bülbüllər oxuyur. Dövrəsində cəhcəh vuran quşlarla ülfət bağlayır. Nəfəsinə gül nəfəsi toxunur. Tanrının möcüzəsi kimi, zərifliklə qolboyun yaşayır.

Əhdi möhkəm, qoynu gülüstan başı kəsik gözəl kötük gül açıb, dil açıb. Deyir ki, ey bir ağac əkməyib, min bir ağac kəsən nankorlar! Bütün canlılar yaşamaq istəyir. Sən mənim başımı kəsdin. Amma hikmət dünyasında kötük olub yaşamağın, ömrün sevinc yükünü daşımağın da ilahi bir hikməti var...

...Beləcə, başı kəsik gözəl kötükdən ömrün payızında gözdolusu bir nişanə, ürəkdolusu bir xatirə qaldı. Həm acı, həm də şirin bir xatirə...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# *Bakıda “döyüş gecəsi”nə bilet satışı başlayıb*

## Azarkeşlərin 80 faizdən çoxu xarici vətəndaşlardır




***Azərbaycanda ilk dəfə keçiriləcək UFC döyüş gecəsi üçün biletlərin satışına başlanıb. Biletləri iticket.az platforması üzərindən əldə etmək olar. “UFC Fight Night” Gənclər və İdman Nazirliyi və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin təşkilatçılığı ilə iyunun 21-də Bakı Kristal Zalında keçiriləcək.***

**Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin baş direktoru Maqsud Fərzullayev UFCnin Bakıya gəlişinin Azərbaycanın idman tarixində yeni bir səhifə açdığını deyib:**

– Azərbaycan beynəlxalq miqyaslı tədbirlərə uğurla evsahibliyi edir. UFC ilə tərəfdaşlıq ölkəmizin illərdir ki, idman sahəsindəki dinamik inkişafının, ölkə rəhbərliyinin uğurlu idman siyasətinin məntiqi davamıdır.

Turnirin təşkili prosesində dəstəyini əsirgəməyən bütün tərəfdaş və sponsorlara təşəkkürünü bildirən M.Fərzullayev qeyd edib ki, sayılı günlər qalan tədbirə maraq olduqca yüksəkdir. Avropa və dünyanın müxtəlif ölkələrindən minlərlə UFC azarkeşi səbirsizliklə bilet əldə etməyə tələsir. Gözlənilən qonaqlar sırasında UFC əfsanəsi Həbib Nurməhəmmədov və döyüşçü Taqir Ulanbekov da var. Gecənin əsas döyüşündə UFCnin keçmiş yarımağır çəki üzrə çempionu və reytinq cədvəlində 4-cü pillədə qərarlaşan Camal Hill 7-ci yerdə olan Xalil Rauntree ilə qarşılaşacaq. Minlərlə MMA azarkeşi Kristal Zalda döyüşçüləri, xüsusilə də azərbaycanlı idmançıları dəstəkləmək üçün bir araya gələcək.

Maqsud Fərzullayev qarşıda ölkəmizin daha bir mötəbər tədbirə – “Formula 1” Azərbaycan QranPrisinə ev sahibliyi edəcəyini də vurğulayıb:

– Yarışa 5 aydan az zaman qalıb. Hazırlıq sürətlə davam edir, nəticələr gözlənildiyindən daha yüksəkdir. Bilet alan azarkeşlərin 80 faizdən çoxunu xarici vətəndaşlar təşkil edir.

Qeyd edək ki, UFC-nin 700 milyondan çox azarkeşi və 300 milyona yaxın sosial media izləyicisi var. Turnirlər 170dən artıq ölkədə yayımlanır və hər il təxminən bir milyard evi əhatə edir.

*L.QURBANOVA*
*XQ*

## Sağlamlıq

# Hər gün 1 alma – almasız qalma



**Alma tərkibindəki vitaminlər, minerallar və liflərə görə orqanizmə çox faydalıdır.**

**** C vitamini ilə zəngin olduğu üçün insanı xəstəliklərdən qoruyur.***
**** Bağırsaqların nizamlı işləməsinə kömək edir və qəbizliyin qarşısını alır.***
**** Tərkibindəki antioksidantlar və lif xolesterini azaldır və ürəkdamar xəstəliklərindən qoruyur.***
**** Aşağı kalorili və doydurucu olduğundan pəhriz saxlayanlar üçün ideal qəlyanaltıdır.***
**** Almanın tərkibindəki təbii şəkərin glisemik indeksi aşağı olduğundan qan şəkərinin səviyyəsini artırmır.***
**** Ağızı sağlam və təmiz saxlayır, çox çeynəmək dişləri çürüməkdən qoruyur.***
**** Antioksidant sayəsində beyin funksiyalarına kömək edir, Alzheimer riskini azaldır.***
**** Tərkibindəki vitaminlər və antioksidantlar dərini daha parlaq və sağlam edir.***
**** Qabığında olan flavonoidlər bəzi xərçəng növlərinə qarşı qoruyucudur.***
**** Almadakı təbii şəkər və vitaminlər gün ərzində enerjini artırır.***

***Z.HÜSEYNLİ***
***XQ***

# BDU-da əlvan aksiya



**Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, “BDU könüllüləri”, Tələbə Gənclər Təşkilatının dəstəyi ilə çiçəkəkmə aksiyası keçirilib.**

BDUdan mətbuata bildirilib ki, çiçəkəkmə aksiyasında gənclər təşkilatlarının üzvləri, müxtəlif fakültələrin tələbələri iştirak ediblər.

Aksiya zamanı universitetin həyətində müxtəlif növ çiçəklər əkilib, quşlar üçün evciklər düzəldilib, işıq dirəklərinə gül dibçəkləri quraşdırılıb. Aksiyanın məqsədi ətraf mühitin qorunmasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.

***FİDAN***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3432
SİFARİŞ 752
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00